Xalqın qəzeti!
# Xalq qəzeti
№ 112 (30806) 31 may 2025-ci il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Almaniya Azərbaycanın investisiya mühitini yüksək dəyərləndirir

### Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısının Mixael Harmsla, həmçinin Almaniya biznes dairələri və şirkətlərinin nümayəndələri ilə görüşləri məmnunluqla xatırlandı, Almaniya Prezidentinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin, o cümlədən iqtisadi sahədə əlaqələrimizin genişlənməsində rolu vurğulandı.

Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın inkişaf etdiyi bildirildi.

Mixael Harmsın ölkəmizə səfərinin səmərəli olacağına və iqtisadi əməkdaşlıqla bağlı gündəliyimizin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə edildi.

Qonaq bu gün qarşılıqlı iqtisadi layihələrlə bağlı AZPROMO ilə "Yol xəritəsi"nin imzalanacağını qeyd edərək, bu məsələdə Azərbaycan Prezidentinin siyasi dəstəyini vurğuladı.

Görüşdə Azərbaycanda mövcud olan əlverişli investisiya şəraitinə toxunularaq, bu xüsusda alman iş adamlarının ölkəmizə sərmayə yatırmaları qeyd edildi və iqtisadi əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

## İran və Zəngəzur dəhlizi

### *Ərdoğanın mesajının izi ilə*



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Anadolu" Agentliyinə açıqlamasında diqqəti Zəngəzur dəhlizi üzərinə yönəldib. Daha doğrusu, dəhlizin açılması baxımından İran amilinin vacibliyini qabardıb. Qardaş ölkə liderinin fikirlərinin əhəmiyyəti böyükdür və yazımızda bu barədə, eyni zamanda, Zəngəzur dəhlizinin region üçün əhəmiyyətini vurğulayan cəhətlərdən, onun reallaşmasına yaradılan maneələrdən söz açacağıq.**

Beləliklə, Ərdoğan bildirib ki, Türkiyə ilə Azərbaycanın əlaqələrinin dərinləşməsi Türk Dövlətləri Təşkilatına (TDT) üzv digər qardaş ölkələrimiz üçün mayakdır. Hesab edirik ki, bu mesajın özü ayrıca vurğulanmalıdır. Türkiyə lideri mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü zamanı qurumun əhəmiyyətinə dair ciddi mesajlar vermiş, habelə, vaxtilə Kiprdə, Qarabağda, Bosniyada törədilmiş, bu gün isə Qəzza zolağında yaşanan faciələrin TDT-yə üzv dövlətlər qarşısında sərhəd anlayışına fərqli yanaşmaq, yəni miqyası geniş götürmək və bu genişliyə uyğun düşünmək vəzifəsini müəyyənləşdirdiyini demişdi. Ən başlıcası isə, o, Türk dünyasının coğrafi üstünlüklərini önə çəkmiş, Şərq və Qərb arasında təhlükəsiz və fasiləsiz əlaqəni təmin edən və strateji marşrut kimi ön plana çıxan Orta Dəhlizdən söz açmışdı: "Biz Orta Dəhlizin uğuru üçün Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk və təşkilata üzv dövlətlərin dəstəyinə ümid edirik".

Bəli, Türkiyə lideri Ankara–Bakı münasibətlərini Türk dünyası üçün "mayak" adlandırırsa, Orta Dəhlizin vacib komponenti sayılan Zəngəzur dəhlizi üzərində dayanıb İran amilini qabardırsa, üstəlik, Tehrandan regionda sülh, sabitlik və inkişafa töhfə verəcək addımları dəstəkləməyi gözləyirsə, deməli, Ankaranın nəzərindəki Orta Dəhlizdə İslam respublikasına da yer var.

**(ardı 4-cü səhifədə)**

Azərbaycan–ABŞ: montanalı senatorun ümidverici səfəri



səhifə ➪ 6

Süni intellekt yeni texnoloji inqilab yaradır



səhifə ➪ 8

Məhkəmə Gəncənin Ermənistanın siyasi-hərbi rəhbərliyinin tapşırığı əsasında bombalandığını elan edib



səhifə ➪ 11

## Azərbaycanın xarici siyasəti uğurlar üstündə köklənib

### *Şərqlə Qərb arasında balanslı diplomatiya özünü doğruldur*

**Azərbaycan son illərdə həyata keçirdiyi xarici siyasət strategiyası ilə beynəlxalq arenada mühüm uğurlar əldə etmiş, həm regional, həm də qlobal aktorlar arasında etibarlı tərəfdaş kimi mövqe qazanmışdır. Prezident İlham Əliyevin balanslı, çoxşaxəli və prinsipial xarici siyasəti sayəsində Bakı bir sıra qlobal güclərlə strateji əməkdaşlıq əlaqələri quraraq, regional sabitliyin qorunmasında əhəmiyyətli rol oynamaqdadır.**

Uğurlu xarici siyasətin mühüm tərkib hissəsi olaraq, Azərbaycan – Çin münasibətləri son illərdə sürətlə inkişaf edən, lakin dərinliyi hələ tam qiymətləndirilməyən bir siyasi vektordur. 2025-ci ildə Prezident İlham Əliyevin Çinə rəsmi səfəri Bakı – Pekin xəttində formalaşan strateji etimadın beynəlxalq gündəmə çıxmasına səbəb oldu. Səfər fonunda bütövlükdə Azərbaycanın Asiya ilə münasibətlərində yeni tarazlıq axtarışı, Qərb-Şərq arasında balanslı diplomatiyanın real ifadəsi müşahidə olundu.



ardı səhifə ➪ 7

## Zəngəzurda konsulluq, yoxsa casus yuvası?

səhifə ➪ 5

## Qeyri-müəyyənlik İrəvanı dalanda saxlayır

### *Pulu Rusiyadan, silahı Fransadan alan Ermənistan nəyə ümid bəsləyir?*



**Görünən odur ki, rəsmi İrəvanın reallığa adekvat olmayan davranışları hakimiyyətin həm daxildəki, həm də xaricdəki siyasi mövqelərinə ciddi ziyan vurmaqdadır. Baş nazirin saxta sülh ritorikası inandırıcılıq əmsalını itirdiyi kimi, gah Qərbin, gah da Rusiyanın ünvanına dediyi "strateji müttəfiqlik" tezisləri də göydən asılı qalıb. Bunu İrəvana səfərləri intensivləşmiş rəsmi qonaqların sonrakı qırımından da görmək mümkündür.**

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan–BƏƏ əməkdaşlığı məmnunluq doğurur





**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.**

Telefon danışığı əsnasında dövlət başçıları əlaqələrimizin inkişafından məmnunluqlarını bildirib, xüsusilə iki ölkə arasında yüksəksəviyyəli qarşılıqlı səfərləri və iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi məsələlərini vurğulayıblar.

Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərindən olan iş adamlarından ibarət nümayəndə heyətini qəbul etdiyini xatırladaraq, aparılan səmərəli müzakirələrə toxunub.

Telefon söhbəti zamanı Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlıq etdikləri və bir-birini daim dəstəklədikləri məmnunluqla vurğulanıb, əlaqələrimizin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur və bu, ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaratmışdır.

Sözügedən Strategiya sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş beş Milli Prioritet əsasında həyata keçirilir. Həmin Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənmiş, şaxələnməsi dərinləşmiş, iqtisadi artım davamlı və inklüziv xarakter almış, əhalinin rifah səviyyəsi yüksəlmiş və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşmışdır.

Qeyd olunan nəticələrin əldə edilməsində özəl təşəbbüslərin və investisiyaların cəlbinin təşviqi, biznes mühitinin əlverişliliyinin dəstəklənməsi, qlobal bazarlara çıxış imkanlarının genişləndirilməsi, eləcə də rəqəmsallaşma və insan kapitalının inkişafı mühüm rol oynamışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük Qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirmişdir.

Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi, həmçinin işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın layihələrini, habelə həmin layihələrdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaitinin həcminə və maliyyələşmə mənbələrinə dair təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. bu Sərəncamın 1.1-ci bəndində nəzərdə tutulan layihələr hazırlanarkən aşağıdakıları təmin etsin:

1.2.1. 2027–2030-cu illərdə hazırlanması planlaşdırılan dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əhatə olunmasını;

1.2.2. qabaqcıl beynəlxalq təşkilatlarla və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini;

1.2.3. aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunmasını;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 may 2025-ci il**

# Xorvatiya Respublikasının Baş naziri Zati-aliləri cənab Andrey Plenkoviçə

**Hörmətli cənab Baş nazir!**

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Xorvatiya arasında xoş ənənələr üzərində qurulan əlaqələrin möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Fəal siyasi dialoqumuz, ali və yüksək səviyyəli qarşılıqlı səfərlər və müntəzəm təmaslar müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün yaxşı zəmin yaradır.

Hazırda Azərbaycan ilə Xorvatiya iqtisadi-ticari, humanitar, xüsusilə də minatəmizləmə sahələrində uğurla əməkdaşlıq edirlər. Eyni zamanda ölkələrimiz arasında tərəfdaşlığın prioritet istiqamətlərdən olan enerji sektorunda əməkdaşlıq inkişaf edərək hazırda yeni müstəviyə keçmişdir. Enerji sahəsində uğurlu işbirliyimiz Avropanın enerji təhlükəsizliyinin təminatına öz müsbət təsirini göstərir.

İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız və strateji tərəfdaşlığımız bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və daha da güclənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Xorvatiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 may 2025-ci il**

# İqtisadi Şuranın iclası



**Mayın 30-da İqtisadi Şuranın növbəti iclası keçirilib. Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində ortamüddətli dövr üzrə makroiqtisadi sabitliyin və dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün Tədbirlər Planı, dəstəkləyici iqtisadi siyasət alətləri, büdcə siyasəti və habelə digər prioritet məsələlər ətraflı müzakirə olunub.**

Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzəsi dinlənilib. Təqdim olunan iqtisadi siyasət gündəliyinə dair İqtisadi Şuranın üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# Mərkəzi Seçki Komissiyasının iclası



**Mayın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Əvvəlcə Komissiyanın 2025-ci il 26 may tarixli iclasının protokolu təsdiq olunub. Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsinin ardınca 58 saylı Xaçmaz kənd və 62 saylı Kürdəmir seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması qərara alınıb.

Media mənsublarının iştirakı ilə keçirilən iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# Azərbaycanın QHT heyəti BMT-də

**Nyu-Yorkda BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Khatib Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin nümayəndə heyətini qəbul edib.**



Dima Al-Khatib aprelin 28-də 116 ölkədən QHT-lərin iştirakı ilə Bakıda təsis edilmiş Qlobal Cənub QHT Platformasını alqışladığını bildirərək deyib: "Qlobal Cənub QHT Platforması təşəbbüsünü yüksək qiymətləndiririk. Ümumilikdə Azərbaycan dövlətinin Qlobal Cənuba yönəlik siyasətini, eləcə də QHT-lərə göstərdiyi dəstəyi təqdir edirik".

O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin Qlobal Cənub QHT Platforması ilə sıx əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb.

İcraçı direktor Aygün Əliyeva QHT-lərə Dövlət Dəstəyi Agentliyinin bu qlobal toplantıya tərəfdaş kimi dəstək olduğunu vurğulayıb. O, bu platformanın yaradılması ideyasının COP29 dövründə Azərbaycan vətəndaş cəmiyyətindən gəldiyini məmnunluqla qeyd edib.

Dima Al-Khatib Azərbaycanın COP29-a uğurla sədrlik etməsinə, Bakıda ötən il keçirilmiş bu tədbirin mühüm önəminə və nəticələrinə diqqət çəkib.

***XQ***

# Milli Məclisin yaz sessiyası başa çatıb

**Mayın 30-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.**



İclasda cari məsələlərin müzakirəsi keçirilib. Müzakirələrdə çıxış edən deputatlar mayın 28-də Laçında keçirilmiş Azərbaycan, Türkiyə və Pakistan dövlət başçılarının Zirvə görüşünün ölkəmizin xarici siyasətində dostluq, qardaşlıq və strateji əməkdaşlıq münasibətlərinin önəmli yer tutduğunu bir daha nümayiş etdirdiyini vurğulayıblar. Müzakirələr zamanı deputatlar bir sıra digər aktual məsələlər barədə də öz fikirlərini bölüşüblər.

Sonra Sahibə Qafarova iclasda 10 məsələnin müzakirə ediləcəyini söyləyib. O, birinci məsələnin Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2024-cü ildə fəaliyyəti haqqında məlumat olduğunu bildirib.

Bu məsələ ilə əlaqədar iclasda iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova komitənin 2024-cü il üzrə məlumatını slaydlar vasitəsilə təqdim edib. Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb. Məsələ ətrafında müzakirələrdə çıxış edənlər öz fikir və qeydlərini bildiriblər.

Müzakirələrin sonunda Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2024-cü ildə fəaliyyəti haqqında məlumatı nəzərə alınıb.

S.Qafarova növbəti məsələnin üçüncü oxunuşda "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi olduğunu deyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu məsələ barədə məlumat verib. Konstitusiya Qanununun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri növbəti məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov həmin qanun layihəsini təqdim edib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri gündəliyin növbəti beş məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihəsi barədə söhbət açıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumatı təqdim edib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Komitə sədri Əli Hüseynli isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri gündəliyin son iki məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib və deputatlardan çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib.

"İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub.

Gündəliyin sonuncu məsələsi - Vergi Məcəlləsində, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib.

Deputatların fikirləri dinlənildikdən sonra hər iki qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Sonra yaz sessiyasının yekunları barədə məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, sessiya ərzində parlamentin 14 iclası keçirilib, 65 qanun qəbul edilib. Başqa sözlə, 55 qanunda, o cümlədən 2 Konstitusiya qanununda dəyişiklik qəbul edilib, 8 beynəlxalq sənəd təsdiqlənib.

Sahibə Qafarova Milli Məclisin yaz sessiyasını bağlı elan edib.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi Latviya xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, xoş arzularımı çatdırıram.

Latviya və Azərbaycan ikitərəfli əlaqələri dinamik şəkildə inkişaf etdirib və bu əlaqələr qarşılıqlı maraq doğuran yeni sahələri əhatə etməkdə davam edir. Xalqlarımız arasında qurulmuş yaxşı əlaqələr ölkələrimizin gələcək əməkdaşlığı üçün mühüm baza təşkil edir. Davosdakı son görüşümüzü və fikir mübadiləmizi böyük məmnunluqla xatırlayıram. Ölkələrimizin sülh və təhlükəsizlik şəraitində daha da inkişafını təmin etmək üçün əlaqələrimizin genişləndirilməsini səbirsizliklə gözləyirəm.

Latviya inanır ki, Avropa İttifaqı ilə Azərbaycan arasında daha dərin əməkdaşlıq hər iki tərəfə iqtisadi inkişafın və regional sabitliyin artması da daxil olmaqla mühüm faydalar gətirə bilər. Ona görə də Latviya bu dialoqun gücləndirilməsi istiqamətində səyləri dəstəkləməkdə davam edəcəkdir.

Cənab Prezident, beynəlxalq qaydalara əsaslanan sistemin ciddi sınaqdan keçdiyi bu keşməkeşli vaxtlarda mən Sizi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin əsas prinsiplərini dəstəkləmək üçün çoxtərəfli forumlarda sıx əməkdaşlıq etməyə dəvət edirəm.

Zati-aliləri, Sizə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, ölkənizə və xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Edar s RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

İcazə verin, ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi çatdırım. Zati-alinizə və xalqınıza uğurlar, firavanlıq və rifah arzulayıram.

Bu gün ölkələrimiz arasında dostluq münasibətləri mövcuddur. Ümidvaram ki, Estoniya-Azərbaycan əməkdaşlığı gələcəkdə daha da dərinləşəcəkdir.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı, Azərbaycan Respublikasının, onun xalqının rifahı və firavanlığı naminə ən xoş arzularımı qəbul edin.

**Səmimi hörmətlə,**

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Sizi təbrik edir, xalqınıza firavanlıq və əmin-amanlıq arzulayıram.

Azərbaycan Cənubi Qafqaz regionunda Rumıniyanın strateji, yaxın və etibarlı tərəfdaşıdır. Ölkələrimiz arasındakı sıx əlaqələr möhkəm prinsiplərə və ümumi məqsədlərə əsaslanır. Rumıniya ilə Azərbaycan Respublikası arasında həm ikitərəfli, həm də regional səviyyədə həyata keçirilən çoxsaylı layihələr əməkdaşlığımızın intensivliyini mükəmməl şəkildə əks etdirir.

Mən Rumıniyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini bir daha təsdiqləyirəm. Eyni zamanda, Rumıniyanın bütün səviyyələrdə strateji tərəfdaşlığımızı möhkəmləndirməyə və dərinləşdirməyə sadiqliyini bir daha bildirirəm. Tam əminəm ki, davamlı səylərimiz sayəsində Rumıniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlıq enerji, ticarət, təhsil kimi xüsusi əhəmiyyət kəsb edən sahələrdə inkişaf edəcəkdir. Həmçinin Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında konstruktiv və perspektivli əlaqələrin inkişafında fəal iştirakını davam etdirəcəkdir.

Cənab Prezident, xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı qəbul edəsiniz.

***Nikuşor DAN,***
***Rumıniyanın Prezidenti***

*

**Zati-aliləri!**

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə Azərbaycan Respublikasının Müstəqillik Gününün 107 illiyi münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Azərbaycan xalqının yaxın dostu olan Vyetnam ölkənizin Sizin rəhbərliyinizlə inkişafı, beynəlxalq inteqrasiya sahəsində nailiyyətləri, regionda və dünyada mövqeyinin, statusunun möhkəmləndirilməsi ilə bağlı uğurlara daim maraq göstərir və sevinir.

Məmnuniyyətlə qeyd edirəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri güclü inkişaf mərhələsinə qədəm qoyub və bu baxımdan, 2025-ci ilin may ayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması mühüm tarixi mərhələ olub.

Əminəm ki, Vyetnam ilə Azərbaycan arasında mövcud ənənəvi dostluq və strateji tərəfdaşlıq əsasında ölkələrimiz əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsi, həmçinin bu əməkdaşlığın bütün potensialından hər iki xalqın rifahı naminə istifadə olunması üçün yeni imkanlar əldə edəcəklər.

Azərbaycan Respublikasına tərəqqi, Azərbaycan xalqına səadət arzulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və şərəfli vəzifənizdə böyük uğurlar diləyirəm.

**Hörmətlə,**

***Lıonq KIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Monqolustan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Böyük məmnunluq hissi ilə qeyd edirəm ki, Monqolustan və Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq tarixi və mədəni dəyərlərə əsaslanan ənənəvi dostluq və əməkdaşlıq birgə səylərimizlə daim genişlənir.

Cənab Prezident, COP29 çərçivəsində Bakıda səmimi görüşümüz zamanı razılaşdığımız məsələlərin həyata keçirilməsi üçün Sizinlə birlikdə işləməyə sadiqəm.

Fürsətdən istifadə edərək, Sizi gözəl, zəngin tarixə malik ölkəmizə dövlət səfərinə dəvət etdiyimi bir daha bildirirəm. Əminəm ki, Sizin səfəriniz əlaqələrimizdə yeni səhifə açmaqla yanaşı, Monqolustan və Azərbaycan arasında əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr verəcəkdir.

Cənab Prezident, Sizə və sevimli ailənizə möhkəm cansağlığı, rifah, dost Azərbaycan xalqına firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Uxnaaqiyn XURELSUX,***
***Monqolustanın Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və xalqınızın firavanlığı naminə ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, Yunanıstanın xalqlarımızın mənafeyi naminə əlaqələrimizi dərinləşdirməyə və bütün sahələrdə əməkdaşlığımızı möhkəmləndirməyə hazır olduğunu bildirirəm.

Əminəm ki, biz Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və beynəlxalq hüquq əsasında daha geniş regionda sülh və sabitliyin təşviqi üçün birgə çalışa bilərik.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Konstantinos TASULAS,***
***Yunanıstan Respublikasının Prezidenti***

*

**Zati-aliləri cənab Prezident!**

Azərbaycanın Müstəqillik Gününün ildönümü münasibətilə Zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və xalqına D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının adından və öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan, şübhəsiz ki, Zati-alinizin müdrik rəhbərliyi ilə sosial-iqtisadi inkişaf istiqamətində möhtəşəm uğurlar əldə edib və bununla da həm regional, həm də qlobal məsələlərdə rolunu daha da artırıb.

D-8 ailəsinin ən yeni üzvü kimi Azərbaycan təşkilatımıza özü ilə zəngin təcrübə, dinamizm və inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığa möhkəm sadiqlik gətirib. Biz Azərbaycanın çoxtərəfliliyə və inklüziv inkişafa davamlı dəstəyini yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanın D-8 təşkilatında fəal iştirakı qarşılıqlı fayda naminə qurumun daha da inkişaf etməsinə mühüm töhfə verəcək.

Möhtərəm Prezident, Sizi Müstəqillik Gününüzün ildönümü münasibətilə bir daha təbrik edir, Azərbaycan Respublikasına qarşıdakı illərdə davamlı sülh, tərəqqi, birlik və sabitlik arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***İsiaka Abdulqadir İMAM,***
***D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Zati-aliləri!**

Azərbaycanın milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Qana Respublikasının Hökuməti və xalqı adından Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırıram.

Mən ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin inkişafı üçün Zati-alinizlə sıx əməkdaşlığı davam etdirməyə sadiqliyimi bir daha bildirirəm.

Zati-aliləri, Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Con Dramani MAHAMA,***
***Qana Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə ən xoş arzularımı bildirir, ölkənizə və xalqınıza davamlı tərəqqi, firavanlıq və uğurlar diləyirəm.

**Hörmətlə,**

***II Əl-Hüseyn bin ABDULLAH,***
***İordaniya Haşimilər Krallığının***
***Vəliəhd Şahzadəsi***

*

**Zati-aliləri!**

Xahiş edirəm, ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Azərbaycan bu tarixi günü çoxtərəfliliyin sadiq müdafiəçisi, eyni zamanda sülh və təhlükəsizliyə yönəlmiş qlobal və regional çağırışların geniş spektrinin öhdəsindən gəlmək üçün beynəlxalq səylərə rəhbərlik edərək böyük təcrübə qazanmış ölkə kimi qeyd edir. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməsi kimi mühüm nailiyyəti regional sabitliyə əvəzsiz töhfədir.

Zati-alinizin aydın və strateji baxışı ilə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi təşkilatdakı proseslərə güclü təkan verir. Geniş sədrlik proqramı ilə Azərbaycan öz liderliyini təşkilatın əsas fəaliyyət sahələri olan iqtisadiyyat, ətraf mühit, insan amili, yeni çağırışlarla və təhdidlərlə mübarizə, hərbi-siyasi məsələlər üzrə nümayiş etdirir. Buraya, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin tamhüquqlu regional beynəlxalq təşkilata çevrilməsi prosesinin mühüm mərhələsində nəqliyyat və tranzit əməkdaşlığının inkişafı, eləcə də Azərbaycanın COP-29 Sədrliyinin mühüm uğurları ilə bağlı məsələlər də daxildir.

Cənab Prezident, bu ilin yanvarında Zati-aliniz tərəfindən səmimi qəbula, həmçinin siyasi uzaqgörənliyinizə, strateji baxışınıza, təşkilatımızın transformasiyasına verdiyiniz davamlı dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın uğurlu sədrliyi, üzv dövlətlər arasında təşkilatın Nizamnaməsinin layihəsi üzrə müzakirələrin gedişi bu sənədin 2025-ci ilin oktyabrında Bakıda keçirilməsi planlaşdırılan sammitdə qəbul ediləcəyinə ümid verir. Azərbaycanın səyləri təşkilatın daha da güclənəcəyinə, Asiyada dayanıqlı inkişafa, rəqəmsallaşma prosesinə töhfə verəcəyinə tam əminlik yaradır.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınızın davamlı sülh və firavanlıq yolu ilə irəliyə doğru aparılması istiqamətində fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və***
***Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

*

**Hörmətli cənab Prezident!**

İcazə verin, Azərbaycanın milli bayramı – Müstəqillik Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi təbrik edim.

Sizə cansağlığı və səadət, Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı ifadə edirəm.

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı***
***Təşkilatının Baş direktoru***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

28 May Azərbaycan xalqının milli qürurunu, birliyini, xeyirxahlığını və rifahını təcəssüm etdirən bir gündür.

Sizin müdrik, uzaqgörən və praqmatik siyasətiniz sayəsində Azərbaycan dövlətçiliyi möhkəmlənmiş, vətəndaşların rifahı artmış və respublikanızın beynəlxalq arenadakı nüfuzu yüksəlmişdir.

Zəngin mədəni-tarixi irsə malik ölkəniz bu gün güclü dövlətə çevrilmiş, yüksək iqtisadi artım templərinə nail olmuşdur.

Zamanın sınağından çıxmış Rusiya-Azərbaycan münasibətləri sabit və qarşılıqlı faydalı əməkdaşlıq nümunəsi olaraq qalır. Ortaq dəyərlər, hörmət, etimad və dostluq dövlətlərarası əlaqələrin möhkəm təməlini təşkil edir.

Sankt-Peterburqa göstərdiyiniz daimi diqqətiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan Respublikası Rusiyanın Şimal paytaxtının əsas tərəfdaşlarından biridir.

Əminəm ki, ortaq qəhrəmanlıq tariximiz və inkişaf istiqamətində səylərimiz iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və turizm sahələrində Sankt-Peterburq-Azərbaycan əlaqələrinin daha da genişlənməsinə töhfə verəcəkdir.

Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı və rifah, günəşli Odlar Yurduna isə inamla irəliləməkdə davam etməyi arzulayıram.

**Hörmətlə,**

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının***
***Sankt-Peterburq şəhərinin qubernatoru***

*

**Möhtərəm İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün zəngin mədəni irs, müstəqillik səyləri, ləyaqət əsasında müasir suveren dövlət qurmuş Azərbaycan xalqının azadlıqsevərliyinin, uzaqgörənliyinin və dəyanətinin təcəssümüdür.

Azərbaycan Sizin rəhbərliyinizlə regional sabitliyə sanballı töhfə verməyə və dinamik inkişaf yolu ilə beynəlxalq əlaqələrini genişləndirməyə davam edir.

Bu əlamətdar bayram münasibətilə Azərbaycanın bütün vətəndaşlarına davamlı sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Şurasının prezidenti***

*

**Möhtərəm cənab Prezident!**

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin adından Sizi və Azərbaycan Respublikasının bütün xalqını 28 May - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəniz və xalqınız üçün bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına uzun illər ərzində sülh, xeyirxahlıq, firavanlıq, həmçinin iqtisadiyyat, siyasət, mədəniyyət sahələrində sosial əhəmiyyətli layihələrin həyata keçirilməsində, o cümlədən dostluq əlaqələrinin, ikitərəfli əməkdaşlığın və Azərbaycan ilə Rusiya arasında səmərəli əlaqələrin möhkəmləndirilməsində yeni-yeni uğurlar arzulayıram.

Uca Rəbbimdən Azərbaycanın və onun qardaş xalqının firavanlığı naminə bütün xeyirxah işlərə, təşəbbüslərə öz rəhmətini və bərəkətini göndərməsini dua edirəm.

Möhtərəm cənab Prezident, Müstəqillik Gününüz mübarək olsun!

Hörmətlə və xeyirxah dualarla,

***Müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri,***
***Beynəlxalq Müsəlman Forumunun baş katibi***

*

**Hörmətli cənab Prezident!**

Sizi "Konstitusiya və Suverenlik İli"ndə 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Türk Dünyası Mediatorlar Birliyi və bütün türkdilli dövlətlərin mediatorları adından təbrik etmək şərəfinə nail olduğum üçün çox xoşbəxtəm. Məhz Sizin liderliyinizlə 28 May tarixinə yeni ruh qatılaraq, can Azərbaycanımızın ərazi bütövlüyü, suverenliyi tam təmin olunub və bu, ölkənin müasir tarixinə qızıl hərflərlə yazılıb.

Sizin söylədiyiniz və Türk dünyası mediatorlarının bütün tədbirlərində sevə-sevə dinlədiyimiz, dillər əzbərimiz olan "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir. Azərbaycanın yürütdüyü siyasət bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" sözləriniz bizim əsas fəaliyyət xəttimizi müəyyən edir. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Sizin Türk dünyası üçün müəyyən etdiyiniz strateji xətt bundan sonra yüz illər üçün böyük işlərin həm təməli, həm də davamıdır.

Cənab Prezident, Sizin Azərbaycanda apardığınız innovativ islahatlar bu gün nəinki türkdilli dövlətlər, eyni zamanda, bir çox digər ölkələr üçün də nümunə sayılır. Sizin imzaladığınız "Mediasiya haqqında" Qanun Türkdilli dövlətlərin mediatorlarının demək olar ki, bütün tədbirlərində örnək kimi qəbul edilir. Artıq bir neçə türkdilli dövlət bu qanunu model qanun olaraq qəbul edib və mediasiya institutunun, mediator peşəsinin inkişafında Azərbaycanın nümunəsini tətbiq edir. Bizim peşəmiz dünya üçün yeni yaradılan peşələr sırasındadır. Siz isə Azərbaycanda bu peşə fəaliyyətinin müəllifisiniz. Nəinki türkdilli dövlətlər, həmçinin mediasiya təsisatı olmayan bir çox ölkələr də Sizin bu qərarınızdan ilhamlanaraq öz ölkələrində həmin peşə növünün inkişafı üçün işlər görürlər. Bunun üçün Sizə xüsusi təşəkkür edirəm.

"Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi ilə bağlı bu yaxınlarda imzaladığınız Qanun da bu gün mediatorların diqqət mərkəzindədir. Hətta Özbəkistanda təşkil olunacaq Mediatorların Beynəlxalq Yay Məktəbində həmin Qanunun öyrənilməsi və digər dövlətlərdə tətbiqi ilə bağlı panel müzakirələr və təqdimatlar keçiriləcəkdir. Qurucu üzvlərindən biri də Azərbaycan olan Türk Dünyası Mediatorlar Birliyinin yaradılmasında Sizin strateji xəttinizin çox mühüm rolu var.

Cənab Prezident, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qeyd etmişdir ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Məhz Sizin rəhbərliyinizlə can Azərbaycan bu çətin işi bacardı və ərazi bütövlüyünü bərpa etdi, müstəqilliyini qoruyub saxladı. Bütün Türk dünyası Sizinlə qürur duyur.

Sizi bir daha təbrik edir və Zati-alinizə ən xoş arzularımızı bildiririk.

**Hörmətlə,**

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

*

**Çox hörmətli cənab Prezident!**

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi və doğma Azərbaycan xalqını müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən böyük şərəf duyuram.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı ilə bağlı arzu və vəsiyyətlərini həyata keçirmək istiqamətində yürütdüyünüz siyasət nəticəsində doğma Azərbaycanımızın ardıcıl şəkildə inkişafı, dünya ölkələri arasında tutduğu layiqli yer bizi olduqca fərəhləndirir. Sizin rəhbərliyinizlə qazanılan zəfərlər ata vəsiyyətinin yerinə yetirilməsinin əməli təsdiqidir. Uzaqgörənliyi və müdrik rəhbərliyi ilə Azərbaycanı uğur və tərəqqi yoluna çıxarmış Ümummilli Liderimizin anadan olmasının 102 illiyi münasibətilə xatirəsinə dərin ehtiram olaraq mənim Ukraynada işıq üzü görmüş "Отец нации" ("Millət atası") adlı monoqrafiyamın Ukrayna və Azərbaycan Milli Elmlər akademiyalarında, digər ictimai-siyasi dairələrdə təqdimatı Ulu Öndərə hörmət və məhəbbətimizin növbəti təzahürüdür.

Cənab Prezident, Azərbaycanımızın müasir dövrdə dövlət quruculuğu sahəsində əldə etdiyi təcrübəni, eləcə də ölkənin siyasi, iqtisadi, mədəni əməkdaşlığının inkişaf etdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə zəfər dolu yeni uğurlar, Azərbaycan xalqına daim firavanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri,***
***hüquq elmləri doktoru, professor, diplomat,***
***Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# ABŞ diplomatı XİN-də



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Coşua Hakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin cari vəziyyəti müzakirə olunub.

Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi münasibətlərin, enerji təhlükəsizliyi və bir sıra digər sahələrdə faydalı əməkdaşlığın əhəmiyyəti, qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub.

Görüş zamanı bölgədə enerji layihələri, alternativ enerji üzrə planlar, nəqliyyat və kommunikasiya xətlərinin perspektivləri, Mərkəzi Asiya ilə birgə əməkdaşlıq fəaliyyəti nəzərdən keçirilib.

Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, mövcud maneələr barədə qarşı tərəfə məlumat verib.

Görüşdə habelə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan BMT Məskunlaşma Proqramı İcraiyyə Şurasına üzv seçilib

**Dünən BMT-nin Məskunlaşma Assambleyasının 2-ci sessiyası çərçivəsində keçirilən seçkilərdə Azərbaycan BMT Məskunlaşma Proqramının (UN-Habitat) İcraiyyə Şurasına ilk dəfə olaraq üzv seçilib. Bu üzvlük 2025-2029-cu illəri əhatə edəcək.**

İcraiyyə Şurası UN-Habitat-ın ali orqanı olan BMT Məskunlaşma Assambleyasının sessiyalararası fəaliyyət göstərən qərarverici orqanıdır. Şuranın tərkibi BMT-nin regional qrupları üzrə müəyyənləşdirilən üzv dövlətlərdən ibarətdir.

Dayanıqlı şəhərsalma və insan məskənləri sahəsində ixtisaslaşmış UN-Habitat ilə Azərbaycan arasında əməkdaşlıq yüksələn xətt üzrə dinamik inkişaf edir. Azərbaycan UN-Habitat-ın ən böyük donorlarındandır. Ölkəmiz 2023-cü ildə UN-Habitat-ın Ümumdünya Məskunlaşma Gününə ev sahibliyi edib. Azərbaycan qlobal nüfuza malik olan, on minlərlə iştirakçının qatıldığı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) 2026-cı il mayın 17-22-də ev sahibliyi edəcəkdir.

***XQ***

# Azərbaycan heyəti beynəlxalq “Buzlaqların qorunması” konfransında




**Azərbaycan Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyətində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Xarici İşlər Nazirliyinin rəsmiləri Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində “Buzlaqların qorunması” üzrə birinci yüksəksəviyyəli beynəlxalq konfransda ölkəmizi təmsil edirlər.**

41 ölkənin və 57 beynəlxalq təşkilatın təmsil olunduğu konfrans Tacikistan Prezidenti Emoməli Rəhmonun təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının 2025-ci ili “Beynəlxalq Buzlaqların Qorunması İli” elan etməsi çərçivəsində keçirilir və qlobal iqlim dəyişikliyi ilə mübarizə şəraitində buzlaqların mühüm roluna diqqət çəkir.

Dünən konfransın plenar iclasında çıxış edən Samir Şərifov buzlaqların mühafizəsinin yalnız regional deyil, eyni zamanda, qlobal əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O, Azərbaycanın da buzlaq ehtiyatlarına malik ölkə kimi bu məsələyə xüsusi həssaslıqla yanaşdığını qeyd edib.

Konfrans çərçivəsində S.Şərifovu Tacikistanın Baş naziri Koxir Rasulzoda qəbul edib. O, Tacikistanın Baş nazirinin müavini, Azərbaycan-Tacikistan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Usmonali Usmonzoda, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xan ilə görüşlər keçirib, iqlim dəyişikliyi ilə mübarizə, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıb.

***XQ***

# Xankəndidə Enerji təminatı müzakirəsi

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Enerji təminatı məsələləri İşçi qrupunun növbəti iclası mayın 30-da Xankəndidə keçirilib.**

İşçi qrupun rəhbəri, energetika nazirinin müavini Elnur Soltanov iclasda işğaldan azad olunmuş ərazilərimizdə energetika sahəsini əhatə edən tapşırıqların icra vəziyyəti barədə danışıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin tərkib hissəsi kimi, azad olunmuş ərazilərdə enerji infrastrukturunun müasir tələblər əsasında qurulmasının prioritet təşkil etdiyi, bu istiqamətdə mərhələli və sistemli şəkildə genişmiqyaslı layihələrin icra olunduğu vurğulanıb.

İclasda Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında, işğaldan azad olunmuş digər ərazilərdə qazlaşdırılma prosesinə dair təqdimat edilib, həyata keçirilən layihələrin icra qrafiki və planlaşdırılan işlər barədə məlumat verilib. Elektrik enerjisi infrastrukturu üzrə isə kiçik su elektrik stansiyalarının, yeni yarımstansiyaların, ötürücü və paylayıcı xətlərin tikintisi, mövcud şəbəkələrin yenidən qurulması və dayanıqlı enerji təminatının yaradılması məqsədilə icra olunan tədbirlər, o cümlədən “yaşıl enerji zonası” konsepsiyasına uyğun layihələrin icrası ilə bağlı görülən işlər müzakirə edilib.

Sonda müzakirə edilən məsələlərin həlli istiqamətində müvafiq qərarlar qəbul olunub.

***XQ***

# Naxçıvanda “MEDİAFEST-2025”

## *“Qlobal informasiya mühiti və media trendləri” konfransı*

**Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Qlobal informasiya mühiti və media trendləri” konfransı – “MEDİAFEST-2025” keçirilib.**



Konfrans Prezident İlham Əliyevin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” sərəncamı çərçivəsində, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbu orqanı olan “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə təşkil edilib.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Sonra Heydər Əliyev Sarayının foyesində təşkil olunmuş sərgi də Naxçıvan mediasının fəaliyyəti, tarixi, müasir media məhsulları və gənc jurnalistlərin fəaliyyətlərinə dair materiallarla tanış olublar. Naxçıvan televiziyasının stendinə baxış zamanı televiziyanın "Azerspace-1" peyki üzərindən rəsmi yayımı həyata keçirilib.

Sonra “Qlobal informasiya mühiti və media trendləri” konfransı işə başlayıb. Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə bütün mətbuat işçilərini səmimi-qəlbdən təbrik edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ölkəmizdə mətbuata, jurnalist əməyinə çox böyük hörmət, diqqət və dövlət dəstəyinin olduğunu qeyd edərək vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda mətbuatın inkişafı sahəsində əsaslı işlər görülüb, dövlət-mətbuat münasibətləri yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev də mətbuatın inkişafına da xüsusi qayğı göstərir. Dövlət başçımızın “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 2025-ci il 25 aprel tarixli Sərəncamı mətbuatın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov konfransın Azərbaycan mediası üçün mühüm praktik əhəmiyyət daşıyacağını bildirərək, qlobal informasiya mühitinin media trendlərinin formalaşmasına təsirindən danışıb. Qeyd edib ki, qlobal media forumlarında Prezident İlham Əliyevin şəxsən iştirak etməsi, media nümayəndələrinin çoxsaylı suallarını cavablandırması dövlətimizin haqq səsinin dünyaya çatdırılması baxımından əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda, başlıca vəzifəsi cəmiyyəti obyektiv və qərəzsiz informasiya ilə təmin etmək olan mediaya diqqət və qayğının müstəsna təzahürüdür.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov bildirib ki, milli mətbuatın 150 illik yubileyi kimi tarixi bir hadisə ərəfəsində qədim Naxçıvanda MEDİAFEST-in keçirilməsi simvolik məna daşıyır. Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan Prezidentinin milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamından bəhs edərək, bu addımı dövlətimizin mediaya ciddi dəstəyinin nümayişi kimi dəyərləndirib.

Konfransda Azərbaycan mətbuatının 150 illik yubileyi münasibətilə beynəlxalq media təmsilçilərinin təbrik videoları da təqdim olunub.

Sonra “Dezinformasiya və “fake news”larla mübarizə” mövzusunda panel iclası keçirilib. Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə keçirilən paneldə Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli, AnewZ TV-nin icraçı direktoru Rüfət Həmzəyev, Mətbuat Şurası İdarə Heyətinin üzvü Elşad Eyvazlı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov müzakirə edilən mövzuda mülahizələrini söyləyiblər.

***XQ***

# İran və Zəngəzur dəhlizi

**(əvvəli 1-ci səhifədə)**

Türkiyə Prezidenti onu da bildirib: “Zəngəzur dəhlizi Azərbaycanla Naxçıvan arasında quru əlaqəsi yaratmaqla yanaşı, həm də Türkiyə üzərindən Türk dünyasına uzanan yeni inteqrasiya marşrutudur”. Belə ehtimal etmək mümkündür ki, Ankara Tehranı bu marşruta maneəçilik yaratmamağa çağırır. Nəzərə alaq ki, son dövrlər İran rəsmiləri tərəfindən verilən bəzi açıqlamalar var. Məsələn, ölkənin Xarici işlər nazirinin müavini Səid Xətibzadə bu günlərdə bildirib ki, İslam respublikası regionda sərhədlərin dəyişməsinə yol verməyəcək. Üstəlik, İranın Ermənistandakı səfiri Mehdi Sobhaninin də oxşar tonlu açıqlamaları var. Ancaq başqa məqam da var ki, onu yazımızın sonunda diqqətə çatdıracağıq.

*

Ermənistan 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Naxçıvana maneəsiz yol vermək öhdəliyini götürüb. Lakin üzərindən, az qala, beş il keçməsinə baxmayaraq, rəsmi İrəvan nəinki öhdəliyi yerinə yetirmir, ümumiyyətlə, sözügedən bəyanatı qəbul etmir. Ən başlıcası isə hay hakim komandası öz mövqeyini ölkənin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı kontekstində əsaslandırır. Halbuki, Azərbaycan rəhbərliyi dəfələrlə bildirib ki, məqsədi Ermənistanın ərazi bütövlüyünü şübhələndirmək deyil.




O da məlumdur ki, ötən il Azərbaycan, Rusiya və Ermənistanın baş nazirləri müavinlərinin birgə İşçi qrupu çərçivəsində Naxçıvana yolun Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığı şərtilə açılması formulu ətrafında müzakirə getmiş, hətta müəyyən razılıq əldə edilmişdi. Lakin sonradan rəsmi İrəvan məsələni reallaşdırmaqdan boyun qaçırmış, beləliklə, müzakirə yarımçıq qalmışdı. Bu isə o deməkdir ki, Ermənistan rəhbərliyi üçün başlıca məsələ heç də ölkənin ərazi bütövlüyünün toxunulmazlığı deyil.

Qeyd edək ki, Ermənistan Zəngəzur dəhlizi ideyasına qarşı özünün “Dünyanın kəsişməsi” avantürasını ortaya atıb və məsələni bütün beynəlxalq platformalarda təbliğ etməklə məşğuldur. Sözügedən avantüra ölkəni regional kommunikasiyaların açar fiquruna çevirmək məqsədi daşıyır. Baş nazir Nikol Paşinyan bir müddət əvvəl “Dünyanın kəsişməsi” ilə bağlı “planını” da təqdim edib. Həmin “plana” əsasən, Azərbaycandan Türkiyəyə avtomobil yolu ilə daşımalar Laçın–Kornidzor–Marqara marşrutu ilə həyata keçirilməlidir. Yəni yük avtomobilləri Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna daxil olmalı, oradan Türkiyə ilə sərhəddəki Marqaraya yetişməlidir.

Dəmir yolu əlaqəsinə gəlincə, Paşinyan bildirib ki, guya, bu, hələlik mümkün deyil. Sən demə, zəruri infrastrukturun qurulmasına ehtiyac var imiş. Əslində, Nikol Laçın–Kornidzor–Marqara marşrutunu da məhz buna görə irəli sürdüyünü diqqətə çatdırıb və elə görüntü yaradıb ki, Ermənistan regional kommunikasiyaların açılmasını tezləşdirmək istəyir. Əslində isə... Əlbəttə, Paşinyan dəmir yolu daşımalarının vacibliyini bilir və bu əlaqənin yaranması ilə bağlı “plan” hazırlayıb. Onun niyyəti Azərbaycanın Naxçıvana yolu “Azərbaycandan Azərbaycana yol” kimi görmək istəklərinə qarşıdır. Ona görə “Ermənistandan Ermənistana yol” cəfəngiyyatını ortaya atıb, o, Mehri–Yerasx marşrutundan danışıb. “Plana” əsasən, Mehridən erməni yük qatarları Naxçıvana daxil olub oradan Ermənistanın Yerasxına keçəcək.

Deməli, erməni baş nazir Mehridən Yerasxa gedən quru, daha dəqiq desək, avtomobil yolunun hündür ərazilərdən, dağ massivlərindən keçdiyini nəzərə alıb məsafəni səmərəliləşdirmək barədə düşünür, amma Laçın–Kornidzor–Marqara marşrutu ilə regional nəqliyyat bağlantısını, belə demək mümkünsə, dağa-daşa salır. Halbuki, hələ SSRİ dövründə Bakıdan Zəngilan– Mehri vasitəsilə Naxçıvana qatarlar işləyib. Həmin yola paralel avtomobil yolu olmalıdır, vəssalam. Azərbaycanın istəyi budur. Eyni zamanda, yolun maneəsizliyi. Yəni gömrük və sərhəd nəzarəti olmadan fəaliyyət göstərməsi.

Göründüyü kimi, rəsmi İrəvan regional kommunikasiyalar baxımından avtomobil yolu əlaqəsini dəmir yoldan ayrı tutur. Nikolun “dərin düşüncəsinə” görə, gündəmə gətirdiyi avtomobil yolu işləyəcək və dəmir yoluna ehtiyac qalmayacaq. Beləliklə, guya, Zəngəzur dəhlizi ideyası unudulacaq, müvafiq olaraq “Dünyanın kəsişməsi” reallaşacaq. Faktiki olaraq, erməni Kornidzoru Şərqdən Qərbə, Şimaldan Cənuba daşımaların mərkəzi nöqtəsinə çevriləcək.

*

Deməli, aydın olur ki, Ermənistan Naxçıvana quru yol əlaqəsinin qarşısını kəsmək istəyir. Həm Paşinyanın təfərrüatlarının diqqətə çatdırdığımız “planı”, həm də rəsmi İrəvanın ərazi bütövlüyü və suverenliyin toxunulmazlığı klişesi belə düşünməyə əsas verir. Bu isə o deməkdir ki, bir sıra beynəlxalq dairələr “erməni kartını” gündəmdə saxlamaq istəyirlər.

Qeyd edək ki, vaxtilə ermənilərin Cənubi Qafqaza köçürülmələri regionda xristian bufer zonası yaratmaq, Türk dünyası arasında bağları aradan qaldırmaq məqsədi daşımışdı. Qərb tərəfindən də dəstəklənmiş bu ideyanı rus imperializmi həyata keçirmişdi. İran da ona kömək göstərmişdi. Müasir Rusiya hazırda məsələdən geri durmuş kimi görünür. Daha doğrusu, Moskvaya regional kommunikasiyaların Zəngəzur dəhlizi konseptinə uyğun açılması sərfəlidir və bundan fayda götürə bilər.

Yerdə qalır İran. İranın regionda sərhədlərin dəyişməzliyinə dair ritorikası ehtimal yaradır ki, İrəvanla yanaşı, Tehran da Naxçıvana quru yolun olmasında maraqlı deyil və onlar, dolayası ilə, Zəngəzur dəhlizinin, böyük anlamda Orta Dəhlizin gerçəkləşməsini istəmirlər. Yəni həm də böyük Türk inteqrasiyasına qarşı çıxırlar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə TDT-nin Budepeştdə keçirilmiş sammitində türk dövlətlərini Orta Dəhlizin reallaşmasına dəstək göstərməyə çağırmaqla, onların böyük prosesə töhfəsinin zəruriliyini vurğulamaqla bərabər, həm də indi İranı Zəngəzur dəhlizinə maneçilik törətməməyə, faktiki olaraq, Türk dünyasının qarşısında dayanmamağa səsləyir. Deməli, dəhlizin əleyhdarlarına qarşı Türk həmrəyliyi xətti götürülür.

Əvvəldə bildirdiyimiz məqama keçid alaq. Əlbəttə, Tehranla “körpüləri yandırmaq” kimi niyyət yoxdur. İranın Zəngəzur dəhlizindən fayda götürməsi məsələsi hər zaman aktualdır və daha ciddi xarakterə malikdir. Görünür, Ərdoğan buna görə diplomatik davranır və hazırda Ankaranın nəzərində İran, eyni zamanda, rəsmi İrəvanı, loru dildə desək, ağıllandırmalı tərəf ampluasındadır. Böyük anlamda isə Ermənistanın istər ümumi mövqeyi, istərsə də Paşinyanın təfərrüatlarını açıqladığımız regional kommunikasiyalar “planı” Türkiyə üçün heç bir ciddi əhəmiyyət daşımır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Zəngəzurda konsulluq, yoxsa casus yuvası?

## *Parisin Gorusda başladığı yeni "oyun" dəvənin başını kola soxmasına bənzəyir*

**İkinci Qarabağ müharibəsinin başa çatmasını şərtləndirən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Zəngəzur bölgəsi xarici qüvvələrin ciddi maraq dairəsinə düşüb. Həmin dövrədək yada düşməyən Zəngəzura yaxın-uzaq ölkələrdən nümayəndə heyətləri axışır. Onlar dəstə-dəstə regiona gələrək burada görüşlər keçirir, hətta bəziləri konsulluq açmaq barədə növbəyə dayanırlar.**

Yada salmaq yerinə düşər ki, 2022-ci il oktyabrın 20-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian Ermənistana rəsmi səfər etmişdi. O, səfər çərçivəsində Zəngəzur vilayətinin inzibati mərkəzi olan Qafanda İran baş konsulluğunun açılışına qatılmışdı. Eyni zamanda, Rusiya Federasiyası da vilayətdə baş konsulluğunu açmağa çalışır. Bu istiqamətdə üç ilə yaxındır ki, iş aparılır. 2023-cü ilin sentyabr ayından etibarən Qafanda baş konsulluğun açılışına hazırlıq üçün məsul olan qrup işləyir. Ermənistan xarici işlər nazirliyi martın sonlarında "Sputnik Ermənistan" agentliyinin yazılı sorğusuna cavab olaraq bildirmişdi ki, hazırda iki ölkə arasında Qafanda baş konsulluğunun açılması məsələsi müzakirə olunur. Redaksiya, xüsusilə prosesin hansı mərhələdə olduğunu, diplomatik nümayəndəliyin açılmasının nə vaxta planlaşdırıldığını, hansı işlərin görüldüyünü, həmçinin konsulluğun niyə hələ də fəaliyyətə başlamadığı ilə maraqlanmışdı. Ermənistan XİN-dən isə bu suallara qısa cavab verilmişdi: "Qaldırdığınız məsələ iki ölkə arasında müzakirə mərhələsindədir".

İndi isə deyəsən, konsulluq açma yarışında növbə Fransaya çatıb. İyunun 2-də Gorusda Ermənistan–Fransa konfransı keçiriləcək və həmin gün Zəngəzur bölgəsində Fransa konsulluğunun açılış mərasimi baş tutacaq. Mövzunu inkişaf etdirən "Hraparak" qəzeti yazır: "Rusiya 2023-cü ildən Zəngəzurda konsulluq açmağa çalışsa da, Ermənistan hakimiyyəti müxtəlif bəhanələrlə bu cəhdlərin qarşısını alır. Fransanın bir neçə ay əvvəl dilə gətirdiyi istəyi isə yaxın günlərdə reallaşacaq. "Gorus Frankofonlar İttifaqı" ictimai təşkilatının rəhbəri Karmen Apunts konsul təyin olunacaq. Ekspertlər artıq bildiriblər ki, Fransa konsulluğu Zəngəzurda sırf hərbi və kəşfiyyat məqsədi daşıyacaq, kollektiv Qərbə xidmət edəcək".

Beləliklə, aydın olur ki, kommunikasiya xətlərinin açılması ilə region ölkələrinin inkişafına töhfə verməli olan Zəngəzur diplomatik savaş meydanına çevrilir. Rəsmi İrəvan son illərdə bölgəni Qərbin geosiyasi platformasına çevirməyə çalışır. Zəngəzur daha sadəcə, coğrafi yox, artıq siyasi-taktiki məkana dönür. Ermənistan hakimiyyəti bu ərazidə xarici aktorlarla münasibətlərini yeni fazaya daşımaqla, ölkənin geosiyasi konturlarını yenidən formalaşdırmaq niyyətindədir. Bu istiqamətdən baxdıqda Fransanın Gorus şəhərində konsulluq açması təşəbbüsü yeni gərginlik potensialı yaradır.



Konsulluğun Gorusda deyil, məhz Zəngəzurda açılacağı formasında təqdim olunması da təsadüfi deyil. Beynəlxalq münasibətlər sistemində konsulluqlar açılarkən, adətən, şəhərlərə vurğu edilir. İndiki halda isə konsulluq Zəngəzur regionuna şamil olunur. Bu, Fransa tərəfinin baş nazir Nikol Paşinyanla razılıaşma əsasında regionu müstəqil siyasi-beynəlxalq subyekt kimi qavradığını göstərir. Beləliklə, rəsmi Paris Azərbaycan və Türkiyənin bu istiqamətdə irəli apardığı Zəngəzur dəhlizi ideyasının reallaşmasını neytrallaşdırmaq üçün Ermənistan üzərindəki təsir imkanlarından istifadə edir.

Fransanın Zəngəzur bölgəsində konsulluq açması xəbəri Ermənistanın Qərbə inteqrasiya prosesinin növbəti ciddi mərhələsi kimi təqdim olunur. Lakin bu hadisənin fonunda daha geniş və hiyləgər planların olduğu şübhə doğurmur. Təsadüfi deyil ki, bir sıra ekspertlər, o cümlədən bölgə üzrə tanınmış geosiyasi şərhçilər artıq açıq şəkildə bildirirlər ki, Fransa konsulluğu Zəngəzurda sırf hərbi və kəşfiyyat məqsədi daşıyacaq, kollektiv Qərbə xidmət edəcək. Bu cür qiymətləndirmələr təkcə ehtimallara deyil, həm də Fransa–Ermənistan münasibətlərinin son illərdəki dinamikasına və bu ölkələrin regiondakı maraqlarına əsaslanır. Əvvəla, Ermənistan kimi kiçik və hərbi-strateji baxımdan həssas bir ölkənin birbaşa Qərb siyasi blokuna meyillənməsi, xüsusən də Rusiyaya qarşı mövqe sərgiləməsi təkcə diplomatik deyil, həm də hərbi müstəvidə nəticələr doğurur. Fransa bu prosesin lokomotivlərindən biri kimi çıxış edir. Digər tərəfdən Fransa konsulluğunun Zəngəzurda yaradılması sadəcə bir diplomatik jest kimi təqdim edilsə də, əslində, bu qərarın geosiyasi və hərbi çalarları daha qabarıq görünür. Konsulluğun rəhbərliyinə diplomat yox, ictimai-siyasi fəal olan və Frankofoniya xəttini açıq şəkildə müdafiə edən Karmen Apuntsun gətirilməsi bu istiqamətdə ilk şübhələri doğruldur. Bu, konsulluğun sırf texniki və vətəndaş xidmətləri funksiyası ilə məhdudlaşmayacağını göstərir.

Fransa Zəngəzuru sadəcə, Ermənistanın bir bölgəsi kimi deyil, həm də Azərbaycan və Türkiyəyə qonşu olan strateji ərazi kimi dəyərləndirir. Belə bir ərazidə konsulluq açmaq, əslində, bölgədə situasiyanı daha dərindən öyrənmək və ehtiyac olarsa, müdaxilə etməyə hazır olmaq deməkdir. Bu mənada konsulluğun faktiki olaraq kəşfiyyat məlumatlarının toplanması üçün istifadə olunacağı gözlənilləndir.

Zəngəzur tarixi Azərbaycan torpağı, bu gün də respublikamızla həmsərhəd olduğu üçün burada fəaliyyət göstərəcək istənilən diplomatik nümayəndəlik, istər-istəməz ölkəmizlə bağlı məsələlərdə də aktivlik göstərəcək. Bu isə Fransanın nəinki Ermənistana, həm də Azərbaycana qarşı dolayı təsir imkanlarını genişləndirəcək. Fransanın burada hansı informasiyanı toplayacağı və onu kimlərlə bölüşəcəyi sualının da cavabı sadədir. Paris bu məlumatları NATO və Avropa İttifaqı strukturları ilə bölüşəcək. Konsulluğun açılması fonunda Zəngəzur bölgəsində Fransa hərbi nümayəndələrinin peyda olması, müxtəlif mütəxəssis adı altında bölgədə yerləşdirilən kəşfiyyat agentlərinin fəaliyyəti ehtimalı yüksəkdir. Bu isə bölgənin faktiki olaraq geosiyasi casusluq mühitinə çevrilməsi deməkdir. Zəngəzurda baş verənlər bir daha sübut edir ki, Cənubi Qafqaz yalnız keçmiş münaqişə zonası deyil, həm də gələcəkdə böyük güclərin qarşıdurma meydanına çevrilə biləcək ərazidir. Fransa konsulluğunun açılması isə bu "oyun"da ilk fiqurlardan biridir.

Onu da bildirək ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotini bu ilin martında Gorusa səfər etmişdi. Görüş zamanı şəhər rəhbəri səfirlə ikitərəfli əməkdaşlığa dair bir sıra məsələləri, xüsusən Gorusda konsulluğun açılması imkanlarını müzakirə etmişdi. Səfir Gorusun fransızdilli şəhər olduğunu (?) və bunun ikitərəfli əlaqələrin inkişafı üçün mühüm baza olduğunu xüsusi vurğulamışdı. Qeyd etmişdi ki, yaxın vaxtlarda keçiriləcək konfrans iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə və əməkdaşlığın yeni sahələrinin araşdırılmasına yönəlib. Fransa səfirinin Gorusa səfəri və konsulluq ideyasının hələ martda gündəmə gətirilməsi bu planın əvvəlcədən hazırlanmış və məqsədyönlü olduğunu göstərir. Gorusun "fransızdilli şəhər" kimi təqdim olunması isə daha çox ideoloji zəmin yaratmaq cəhdidir. Bu, Fransanın bölgədə yumşaq güc vasitəsilə möhkəmlənmək istəyindən xəbər verir. Qarşıdakı konfrans və konsulluğun açılışı isə bu siyasətin rəsmi mərhələyə keçid nöqtəsi olacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri**



– Biz artıq 5 ildir ki, Zəngəzur dəhlizinin, Qərbi Zəngəzur torpaqlarının beynəlxalq diskursda kifayət qədər ciddi şəkildə müzakirə olunmasına şahidlik etməkdəyik. Əlbəttə, bunun da obyektiv və subyektiv səbəbləri var. Məsələ ondadır ki, 2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonra Qərbi Zəngəzur bölgəsinin strateji əhəmiyyəti ilə bağlı region ölkələrinin və beynəlxalq şəbəkələrin aktivliyi artıb. Bu, onunla bağlıdır ki, bölgədən kommunikasiya xətləri keçə bilər. Əlbəttə, həm də ona görə ki, bu ərazi Türkiyə, Rusiya və İran kimi regional aktorlarla həmsərhəd, yaxud yaxın bölgədir.

Ermənistan bu istiqamətdə müxtəlif siyasi demarşlar etdi. Rəsmi İrəvan bu gün də həmin demarşları davam etdirməkdədir. Ümumilikdə, onu qeyd etmək lazımdır ki, 2020-ci il 10 noyabr tarixli Bəyanatın imzalanmasından müəyyən vaxt keçdikdən sonra Avropa İttifaqı, Fransa və ABŞ ciddi şəkildə Qərbi Zəngəzurda aktivləşdilər. Daha sonra Fransa və İran baş konsulluqlarının məhz Qafanda açılması ilə bağlı məsələ qaldırıldı. Rusiya tərəfi də bölgədə baş konsulluğun açılmasında maraqlı olduğunu bildirdi və Ermənistan hökumətindən müvafiq prosedurları tez bir zamanda başa çatdırmağı xahiş etdi. Cəmi 29,7 min kvadratkilometr əraziyə malik Ermənistan Respublikasının böyüklüyünə görə dördüncü, yaxud beşinci şəhərində bir ölkə konsulluq açırsa, bu o deməkdir ki, burada məsələ siyasidir. Deməli, həmin şəhərin yerləşdiyi bölgə konsulluq açan dövlətlər üçün böyük siyasi və geosiyasi əhəmiyyət daşıyır. Bu da həmin dövlətlərin hansısa məqsədlərinin və niyyətlərinin xəbərçisidir.

Rusiya və Ukrayna arasındakı müharibə və Co Bayden administrasiyasının vaxtilə Nikol Paşinyana dəstəyi Qərbi Zəngəzur bölgəsinin, demək olar ki, Qərb kəşfiyyatının arenasına, platformasına çevrilməsi ilə müşayiət olunurdu. Hətta, bəzi bölgələrdən rus hərbçilərinin çıxarılmasını, Kanadanın daxil olması ilə faktiki olaraq, NATO missiyasına çevrilmiş Avropa İttifaqının yarımhərbiləşdirilmiş dəstəsinin Qərbi Zəngəzurda yerləşdirilməsini də müşahidə etdik. Əslində, kəşfiyyatçılar və hərbçilər orada indi də fəaliyyətdədirlər. Fransanın isə Hindistanla birgə bölgəyə ağır və digər texnikalar yerləşdirməsini görməkdəyik. Bu, faktiki olaraq, həm də Ermənistanın xarici siyasətlə bağlı seçimi idi. Eyni zamanda, bizim üçün maraqlı məqam bundan ibarət idi ki, bölgədə gərginlik artırdı və bu da yeni müharibəyə gətirib çıxara bilərdi.

Bu gün isə Rusiya–Ukrayna müharibəsində vəziyyət dəyişdiyindən, ABŞ-da Donald Tramp hakimiyyətə gəldiyindən Paşinyan Qərbi Zəngəzurla bağlı çox da ciddi demarşlar edə bilməyəcək. Mən düşünmürəm ki, Fransanın bölgədə konsulluq açması nəticəsində Paris hansısa nailiyyətlər əldə edəcək. Xeyr, bu konsulluq, demək olar ki, kəşfiyyatla məşğul olaraq, hətta, bu məsələdə də öz niyyətinə çatmayacaq. Çünki vaxtı çatanda Qərbi Zəngəzurda vəziyyət dəyişəcək. Vəziyyətin dəyişiləcəyini artıq Ermənistan daxilində baş verən hadisələr də göstərir. Hər bir halda Ermənistan hakimiyyəti Qərb və Rusiya arasında siyasi manevrlər etməkdədir. Bu hadisələr bir daha göstərir ki, Qərbi Zəngəzur əsas diqqət mərkəzinə çevrilməkdədir. Bölgədə bir çox dövlətlər indidən orada baş verəcək proseslərə hazırlaşırlar ki, kommunikasiya xətləri açılanda onlar daha böyük imkanlara malik olsunlar.

# İrəvan separatçıları və qanuni hədəfimiz

## Yaxud Simonyana bir-iki xatırlatma

**Ermənistan parlamentinin spikeri səs-küylü açıqlaması ilə yadda qalıb. Onun sözlərindən belə nəticə hasil olur ki, Azərbaycanın "Qərbi Azərbaycan"la bağlı bildirdikləri ölkəsindəki Qarabağ iddialarına adekvatdır. Əslində, Simonyanın bunu vurğulaması, hansısa mənada, müsbət hal kimi qiymətləndirilə bilər. Çünki hay cəmiyyətini başqa misallarla başa salmaq qeyri-mümkündür. Necə deyərlər, lalın dilini yiyəsi bilər.**

Əlbəttə, rəsmi Bakının Qərbi Azərbaycana qayıdış konsepsiyası fundamental əsaslıdır və tarixi ədalətin bərpasına hesablanıb. Burada heç də erməni qövmünün hansısa hərəkətinə birbaşa cavab motivi yoxdur. Əlbəttə, hay təfəkkür tərzinin bunu anlaması çətindir. Bu tərz üçün özgə torpağına göz dikməyin yolverilməzliyinin dərki nə qədər müşküldürsə, tarixi ədalətin bərpası da bir o qədər mücərrəddir. Axı, bu qövmün öz "ədalət" prizması var.

Bəli, Ermənistanda qondarma Artsaxın oyuncaq "prezidenti" və "parlament sədri" seçilir və bu, ölkəmizdə haqlı qıcıq doğurur. Bir məqam da var ki, qıcığımız heç də separatçı tör-töküntülərə yox, birbaşa rəsmi İrəvana münasibətdədir. Ermənistan iqtidarı bu sayaq, yumşaq desək, yarıtmazlıqlara son qoymalıdır. Nəzərə almalıdır ki, dünyada başqa bir ölkənin beynəlxalq hüquqla tanınmış ərazisindəki bölgə ilə bağlı saxta dövlət quruluşunu bəsləyən ikinci bir məmləkət yoxdur.

İndi "Artsax", belə demək mümkünsə, Ermənistana sığınıb. Amma vaxt var idi ki, baş nazir Nikol Paşinyan "Qarabağın özünün seçkili hakimiyyəti var" deyə sərsəmləyirdi. Sərsəmlədi və 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində "seçkili hakimiyyət" tarixin zibilliyinə atıldı. Amma bundan əvvəl rəsmi İrəvanın təmsilçiləri Qarabağ ermənilərinə beynəlxalq təminatdan dəm vururdular. O da cəhənnəmə getdi...




Ümumiyyətlə, Ermənistan rəhbərliyi 44 günlük müharibədən sonra "Qarabağ kartı"nı diri tutmaq üçün ən müxtəlif manipulyasiyalara əl atmış, hərbi kontingentini "Artsax"da saxlamışdı. Halbuki, məğlub dövlət kimi bunu etməməli idi. Müharibədən əvvəl isə Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı olmuşdu. "Yeni ərazilər uğrunda yeni müharibə" şüarını da Nikolun təyin etdiyi müdafiə naziri irəli sürmüşdü. Sözümüz ondadır ki, Simonyan indiki durumun nədən qaynaqlandığına diqqət yetirməlidir. Yəni, hazırda İrəvanda kimsə, yaxud kimlərsə özünü "Artsax" prezidenti" və "parlament sədri" adlandırırsa, baiskar həm də Paşinyan administrasiyasıdır. Erməni iqtidarı proqmatik davranmalı, səmimi mövqe tutmalı idi. Halbuki, bu gün də onun hərəkət və davranışlarında nə səmimiyyət var, nə praqmatizm, nə də rasionallıq. Nəticədə Simonyanın münasibət bildirdiyi sərsəmlik erməni ictimai rəyinin katalizatoru kimi çıxış edir, millətçiliyi körükləyir.

Azərbaycan isə heç bir halda vəziyyətə seyrçi qala bilməz. Birincisi, xalqımız 1988-ci ildən start verilmiş "Miatsum" (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi–red.) cəfəngiyyatının sonradan hansı faciə və məhrumiyyətlərə yol açdığını gördü. İkincisi, otuz ilə yaxın davam etmiş işğal xatirimizdədir. Nəhayət, erməni iqtidarının haqqında söz açdığımız qeyri-səmimiliyi, manipulyativ dəst-xətti yenə "aktuallığını" saxlayır.

Bütün bunlara görə Azərbaycan iqtidarı bildirir ki, Ermənistandakı faşizmin kökü kəsilməlidir. Kökü həm də o səbəbdən kəsilməlidir ki, bu faşizm bütövlükdə Cənubi Qafqazın inkişaf və tərəqqisinin qarşısını alır. Yəni, Simonyan və həmfikirləri məsələyə bir az geniş aspektdən yanaşmalı, Azərbaycan ərazilərində "Artsax" axtarışına çıxanları susdurmağı bacarmalı, qətiyyət nümayiş etdirməlidirlər.

Ermənistan parlamentinin sədri elə danışır ki, sanki daxildəki revanşistlərin və şovinistlərin özlərindən olmadığını bildirən eyhamlarla, onları heçə sayan məsxərə tonu ilə iş bitir. Xeyr, iş bitmir, çünki həmin revanşist və şovinistlər, belə demək mümkünsə, "Artsax sevdalıları" Simonyanın rəhbərlik etdiyi ali qanunverici orqanda təmsil olunur, obrazlı desək, dişinin zəhərini parlamentin tribunalarına tökürlər. Digər tərəfdən, revanşistlərin və şovinistlərin erməni hakim düşərgəsinin əsas rəqibi olduğunu da bilirik.

Sonda daha vacib saydığımız məqamdan söz açaq. Bu gün Ermənistan rəhbərliyi Azərbaycanın bütün bəndləri razılaşdırılmış sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərti qəbul etmək istəmirsə, müvafiq olaraq, ölkəmizə qarşı ərazi iddiası məntiqini saxlayırsa, bu cəhət onu deməyə əsas verir ki, rəsmi İrəvanın təmsilçiləri ilə "Artsaxa" "prezident" və "parlament sədri" seçənlər arasında heç bir fərq yoxdur. Habelə, Ermənistan hakimiyyəti beynəlxalq platformalarda, açıq və ya gizli şəkildə, "Azərbaycanda saxlanılan erməni əsirlər" məsələsi fonunda siyasi alver etməməli, anti–Azərbaycan ovqat formalaşdırmağa cəhd göstərməməlidir.

Yaxşı olar ki, təkcə Simonyan deyil, bütövlükdə hakim komanda bunları nəzərə alsın. Nəzərə alsın və birincisi, şərtlərimizi qəbul etsin, ikincisi, separatçıların tör-töküntülərini ya özü məsuliyyətə cəlb etsin, ya da onları Azərbaycana təhvil versin. Problem yoxdur, həbsxanalarımızda, məhkəmə kürsülərimizdə belələrinə yer var.

Ən sonda bir nüansı da vurğulayaq. Azərbaycan hakimiyyəti, o cümlədən Prezident İlham Əliyev bildirib ki, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təhdid edən bütün meyillər yerləşdiyi ərazidən asılı olmayaraq ölkəmiz üçün qanuni hədəfdir. Paşinyanlar, simonyanlar və başqa yanlar bu mesaja həssas yanaşmalı, nəzərə almalıdırlar ki, separatçıların mövcudluğu, ölkəmizin suverenliyinə təhdidləri Ermənistanın özünü qanuni hədəfə çevirir...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Birgə tarix, mədəniyyət və dəyərlər

## *Prezident İlham Əliyevin siyasi təcrübəsi kontekstində*



I MƏQALƏ

### Müstəqillik tarixində zaman amili

Azərbaycan alimi Yaşar Qarayev zamanı, keçmişi özündə indiyə və gələcəyə “daşıyan” fenomen adlandırırdı. Fransız filosof J.Delyoz da zamanın hər anında keçmiş – indi – gələcək prosessuallığını (yəni, daim dəyişmə dinamikasının kəsilməzliyini) görürdü. Onda hər bir hadisəni zamanın “üç xronoloji üzü”nün vəhdəti kimi təsəvvür edə bilərik. Azərbaycanın Laçın şəhərində Türkiyə – Azərbaycan – Pakistan Zirvəsini zamanın vurğuladığımız anlamında aydın görə bilirik. Laçın Zirvəsi Azərbaycan Prezidentinin yeni tarixi mərhələdə siyasi təcrübəsinin zamanda “yeni ritmi”, “yeni döyüntüsü”dür. Bu “yeni ritm” müstəqillik tariximizin zamanın əbədi “varolma qovşağında” real təcəssümüdür.

Bununla müasir dövlətçilik tariximizdə “Laçın Zirvəsi” müasir müstəqil Azərbaycan dövlətinin gücünü bütün dünyaya bəyan etmişdir! Bəs oradan regionun və dünyanın “geosiyasi kimliyi” necə görünür? Cavabı Azərbaycan Prezidentinin, əminik ki, artıq tarixi kəlam olmuş aşağıdakı fikrinin işığında axtarmaq lazımdır. İlham Əliyev Laçın Zirvəsində nitqində demişdir: “Bugünkü Zirvə görüşü Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilir. Bunun böyük rəmzi mənası var”.

### Qərbi Azərbaycana açılan qapı

Yeni tarixi mərhələdə Laçın coğrafi ərazi, siyasi, kommunikasiya və geosiyasi olaraq Qərbi Azərbaycana açılan qapıdır. Onun başqa anlamı və mənası Şərqi Zəngəzurdan Qərbi Zəngəzura və Naxçıvana “aparan yol” olması ilə bağlıdır. “Laçın Zirvəsi” bu “yolçuluğun” rəmzlərindən biridir. Azəraycan – Türkiyə – Pakistan qardaşlığının səmimi ifadəsi və təcəssümüdür!

Bunun kökündə Azərbaycanın Vətən savaşında nail olduğu Zəfər dayanır. Məhz bu qələbə əsrlərlə davam edən “geosiyasi deqradasiya”nın qarşısını aldı – Cənubi Qafqaza sülh, barış, əməkdaşlıq və təhlükəsizlik ruhunu gətirdi. Qələbədən sonra Prezident İlham Əliyev regional əməkdaşlığın yeni mərhələsinin əsaslarını yaradan siyasi təcrübə nümunəsini ortaya qoydu. İndi tam haqlı olaraq Türkiyə Prezidenti “İlham Əliyev regiona sülh gətirən lider kimi tarixdə yerini tutacaq” deyir! Deməli, Cənubi Qafqazda sülh, əməkdaşlıq və təhlükəsizliyin memarı Azərbaycan Prezidenti İlham Əliyevdir! O cümlədən Laçın Zirvəsinin memarı Azərbaycanın dövlət başçısıdır!

Bu zirvənin böyük rəmzlərindən biri Qərbi Azərbaycana siyasi və mənəvi qapının açılması ilə əlaqəlidir. “Qərbi Azərbaycan” ifadəsini qəbul etmək istəməyənlər, oradan deportasiya olunmuş soydaşlarımızın hüquqlarını dillərinə gətirməyənlər belə, indi “azərbaycanlılar yaşadıqları yerlərə qayıdacaqlar” – deyirlər. Prezident İlham Əliyevin “dünyanın hər bir guşəsində azərbaycanlıların hüquqlarının qorunmasında və təminində Azərbaycan Respublikası dövləti müvəkkildir” tezisini davamlı olaraq, addım-addım həyata keçirdiyinin canlı şahidiyik. Bu, dövlətçilik baxımından güclü, ədalətli, haqlı və perspektivi böyük olan tarixi kəlamdır! Bu kəlamın prizmasında Azərbaycanın suverenliyinin yeni tarixi mərhələdə aldığı məzmunun nəzəri dərki aktual təsir bağışlayır. Azərbaycan yeni tarixi mərhələsinə tam suveren dövlət kimi qədəm qoymuşdur. Bu anlayışın müxtəlif aspektləri mövcuddur. Onlar İlham Əliyevin siyasi təcrübəsi kontekstində çox aktual və əhəmiyyətli görünür.

### Suverenliyin müasir nəzəri anlamı

Biz burada, ümumiyyətlə, “suverenlik” anlayışının müxtəlif məna çalarlarına baxmırıq. “Suverenlik” dedikdə dövlət suverenliyini nəzərdə tuturuq. Bu anlamda Laçın Zirvəsi Azərbaycan Prezidentinin siyasi təcrübəsinin mühüm göstəricisi, suverenliyin təcəssümlərindən biri olaraq təhlil edilir.

Dövlət suverenliyi iki aspekti özündə ehtiva edir – birincisi, bu, dövlətin öz ərazisində tam olaraq hakimiyyətini müəyyən etməkdə və onu həyata keçirməkdə müstəsna hüququdur. İkincisi, beynəlxalq aləmdə müstəqil qərarlar qəbul etməyin ifadəsidir. Bu anlamda dövlət suverenliyi ilə siyasi suverenlik mənaca üst-üstə düşür. Siyasi suverenlik dövlətin daxili və xarici siyasətini özünün müəyyən etməsində ali hakimiyyətə, müstəqilliyə və hüquqa malik olmasını ifadə edir. O cümlədən siyasi suverenlik dövlətin öz ərazisi və əhalisi ilə bağlı qərarları müstəqil qəbul etməsinin ifadəçisidir.

Bu anlamların ortaq məna sahəsində mövcud olan iki məqamı da vurğulayaq. Birincisi, dövlət suverenliyi ilə siyasi suverenlik vəhdətdə ölkədə sabitlik və qərarların qəbulunda tam müstəqilliyi təmin etməlidir. İkincisi, dövlət başçısı qərarların qəbulunda tam müstəqil olmalıdır. Yəni ölkə rəhbərinin daxili və xarici siyasətdə müstəqil kursu həyata keçirməsi dövlət və siyasi suverenliyin əsas əlamətlərindən biridir.

Bu ümumi müddəaların fonunda yeni tarixi mərhələdə Azərbaycan Prezidentinin siyasi təcrübəsində suverenliyin təcəssümlərinin bir sıra siyasi-nəzəri məqamları üzərində dayanmaq gərəkdir. Bu, Laçın Zirvəsinin siyasi və geosiyasi mənasını adekvat dərk etməyə işıq salacaq.

### Liderin siyasi təcrübəsində suverenlik amili

II Qarabağ müharibəsindən sonra Azərbaycan üçün tam suverenliyin təmin edilməsi məsələsi daha da aktuallaşdı. Çünki artıq Azərbaycan ancaq özünün suverenliyini təmin etməli olan dövlət statusunda deyildir. Bakı həm də Cənubi Qafqazın siyasi və geosiyasi suverenliyinə məsul olan lider dövlətdir. Bununla milli suverenliklə regional suverenliyin vahid siyasi təcrübədə birləşdirilməsi kimi bir vəzifə meydana gəlmiş oldu. Bu vəzifə XXI əsrin yeni çağırışları fonunda xüsusi aktuallıq və məzmun kəsb etməkdədir.

Deməli, İlham Əliyevin siyasi təcrübəsində suverenlik yeni tarixi mərhələdə daha da aktuallaşmışdır. Bu prizmadan Azərbaycan Prezidentinin regional, regionlararası və qlobal miqyaslarda fəaliyyətinə baxsaq, məhz suverenliyin təmini kontekstində maraqlı əlamətləri görə bilərik. Onları birləşdirən faktor olaraq, praktiki müsbət nəticə verən layihələr şəbəkəsinin genişlənməsi və reallaşması mexanizmləri ilə sülh xarakterli diplomatik fəaliyyətin sintezini vurğulaya bilərik. Bu məsələ çox dərin qatlarda liderlik fəaliyyətinin özəlliklərinə bağlıdır.

Bu yazıda cəmi bir neçə faktora qısa toxunaq. Hər şeydən öncə, Azərbaycan Prezidenti regional və qlobal təşkilatlarda layihələrin struktur və funksional imkanlarının genişlənməsinə yeni təkanlar verdi. O cümlədən TDT ərazisi də tam olaraq daxil olmaqla geniş bir geosiyasi məkanda “yaşıl enerji” kateqoriyasına aid olan layihələrin təşəbbüskarı və həyata keçirən əsas güclərdən biri oldu. Hazırda “bərpaolunan enerji” ilə bağlı layihələri Avropa İttifaqı və Çin bəyənmiş, onun həyata keçməsində Azərbaycanın müstəsna rolunu etiraf etmişlər.

Bu prosesə paralel olaraq Azərbaycan Prezidenti geniş bir geosiyasi məkanda – Qafqaz, Mərkəzi Asiya, Uzaq Şərq, Yaxın Şərq və Şərqi Avropada sülh diplomatiyasının öncüllərindən biri olmuşdur. İndi Azərbaycan İsrail – Türkiyə, İsrail – Suriya, Pakistan – Hindistan və Rusiya – Ukrayna münaqişələrinin həll olunmasında ciddi rol oynayan dövlət kimi qəbul edilir. Bu prosesin əsas əlamətlərindən biri Bakının son aylarda intensiv diplomatik hərəkətlilik məkanına çevrilməsidir. Cəmi 30 il bundan öncə Bakıya gəlməyə həvəsi olan dövlət başçıları barmaqla sayılırdı. İndi isə sözün həqiqi mənasında, Azərbaycan paytaxtı sülh diplomatiyasının mərkəzlərindən biri halına gəlmişdir.

Buradan mühüm bir nəticə çıxarırıq. Azərbaycan Prezidentinin yeni tarixi mərhələdə liderlik təcrübəsini bir neçə dövlətin suvenerliyinin təmin olunmasını ehtiva edən məna çalarları daha da zənginləşdirməkdədir. Münaqişə edən dövlətlər arasında sülh yaratmaq təcrübəsinin suverenliyin milli miqyası aşaraq regionlararası və qlobal miqyasa proyeksiyası kontekstinin İlham Əliyev nümunəsini görürük.

Bu nümunənin məna çalarlarından birini Prezident İlham Əliyevin Laçın Zirvəsində ifadə etdiyi aşağıdakı fikirlərdən aydın duyuruq: “Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalətin tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyə və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik. Ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialından istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var”.

### Suverenlik, ərazi bütövlüyü və ədalət

Bu fikirlərdən Laçın Zirvəsi kontekstində suverenlyin yeni tarixi mərhələdə anlamı ilə bağlı çox maraqlı məna keçidlərini görmək mümkündür.

Birincisi, İlham Əliyev suverenlik, ərazi bütövlüyü və ədalətə bir-biri ilə sıx bağlı anlayışlar kimi baxdığını ifadə edir. Yəni, Azərbaycan dövləti üçün tam suverenlik ərazi bütövlüyü və ədalət təmin olunduğunda real siyasi məzmun alır. Ərazi bütövlüyü və ədalət (o cümlədən beynəlxalq hüquq normalarına əməl olunması) suverenliyin iki mühüm təminedici “sütunu”dur. Yeni tarixi mərhələnin çağırışları fonunda bu tezisi dövlətlər qrupuna uğurlu proyeksiya etmək İlham Əliyevin siyasi təcrübəsinin mühüm komponentini təşkil edir.

İkincisi, Azərbaycan Prezidenti bu anlamda siyasi təcrübənin, faktiki olaraq, həmfikir liderlərin birgə çalışmalarının nəticəsi tezisini irəli sürür. Konkret olaraq, Laçın Zirvəsi kontekstində Azərbaycan, Türkiyə və Pakistan liderlərinin və xalqlarının birliyi yeni mərhələdə mühüm faktorlardır. Prezident İlham Əliyev bunun ciddi əsaslarının olduğunu da ifadə etmişdir: “Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq”. Əlbəttə, daha geniş aspektdə bu prinsipi TDT ölkələrinə aid etmək olar.

Üçüncüsü, Azərbaycan lideri yeni tarixi mərhələdə ölkələrin “strateji mövqeyindən və dinamik iqtisadi potensial”ından geniş istifadə etmək xəttini siyasi təcrübənin çox vacib tərkib hissələrindən biri sayır.

Vurğuladığımız bu üç geosiyasi-nəzəri faktorun sintezində Laçın Zirvəsinin anlamında aktual yer tutan başqa məqamları müəyyən etmək olar.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan–ABŞ: montanalı senatorun ümidverici səfəri

## *Stiv Deynsinin ölkəmizə səfərini əhəmiyyətli edən nədir?*

**Prezident İlham Əliyev mayın 29-da ABŞ Senatının Xarici əlaqələr komitəsinin üzvü, senator Stiv Deynsi qəbul edib. Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycanın Müstəqillik Günü ilə bağlı təbrik məktubunun ölkəmizdə yüksək qiymətləndirildiyini vurğulayaraq, diqqəti sənəddə ifadə olunan başlıca məqama yönəldib. Söhbət ölkəmizlə Birləşmiş Ştatlar arasında təhlükəsizlik, enerji və iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunun bildirilməsindən gedir.**

Qeyd edək ki, Respublikaçılar Partiyasının üzvü olan montanalı senator S.Deynsi mühafizəkarlığı ilə seçilir. O, 2023–2025-ci illərdə Milli Respublikaçı Senatorlar Komitəsinin (NRSC) sədri olarkən, partiyanın Senatda əksəriyyəti əldə etməsi naminə strateji namizədlərin seçilməsində mühüm rol oynamışdı. Deynsi, həmçinin 2024-cü ildə sabiq Prezident Co Bayden tərəfindən Montana üçün təyin olunan ilk yerli amerikalı federal məhkəmə hakimi namizədi Danna Ceksonun təsdiqini bloklamış, bildirmişdi ki, administrasiya namizədin irəli sürülməsi zamanı onunla kifayət qədər məsləhətləşməyib.

Deməli, aydındır ki, S.Deynsi ABŞ-ın hakim komandasına yaxınlığı ilə seçilir və belə bir şəxsin Azərbaycana səfəri qarşılıqlı əlaqələrin inkişafı baxımından real perspektiv yaradan amil kimi qiymətləndirilə bilər. Yazımızda da əsasən bu məqamın üzərində dayanacağıq. Fikrimizi əsaslandırmaq üçün Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycan-ABŞ əlaqələri barədə söylədiyi fikirlərə istinad etməyi vacib sayırıq. Həm də ona görə ki, dövlətimizin başçısının böyük uzaqgörənliklə vurğuladığı məqamlar reallığa çevrilir.

Prezident İlham Əliyev müsahibəsində Trampın hakimiyyətə yeni gündəliklə gəldiyini bildirmişdi. Dövlətimizin başçısı, eyni zamanda, onun Prezident fəaliyyətinin birinci dönəmində Amerika – Azərbaycan əlaqələrində hansısa problemin yaşanmadığını vurğulamışdı. “Əksinə, münasibətlər çox müsbət idi və bir çox istiqamətlər üzrə biz irəliləyişə nail ola bilmişdik”, – deyən cənab Əliyev sabiq Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvinə diqqət çəkmişdi: “Bayden administrasiyasının əsas səhvi ondan ibarət idi ki, o, Amerika – Azərbaycan münasibətlərini Amerika – Ermənistan münasibətlərinin qurbanına çevirdi. Yəni, Azərbaycana Ermənistan – Azərbaycan, ya da ki, Amerika – Ermənistan münasibətlərinin prizmasından yanaşırdı və o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qaldı, bu birincisi. İkincisi, Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləmişdir, xüsusilə Qarabağ məsələsi ilə bağlı və bu, həm ədalətsiz, həm də ki, ikili standartlara əsaslanan mövqe idi. Çünki mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim və açıq da deyirdim, mətbuatda da, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Cavab da bəllidir ki, bu, ikili standartlardır”.

Diqqət yetirək, senator S.Deynsi Əfqanıstanda ABŞ və Azərbaycan əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil hava limanının təhlükəsizliyinə cavabdeh azərbaycanlı sülhməramlıların Əfqanıstandan çıxan ən sonuncu hərbi kontingent olduğunu xatırladıb, hərbçilərimizin mülki və hərbi şəxslərin təxliyyəsində mühüm rol oynadıqlarını deyib. Deməli, Birləşmiş Ştatlarda Bakı – Vaşinqton münasibətləri baxımından ölkəmiz tərəfindən irəli sürülmüş gündəm məqbul qarşılanır.

Söhbət hansı gündəmdən gedir, bu barədə söz açarkən, yenə Prezident İlham Əliyevin fikirlərinə nəzər salmağı zəruri sayırıq: “Eyni zamanda, hesab edirəm, Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə. Məsələn, elə Əfqanıstan məsələsinə qayıtsaq, Azərbaycan birinci ölkələrdən idi ki, Əfqanıstandakı missiyaya qoşulmuşdu və həm hərbi kontingent göndərmişdi və dəfələrlə onu artırmışdı, həm də Amerika üçün çox vacib olan nəqliyyat-logistika məsələlərini də həll etmişdi. Biz onlara lazım olana qədər 907-ci düzəliş – sanksiya qaldırılırdı, biz ki, lazım olmadıq, tətbiq etdilər. Yəni bu nədir? Bunun bir adı var: nankorluq. Bu, nankorluqdur və hansı inamdan söhbət gedə bilər? Hansı uzunmüddətli əməkdaşlıqdan söhbət gedə bilər? Bayaq dediyim kimi, Sorosun bu yüksək mükafatla təltif edilməsi bütün maskaları yırtdı. Yəni bu, Soros iqtidarı idi, həm Bayden dönəmində, həm Trampa qədər olan səkkiz il ərzində və məhz buna görə bizim münasibətlərimizdə heç bir irəliləyiş olmamışdır”.

Onu da bildirək ki, Azərbaycanla ABŞ arasında ciddi əməkdaşlıq platforması Bill Klintonun və Corc Buşun Prezidentliyi



dönəmində yaranıb. Bu tendensiya Trampın birinci dövlət başçılığı mərhələsində də davam edib. İndi isə ümidlər var və deyə bilərik ki, senator S.Deynsi ölkəmizə həm də ümid gətirmişdi. Ümidlərin böyük olduğunu isə Prezident İlham Əliyev həm bu il yanvarın 7-dəki müsahibəsində, həm də ötən il Şuşa Beynəlxalq Media Forumunda vurğulamışdı. Dövlətimizin başçısı, habelə, Bakı – Vaşinqton münasibətlərinin strateji səviyyəyə qaldırıla bilməsindən də söz açmışdı.

Münasibətlərin strateji səviyyəyə qaldırılmasından söz düşmüşkən, S.Deynsi Prezident İlham Əliyevlə görüşdə Amerika Birləşmiş Ştatları ilə ölkəsi arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişafı perspektivlərini önə çəkib. Senator fəaliyyəti dövründə Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin ABŞ ilə münasibətlərinin inkişafına mühüm əhəmiyyət verdiyini deyərək, əlaqələrin inkişafı üçün böyük imkanların yarandığını bildirib. Ən başlıcası isə görüşdə Azərbaycanın əsas logistika mərkəzlərindən birinə çevrildiyi vurğulanıb. Bu baxımdan ölkəmizin Orta Dəhlizin inkişafında oynadığı mühüm rol üzərində dayanılıb.

Elə isə Prezident İlham Əliyevin yanvarın 7-dəki müsahibəsində Azərbaycan–ABŞ münasibətlərindən söz açarkən vurğuladığı bir məqamın da üzərində dayanaq: “Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz. Yəni bunu bizsiz edə bilməzlər və müasir infrastruktur, sabitlik, düşünülmüş siyasət və dünyaya açıqlıq. Yəni biz yeni dünya nizamına öz töhfəmizi əməllərimizlə veririk, çünki bəzən bu, bir qədər diqqətdən kənarda qalır. Amma mən bilirəm ki, Azərbaycanın son illərdəki addımları çox ciddi təhlil edilir, çox ciddi. Çünki dünya tarixində öz ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb, hər halda, yaxın və orta keçmişə nəzər salsaq. Bunu biz etmişik, bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə rəğmən. Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı o qədər də çox deyil”.

Sonda bir məqamı da vurğulayaq ki, senator S.Deynsi dövlətimizin başçısı ilə görüş zamanı Azərbaycana və Mərkəzi Asiya ölkələrinə Birləşmiş Ştatlar Senatının nümayəndələri tərəfindən səfərlərin intensivləşdirilməsinin vacibliyinə də toxunub. Hesab edirik ki, bunun özü də vacibdir. Deməli, cənab Deynsi özü ilə təkcə ümid yox, həm də real iş parametrləri də gətirib. Ümid edirik ki, həmin parametrlər daha da dərinləşəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycanın xarici siyasəti uğurlar üstündə köklənib

(əvvəli 1-ci səhifədə)

Dünya nizamında qeyri-müəyyənliyin artdığı, siyasi bloklaşmaların kəskinləşdiyi bir dönəmdə Bakı öz xarici siyasətində sabitlik və çevik adaptasiya arasında mükəmməl bir tarazlıq qurmağı bacarır. Çinlə münasibətlərin dərinləşdirilməsi isə bu siyasətin məntiqi davamıdır. İlham Əliyevin Pekində apardığı danışıqlar Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə strateji rolunu möhkəmləndirməklə yanaşı, Pekin tərəfindən də Bakıya olan baxışın dəyişdiyini göstərdi: artıq Azərbaycan yalnız tranzit ölkə kimi deyil, həm də regionda etibarlı geosiyasi tərəfdaş kimi qəbul olunur.





Çin öz qlobal strategiyasını daha az riskli marşrutlar üzərində qurmağa çalışdığı bir vaxtda Azərbaycanın sabit siyasi sistemi, proqnozlaşdırıla bilən idarəetməsi və uğurlu postmüharibə bərpa strategiyası Pekin üçün onu regionda digər oyunçulardan fərqləndirən əsas cəhətlər kimi qiymətləndirilir. Məhz buna görə Prezident İlham Əliyevin səfəri zamanı tərəflər yüksək texnologiyalar, yaşıl enerji və rəqəmsal transformasiya sahəsində də konkret əməkdaşlıq addımları atdılar.

Pekin bu gün Qlobal Cənubun siyasi cazibə mərkəzinə çevrilir. Azərbaycan isə bu məkanla münasibətlərində geosiyasi çoxqütblülükdə öz müstəqil xəttini qorumağı strateji zərurət hesab edir. İlham Əliyevin Çinə səfəri bu niyyətin siyasi təcəssümüdür: nə Qərbdən yan keçmək, nə də Şərqə tabe olmaq — bu, Azərbaycanın balanslı, lakin prinsipial diplomatiyasının XXI əsr şərtlərinə uyğun yenilənmiş modelidir.

Bir müddət gərginliklərin müşahidə olunduğu Azərbaycan – İran münasibətləri də 2025-ci ildə tamamilə yeni bir istiqamət aldı. İranın yeni Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri də regionda dəyişən geosiyasi konfiqurasiyanın rasional cavabı kimi qiymətləndirilməlidir və bu səfər emosional ritorikanın yerini rasional maraqlara verdiyi, dini-ideoloji çalarların diplomatik praqmatizmə uduzduğu bir dönüş nöqtəsi oldu.

Pezeşkianın səfəri hər şeydən öncə Tehranın regional siyasətində dəyişiklik siqnalı kimi şərh olunur. Azərbaycanla münasibətlərin gərginləşməsi, xüsusilə 2020-ci ildən sonra Qarabağ məsələsində İranın balanssız mövqeyi, sərhəd yaxınlığında hərbi təlimlər və daxili siyasi ritorikada Azərbaycanın hədəfə alınması iki ölkə arasında inamı xeyli zəiflətmişdi. Lakin islahatçı obrazı ilə tanınan Pezeşkianın hakimiyyətə gəlişi ilə Tehran regionla daha çevik və rasional siyasət yürütməyə meyilli görünür.

Bakıda keçirilən yüksək səviyyəli görüşlər zamanı Pezeşkianın vurğuladığı əsas mesajlardan biri "qonşularla sıfır problem" yanaşmasına qayıdış idi. Bu yanaşma İranın sanksiyalar altında qlobal təcriddən çıxmaq üçün yaxın regionla – o cümlədən Azərbaycanla – iqtisadi və nəqliyyat əlaqələrini genişləndirmək niyyətini əks etdirir. Azərbaycanın isə İranla münasibətləri normallaşdırmaqda əsas marağı Zəngəzur dəhlizi və regiondakı nəqliyyat dəhlizləri üzərində əməkdaşlığın bərpasıdır. Ən əsası isə odur ki, Pezeşkianın səfəri Azərbaycanla İran arasında münasibətlər tarixi, dini və mədəni ortaq məxrəcə deyil, qarşılıqlı maraqlar üzərində yeni formatda yenidən qurmaq cəhdidir.

Avropa İttifaqı ilə də Azərbaycan arasındakı münasibətlər son illərdə daha strateji və çoxşaxəli məzmun qazanıb və bu transformasiyanın əsas vektorlarından biri, şübhəsiz ki, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqdır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən TAP (Trans – adriatik Boru Kəməri) və TANAP (Trans – anadolu Qaz Boru Kəməri) layihələri Aİ üçün etibarlı və davamlı tərəfdaşlıq modelinin nümunəsinə çevrilib.

Mövcud fonda 2025-ci ilin aprelində Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Bakıya səfəri Azərbaycan–Aİ münasibətlərində mühüm dönüş nöqtəsi oldu. Səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirilən görüşdə Aİ–Azərbaycan əməkdaşlığına dair əsas prioritetlər açıq və praqmatik şəkildə müzakirə edildi. Kallasın səsləndirdiyi "Azərbaycan Aİ-nin enerji təhlükəsizliyinin əsas sütunlarından biridir" fikri rəsmi Brüsselin bölgəyə baxışının dəyişdiyinin bariz nümunəsi idi.

Enerji məsələləri bu görüşdə mərkəzi mövqe tuturdu, TANAP və TAP layihələri çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, ötürmə gücünün artırılması, həmçinin yaşıl enerji inteqrasiyasının regional layihələrə daxil edilməsi gələcək əməkdaşlıq perspektivləri kimi qeyd olundu. COP29-un Azərbaycanda keçirilməsi faktı da Aİ-nin iqlim siyasəti ilə Azərbaycanın enerji gündəmi arasında ortaq kəsişmə nöqtələrinin mövcudluğunu göstərdi.

Əlbəttə, zaman-zaman Aİ və xüsusilə Avropa Parlamenti tərəfindən səsləndirilən bəzi birtərəfli tənqidlər, insan haqları və demokratiya məsələlərində ikili standartlar hazırkı mərhələdə, xüsusilə geosiyasi risklərin artdığı bir dövrdə Avropa üçün əsas prioritet sabitlik, təchizat etibarlılığı və strateji tərəfdaşlıqdır. Məhz bu baxımdan Azərbaycanla münasibətlər emosiyadan uzaq, təhlükəsizlik və qarşılıqlı maraqlar əsaslı yeni platformaya keçir.

Kaya Kallasın səfəri həm də göstərdi ki, Brüssel Azərbaycan siyasətində artıq mono-oriyentasiyalı yanaşmasını çoxölçülü baxışa verir. Təkcə enerji deyil, həm də rəqəmsal transformasiya, nəqliyyat, iqlim və sülh diplomatiyası sahəsində Azərbaycanla əməkdaşlıq Avropa üçün getdikcə daha cəlbedici və strateji xarakter alır. Bugün Bakı ilə Brüssel arasında, tərəfdaşlıq, qarşılıqlı hörmət və uzunmüddətli maraqlar əsasında qurulmuş siyasi dialoq körpüsü mövcuddur.

Azərbaycan və ABŞ arasında münasibətlər son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, regional və qlobal əhəmiyyəti olan əməkdaşlıq forması kimi önə çıxmışdır. Bu əlaqələrin əsasında dayanacaq üç əsas istiqamət – enerji təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə və regional sülhün möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətində və ABŞ-ın Qafqaz regionundakı strateji maraqlarında mühüm yer tutur.

Enerji təhlükəsizliyi məsələsində Azərbaycan Avropanın enerji bazarlarına diversifikasiya edilməsi, etibarlı və alternativ marşrutlar vasitəsilə qaz və neft tədarükünü təmin edən əsas ölkələrdən biridir. Əməkdaşlıq sayəsində Azərbaycan, həmçinin. Qərb bazarlarında öz iqtisadi və siyasi təsirini artırmaqla, digər məsələlərin enerji monopoliya təsirini zəiflətməyə mühüm töhfələr verir. Bütün bunlar isə təbii ki, regionda və qlobal səviyyədə ABŞ-ın maraqlarına cavab verir.

Eyni zamanda, terrorizm və ekstremizmlə mübarizədə Azərbaycanın ABŞ ilə əməkdaşlığı ölkənin milli təhlükəsizliyinin təminatında vacib amildir. ABŞ-ın regiondakı antiterror strategiyalarında Azərbaycan önəmli partnyor kimi çıxış edir. İki ölkənin təhlükəsizlik orqanları arasında mütəmadi təcrübə mübadiləsi, kəşfiyyat əməkdaşlığı və birgə əməliyyatlar terror təhlükəsinin azalmasına və regionda sabitliyin möhkəmlənməsinə xidmət edir.

Regional sülh və sabitliyin təşviqi də Azərbaycan – ABŞ münasibətlərinin əsas prioritetlərindəndir. Azərbaycan öz qonşuları ilə münasibətlərdə konstruktiv siyasət yürüdərək, regional münaqişələrin həlli, sərhəd təhlükəsizliyi və əməkdaşlığın gücləndirilməsi istiqamətində səylər göstərir. ABŞ bu səyləri dəstəkləyərək, Cənubi Qafqazda sülhün bərqərar olunmasına töhfə verməkdə maraqlıdır.

28 may 2025-ci il tarixində ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu da bu strateji əməkdaşlığın bariz nümunəsidir. Məktubda Azərbaycan – ABŞ münasibətlərinin terrorizmə qarşı mübarizə, enerji təhlükəsizliyi və qonşularla sülh sahələrində yüksək səviyyədə inkişaf etdiyi vurğulanır və bu amil iki ölkə arasında qarşılıqlı etimadın və tərəfdaşlığın daha da möhkəmlənməsi üçün zəmin yaradır.

Ümumilikdə, Azərbaycan – ABŞ münasibətləri həm regional, həm də qlobal səviyyədə qarşılıqlı maraqlara xidmət edən, dayanıqlı və çoxşaxəli xarakter daşıyan əməkdaşlıqdır. İkitərəfli əməkdaşlıq Azərbaycanın beynəlxalq mövqeyini gücləndirir, regionda sabitliyin qorunmasına töhfə verir və enerji təhlükəsizliyi sahəsində strateji əhəmiyyət kəsb edir. Gələcəkdə də bu əməkdaşlığın daha da dərinləşməsi və genişlənməsi ehtimalı yüksəkdir ki, bu da həm iki ölkənin, həm də regionun inkişaf perspektivlərini daha da parlaq edir.

Sonda qeyd edə bilərik ki, Azərbaycan müxtəlif güc mərkəzləri ilə münasibətlərini balanslı və çoxölçülü strategiya əsasında quraraq öz milli maraqlarını və regional stabilliyi təmin edir. Çinlə strateji iqtisadi əməkdaşlıq, Avropa İttifaqı ilə enerji və siyasi dialoq, ABŞ-la təhlükəsizlik və enerji tərəfdaşlığı, İranla isə pozitiv qonşuluq münasibətləri Azərbaycanın beynəlxalq siyasətinin uğurla reallaşdığını göstərir. Bu cür çoxşaxəli yanaşma Azərbaycanı regional lider kimi möhkəmləndirir və ölkənin qlobal arenada nüfuzunu artırır. Belə bir xarici siyasət modeli həm bugünün çağırışlarına cavab verir, həm də Azərbaycanın gələcək inkişaf perspektivlərini genişləndirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Qeyri-müəyyənlik İrəvanı dalanda saxlayır

(əvvəli 1-ci səhifədə)

Misal üçün, Ermənistanda rəsmi səfərdə olan Rusiya XİN-in başçısı Sergey Lavrovun açıqlamaları təkcə ölkə daxilində deyil, xaricdə də əhəmiyyətli dərəcədə ajiotaj yaradıb. Bunun da səbəbi məlumdur: Ermənistan hakimiyyəti son vaxtlar həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda Avrasiya vektorundan mümkün qədər uzaqlaşmanın israrlı istəyini nümayiş etdirir. Məhz bu kontekstdə, bir növ, özünəməxsus "sensasiya" baş verdi. Məsələ, ümumiyyətlə, Rusiyanın baş diplomatının bəyanatlarında deyil, onun erməni həmkarı Ararat Mirzoyanın Paşinyan və komandasının apardığı anti-Avrasiya siyasətinə zidd bəyanatlarındadır. A.Mirzoyan vurğulayıb ki, İrəvan Rusiya ilə müttəfiqlik münasibətlərinin formatına yenidən baxmaq niyyətində deyil. Ermənistanın Aİ-yə üzv olmaq istəyindən danışan hay nazir bildirib ki, ölkə bununla bağlı heç bir rəsmi müraciət etməyib: "Ermənistan Avropa İttifaqına daxil olmaq üçün müraciət etməyib, bu istiqamətdə danışıqlar aparılmır və müvafiq olaraq, bu mövzu İrəvan üçün aktual deyil".

Onun ardınca iqtisadiyyat naziri Gevorq Papoyan öz növbəsində qeyd edib ki, "Ermənistan Avrasiya İqtisadi İttifaqının üzvüdür və bu ittifaqdan çıxmaq planı yoxdur". Maraqlıdır ki, bu zaman onlar vacib bir məqama – hökumət komandasının təşəbbüsü ilə Ermənistanın "Avropa yolunun başlanması" haqqında qanunun qəbulu barədə "nəzakətlə" susurlar. Fəqət, xarici siyasət idarəsinin rəhbərinin bəyanatı kifayət qədər yüksək tonda səsləndi. Məsələyə yanaşmada hakimiyyətdaxili fikir ayrılığı, qeyri-müəyyənlik göz qabağındadır.

Bəs, "məxməri" hökuməti gözlənilmədən Rusiyaya təzim etməyə vadar edən nədir? Ekspertlər hesab edirlər ki, səbəb Nikol Paşinyanın bu yaxınlarda Avropa Siyasi Birliyinin sammitinin keçirildiyi Albaniyanın paytaxtı Tiranaya səfəri ilə bağlıdır. Görünür, "Rusiyadan qopmaq" planının həyata keçirilməsi kontekstində Paşinyan ümid etdiyi dəstəyi avropalılardan almayıb.

Sonra "İrəvan dialoqu - 2025" forumu keçirildi. Fransanın xarici işlər naziri Jan-Noel Barro İrəvana gəldi və Ermənistan və Fransa XİN-ləri arasında "Niyyət Bəyannaməsi" imzalandı. A.Mirzoyan fransalı həmkarı ilə görüşündən sonrakı mətbuat konfransında bəyannamənin əməkdaşlığın dərinləşdirilməsini, siyasi məsləhətləşmələrin aparılmasını, diplomatik missiyalar arasında qarşılıqlı əlaqənin inkişaf etdirilməsini nəzərdə tutduğunu bəyan etdi. Üstəlik, Ermənistanla Fransa arasında münasibətlərin, əslində, "strateji səviyyədə" olduğunu, hətta ikitərəfli əlaqələr "elə sahələri əhatə edir ki, strateji əməkdaşlıq haqqında sənədi olan digər ölkələrdə bu, yoxdur" dedi. Buna cavab olaraq münasibətlərin böyük ölçüdə strateji xarakter daşıdığını etiraf edən Jan-Noel Barro gələcəkdə hərbi sahədə atılacaq addımları əks etdirən yeni sənədin hazırlanacağını da vurğuladı.





*

Nikol Paşinyanın siyasətindəki bu ritorik dönüşlər nədən xəbər verir? Tamhüquqlu Ermənistan–Rusiya dialoqunun bərpasından, yoxsa Parislə strateji münasibətlərin gücləndirilməsi istiqamətində atdığı addımlardan? Biz yəqin Ermənistan hakimiyyətinin əvvəl bir tərəfə, sonra isə digər tərəfə necə "yelləncəyinin" bir daha şahidi olacağıq. Paşinyanın qərbyönlü addımları fonunda Moskva İrəvanla münasibətlərinə ciddi şəkildə yenidən baxmağa başladı və hakim erməni elitası bu "zərbəni" dərhal pul kisəsində hiss etdi. Bu kəsim anladı ki, xəsis avropalı siyasətçilərlə dostluq etmək cəhdi Paşinyan rejiminə gözlənilən dividendləri gətirmədi. Paris və Brüssel İrəvana çox şey vəd etsə də, verdiklərindən çox tələb edirlər. Beləliklə, rəsmi İrəvanın merkantil seçimi göz qabağındadır. Nəzərə alaq ki, 2026-cı ilin yayında Ermənistanda parlament seçkiləri planlaşdırılır və bu, Paşinyan rejimi üçün ən ciddi və ağrılı sınaq olacaq.

Aİ-nin sifarişi ilə Moskva ilə qarşıdurmanı davam etdirmənin tam ağılsızlıq və intihara bərabər olduğunu anlayan Paşinyan "eyni vaxtda iki stulda oturmaq" taktikasından heç cür əl çəkə bilmir. Rəsmi İrəvanın davranışları həm də ondan xəbər verir ki, nəhayət, qlobal siyasi tendensiyanı qavrayıb və Avropanın "topal atına" minmək qərarının yanlışlığını başa düşüb. Həm də ona baha başa gələ biləcək Paris və Brüsselin maraqlarına kor-koranə xidmət etməkdən vaz keçmək barədə düşünür. Bəli, Ermənistan hazırda yol ayrıcındadır. İndi Moskva "kollektiv Qərb"ə qarşı mübarizədə mütləq deyil, nisbi qalibiyyət qazandığından Ermənistan rəhbərliyi çətin duruma düşüb. İrəvan son 30 ildə Rusiyanın yedəyində yol gedirdi, amma sonra kəskin dönüş baş verdi. Doğrudur, Moskva buna dözdü, sərt təsir rıçaqlarından istifadə etmədən diplomatik manevrlərə üstünlük verdi.

S.Lavrov Ermənistana səfərindən sonra münasibətlərdə "fundamental problemlər" olmadığını bəyan etdikdə, bu, heç də o demək deyil ki, problem, həqiqətən də, yoxdur. Əksinə, bu, o deməkdir ki, Moskva özünün buraxdığı "sualtı qayıqdan" Ermənistanın heç bir yerə getməyəcəyinə əmindir. Kreml İrəvanın, sadəcə olaraq, onunla münasibətləri bərpa etməkdən başqa yolunun qalmadığını da yaxşı bilir və dəyərləndirir. Hər iki tərəf onu da gözəl anlayır ki, Ermənistanın üzvü olduğu Avrasiya İqtisadi İttifaqı ona maksimum gəlir gətirir. Ölkə əhalisi Rusiyadan gələn pul köçürmələrindən birbaşa asılıdır. Bu baxımdan, A.Mirzoyanın Ermənistanın Aİ-yə daxil olmağı planlaşdırmaması ilə bağlı bəyanatının siyasi diletantlar üçün nəzərdə tutulduğunu deyə bilərik. Axı, Ermənistan Aİ-də kimə lazımdır? Bu quruma üzvlük növbəsini gözləyənlər var: Türkiyə və başqaları...

"Avropa yolu" ilə bağlı keçiriləcək referendum da heç nəyi həll etməyəcək. O halda da Hayastanı Aİ-yə qəbul etməyəcəklər. Ona görə də İrəvan indi bir neçə stulda oturmağa çalışır. İntəhası, Moskva–İrəvan dialoqunun bərpası qaçılmazdır. Eyni zamanda, Ermənistan başqa ölkələrlə də münasibətlər qura bilər, amma bu, heç bir halda Rusiya ilə müttəfiqliyinə zərər verməməlidir. Əks təqdirdə ölkənin dövlətçiliyi təhlükə altında olacaq.

Özünü siyasi dalana dirəmiş İrəvan tərəddüd edir, vurnuxur, dəyişən qlobal mənzərəyə uyğunlaşmaq üçün xarici siyasət xətləri arasında manevrlər edir. Kiçik ölkələr həmişə güclülərin kölgəsinə sığınıblar. Burada söhbət əsrlər boyu erməni xalqının kimliyini qoruyub saxlamağa kömək edən dövlətdən – Rusiyadan gedir. Əgər Ermənistanın Rusiya ilə münasibətləri yaxşılaşdırmaqdan başqa yolu yoxdursa, bu, dinc dialoq üçün perspektivlər yaradacaq. Fransa ilə "strateji tərəfdaşlıq" haqqında deyilənlər isə gəlişigözəl sözlərdir. Ermənistana pul, əsasən, Rusiyadan gəlir, Fransanın hərbi yardımı isə "xüsusi missiyaya" xidmət edir. Kiçicik bir böhran yarandıqda Ermənistan Türkiyə və Azərbaycana möhtac qalacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Ermənistan baş nazirinin indiki durumu həm çox qəliz, həm də mürəkkəbdir. Mürəkkəbliyi ondan ibarətdir ki, daxildə reytinqi hər gün aşağı enməkdədir. Digər reallıq ondan ibarətdir ki, ölkənin bir sıra şəhər və rayonlarında Paşinyana müxalif qüvvələrin təmsilçiləri rəhbər vəzifələrə seçiliblər. Bu, baş nazir üçün narahatedici məqamdır. Eyni zamanda, onu da başa düşür ki, Rusiyadan tam ayrıla bilməz. Çünki uzun illərdir ki, Rusiya ilə Ermənistan arasında möhkəm bağlar formalaşıb. Hayastan bu müddətdə həmişə Kremlin əlaltısı, "maşa"sı olub. Bu gün də elədir. Paşinyan yaxşı bilir ki, Moskva Ermənistanın daxilindəki bəzi qüvvələri, fiqurları "dirildib", yenidən hakimiyyətə gətirə bilər. Keşişlər, "eks"lər, daşnak-revanşistlər bu qüvvələrdəndir. Son vaxtlar "Qarabağ klanı"nın nümayəndələri fəallaşıblar.

Bəli, belə vəziyyətdə Paşinyan çapalayır. Əsas problemi odur ki, konkret mövqe tutmaq imkanı da yoxdur. Onu da anlayır ki, Azərbaycanla sülh müqaviləsi bağlamalı, Türkiyə ilə münasibətləri normallaşdırmalı, sərhədləri açmalıdır. Çıxışlarında sülh sazişini imzalamağa hazır olduğunu təkrarlayır. Baxmayaraq ki, sazişin imzalanması üçün şərtlərin tam yetişmədiyini də başa düşür. Paşinyan Azərbaycana qarşı ərazi iddialarının yer aldığı qanunvericiliyini mütləq şəkildə dəyişdirməli olduğunu da yaxşı bilir. Onun bu gün sərgilədiyi mövqe müvəqqəti xarakter daşıyır. Gec-tez real, sağlam mövqeyini ortaya qoymalıdır.

Əgər daxildəki vəziyyətə nəzarət etməyə gücü çatmırsa, könüllü şəkildə postunu tərk etsin. Amma onun hakimiyyətdən bərk yapışaraq Fransaya söykəndiyini, Avropa İttifaqına daxil olmaq istədiyini görürük. Yəni Paşinyanın ikibaşlı, qeyri-müəyyən siyasi davranışları Hayastana yaxşı heç nə vəd eləmir. Əgər, o, bölgədə sülhün və təhlükəsizliyin bərpa olunmasını istəyirsə, Bakının irəli sürdüyü şərtləri yerinə yetirməli, bundan sonra sülh sazişini imzalamalı və dünya ilə münasibətləri sahmana salmalıdır. Əks-təqdirdə, post-sovet məkanında, Avrasiyada baş verən hadisələrin ən pis ssenarisinə hazır olmalıdır.

# Süni intellekt yeni texnoloji inqilab yaradır

## *Ölkəmiz rəqəmsal gələcəyə inamla gedir*

**Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" ilə dövlətin texnoloji inkişaf konsepsiyasında yeni bir mərhələnin başlanması rəsmiləşdirilib. Ekspertlər tərəfindən bu strateji sənəd Azərbaycanın dünya süni intellekt ekosistemində fəal rol oynayan, etik standartlara sadiq, inklüziv və davamlı tərəqqiyə səbəb olan bir ölkəyə çevrilmə istiqamətində atdığı ciddi addım kimi yüksək dəyərləndirilib.**

Bu strateji sənəd Azərbaycanın süni intellekt texnologiyalarının təşəkkül tapması, tətbiqi və tənzimlənməsi baxımından dövlət səviyyəsində ilk sistemli yanaşmasını ehtiva edir. Beləliklə, Azərbaycan rəqəmsal gələcəyin formalaşmasında söz sahibi olmaq iddiasını bir daha beynəlxalq dünyanın diqqətinə çatdırır. Strategiyanın təsdiqi ilə dövlətin texnoloji inkişaf konsepsiyasında artıq yeni bir mərhələ rəsmiləşdirilib. Bununla da təkcə texnologiyanın idxalı və istifadəsi deyil, eyni zamanda, milli səviyyədə süni intellektin tədqiqi, inkişafı və inteqrasiyası gündəmdə yer alıb. Ümumiyyətlə, diqqətə çatdırılan bu sənədlə texnoloji yeniliklərin tətbiqi ilə bərabər, həm də bu yeniliklərin etik, hüquqi və sosial çərçivədə həyata keçirilməsi üçün yol xəritəsi müəyyənləşdirilib.

Sənədin əsas məqsədlərindən biri süni intellektin idarə olunması üçün milli sistemin formalaşdırılmasıdır. Bu idarəetmə modeli şəffaflıq, hesabatlılıq və etik prinsiplərə əsaslanan çevik və innovativ yanaşmaları ehtiva edir. Beləliklə, texnologiyanın sürətli inkişafı fonunda vətəndaşların hüquq və maraqları da qorunur.

Strategiyanın fərqləndirici xüsusiyyətlərindən biri də onun etik və inklüziv prinsiplərə əsaslanmasıdır. Süni intellekt texnologiyalarının təkcə iqtisadi səmərə baxımından deyil, həm də sosial ədalət və dayanıqlılıq aspektindən qiymətləndirilməsi sənəddə öz əksini tapır. Bu isə Azərbaycanın texnoloji inkişafının yalnız bir təbəqənin deyil, bütün cəmiyyətin rifahına yönəltmək əzmindən xəbər verir.

Ekspertlər qeyd edirlər ki, strategiyada göstərilən yanaşma beynəlxalq təcrübəyə uyğundur və ölkənin qlobal süni intellekt ekosistemində fəal oyunçuya çevrilməsi üçün ciddi potensial yaradır. Eyni zamanda, sənədin tərtibində beynəlxalq təşkilatların, elmi institutların və özəl sektor nümayəndələrinin fikirləri nəzərə alınıb ki, bu da strateji vizyonun hərtərəfli olmasını gerçəkləşdirir.

Strategiyada süni intellekt texnologiyalarının ilkin tətbiq ediləcəyi prioritet sahələr də dəqiq müəyyənləşdirilib. Bu sıraya kənd təsərrüfatı, səhiyyə, nəqliyyat və təhsil sektorları daxil edilib. Bu sahələrin seçilməsi isə təsadüfi olmayıb. Belə ki, hər birində süni intellekt texnologiyalarının tətbiqi diqqətdə saxlanılmaqla həm xidmət



keyfiyyətinin yüksəldilməsinə, həm də insan resurslarının daha səmərəli istifadəsinə böyük əhəmiyyət verilib.

Kənd təsərrüfatı sahəsində süni intellekt torpaq məhsuldarlığının təhlili, suvarma sistemlərinin avtomatlaşdırılması, xəstəliklərin erkən diaqnostikası və zərərvericilərlə mübarizə kimi istiqamətlərdə tətbiq oluna bilər. Süni intellektin rolunun ərzaq təhlükəsizliyinin gücləndirilməsində və kənd əhalisinin rifahının yüksəldilməsində də önə çəkiləcəyi gözlənilir.

Səhiyyə sektorunda süni intellekt texnologiyaları diaqnostik proseslərin avtomatlaşdırılması, tibbi məlumatların təhlili və fərdi müalicə protokollarının hazırlanması ilə bu sahədə xidmətlərin keyfiyyətini artırmağa yönəldilib. Bu məsələdə səhiyyə resurslarının daha səmərəli bölgüsünə imkan yaradılacağı da nəzərdə tutulub.

Nəqliyyat sahəsində isə "ağıllı" nəqliyyat sistemlərinin qurulması, hərəkət sıxlığının idarə olunması, avtomatlaşdırılmış nəqliyyat vasitələrinin tətbiqi və yol təhlükəsizliyinin gücləndirilməsi əsas istiqamətlər sırasındadır. Bu texnologiyalar, eyni zamanda, ətraf mühitin mühafizəsinə töhfə verməyə qadirdir.

Strategiyanın həyata keçirilməsi üçün dövlət və özəl sektor arasında səmərəli əməkdaşlıq zəruridir. Bu məqsədlə innovasiya mərkəzləri, texnoparklar və startap ekosistemləri üçün xüsusi təşviq mexanizmlərinin hazırlanması nəzərdə tutulur. Eyni zamanda, yerli şirkətlərin beynəlxalq təcrübədən bəhrələnməsi üçün qlobal texnologiya nəhəngləri ilə tərəfdaşlıq imkanlarının genişləndiriləcəyi də planlaşdırılır.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nda ölkədə süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə olunması mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını gerçəkləşdirmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək qarşıya mühüm vəzifə kimi qoyulub. Sənəddə nəzərdə tutulan tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə tapşırılıb.

Strategiya Azərbaycanın qlobal inkişaf tendensiyalarına uyğun olaraq süni intellekt sahəsində beynəlxalq çağırışlara cavab vermək və ölkənin rəqabət qabiliyyətini artırmaq məqsədini daşıyır. Eyni zamanda, yüksək hesablama infrastrukturunun inkişafı, süni intellektin etik və məsuliyyətli istifadəsi, qlobal standartların tətbiqi, məlumatların məxfiliyinin qorunması və innovativ həllərin risklərinin azaldılması da hədəflər arasındadır.

Strategiya çərçivəsində müəyyənləşdirilən prioritet istiqamətlərin həyata keçirilməsi ilə süni intellektin inkişafı dəstəklənəcək, müvafiq infrastruktur qurulacaq, etik və hüquqi çərçivə yaradılacaq, kadr potensialı gücləndiriləcək və əlverişli biznes mühiti reallaşdırılacaq.

### Ekspert rəyi

***Ayaz MUSEYİBOV,***
***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi icraçı direktorunun müavini***



Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi prioritetinin icrası nəticəsində innovasiyaların təşviqi və sərmayələrin cəlbi ilə ölkə iqtisadiyyatı gücləndiriləcək, eyni zamanda, etik və hüquqi çərçivə yaradılması ilə cəmiyyətin maraqları qorunacaq, süni intellektin tətbiqi zamanı şəffaflıq və ədalət gerçəkləşdiriləcək. Bu, eyni zamanda, süni intellektə olan etimadı artıraraq sosial-iqtisadi faydaların daha geniş yayılmasına imkan verəcək.

"Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nda "Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi" prioritetinin icrası məlumatların səmərəli idarə olunmasını, təhlükəsizliyini və yüksək hesablama infrastrukturunun inkişafını gerçəkləşdirəcək. Təbii Dil Emalı (TDE) texnologiyalarının gücləndirilməsi müxtəlif sektorlarda məlumatların təhlilini və qərar qəbuletməni daha səmərəli edəcək. Bu, süni intellektin tətbiqi üçün lazımi texnoloji bazanın yaradılmasını, məlumatların daha düzgün və təhlükəsiz istifadəsini şərtləndirəcək. Nəticədə, rəqəmsal transformasiyanın inkişafına və müasir texnologiyaların səmərəli istifadəsinə imkan yaranacaq.

"Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi" prioritetinin icrası süni intellekt sahəsində ölkənin kadr potensialını gücləndirərək mütəxəssislərin hazırlanmasını təmin edəcək və dövlət orqanlarının rəhbər heyətinin süni intellektin tətbiqi sahəsində biliklərini artıracaq. İctimaiyyətin məlumatlığının artırılması və tədqiqatların təşviqi ilə cəmiyyətdə texnologiyalara inam güclənəcək və süni intellektin tətbiqinin etik və məsuliyyətli şəkildə yayılması reallaşdırılacaq. Bu, həm də dövlətin və özəl sektorun rəqəmsal transformasiyasını sürətləndirəcək, həm də ölkənin süni intellekt sahəsində beynəlxalq mövqeyini möhkəmləndirəcək.

"Əlverişli biznes mühitinin yaradılması" prioritetinin icrası süni intellekt sahəsində sərmayə qoyuluşunu artırmağa, innovasiyaları dəstəkləməyə və bazar iştirakçıları üçün əlverişli şərait yaratmağa xidmət edəcək. Dövlətin təşviq etdiyi qanunvericilik dəyişiklikləri və təşviqatlar vasitəsilə startaplar və texnoloji şirkətlər üçün daha əlverişli iş mühiti yaradılacaq. Bu, həmçinin müstəqil sahibkarlığın inkişafını sürətləndirəcək, yerli və beynəlxalq investorların diqqətini cəlb edəcək və süni intellektin inkişafına töhfə verəcək. Nəticədə, iqtisadiyyatda yeni iş imkanları yaradılacaq və rəqabət qabiliyyəti güclənəcək.

# Azərbaycanın da superkompüteri olacaq

## *Bu infrastruktur süni intellektin tətbiqinə çevik imkanlar yaradacaq*



**İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) təşkilatçılığı ilə "Sənaye 4.0: imkanlar və perspektivlər" mövzusunda dəyirmi masa keçirilib.**

Nazirliyin yaydığı məlumatda bildirilir ki, dəyirmi masa İqtisadiyyat Nazirliyi tərəfindən yaradılacaq superkompüter infrastrukturuna dair müəssisələrin ehtiyaclarını müəyyənləşdirmək və qarşılıqlı əməkdaşlıq imkanlarını araşdırmaq məqsədilə təşkil edilib. Masada süni intellekt və yüksək performanslı hesablama sahəsində fəaliyyət göstərən müəssisələrin, eləcə də ali məktəb, tədqiqat institutları və texnoloji startapların 50-dən çox mütəxəssislərinin hesabatları dinlənilib.

Dəyirmi masada İqtisadiyyat Nazirliyinin rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanov bildirib ki, superkompüter infrastrukturu yüksək hesablama gücünə tələbatın artdığı bir dövrdə mürəkkəb iqtisadi modellərin qurulması, məlumatların dərindən təhlili və süni intellektin tətbiqi sahələrində dayanıqlı və çevik həllər təqdim etmək məqsədilə yaradılır.

Qeyd olunub ki, superkompüterdən Milli Məkan Məlumatları İnfrastrukturunun qurulması, böyükhəcmli məlumatların ("Big Data") yaradılması və təhlili, investisiya qoyuluşlarının modelləşdirilməsi, tədqiqatların aparılmasında və s. istifadə olunması planlaşdırılıb. Dövlət qurumları ilə yanaşı, özəl sektorun və vətəndaş cəmiyyətinin bu infrastrukturdan yararlanması nəzərdə tutulub.

4SİM-in icraçı direktorunun müavini Soltan Bayramov superkompüter infrastrukturunun böyükhəcmli məlumatların sürətli emalı, mürəkkəb hesablama və təhlillərin aparılması üçün vacib vasitə olduğunu vurğulayıb. Bu infrastrukturun sənayenin rəqəmsallaşması, avtomatlaşdırma və "ağıllı" istehsal sistemlərinin inkişafına zəmin yaratdığı qeyd olunub.

Tədbirdə superkompüter texnologiyalarının tətbiqi və inkişafı ilə bağlı beynəlxalq təcrübə barədə təqdimat nümayiş olunub. Superkompüter infrastrukturunun texniki imkanları barədə məlumat verilib. Bildirilib ki, superkompüter 1.2 PFLOPS gücündədir. Superkömpüter NVİDİA H200 qrafik çipləri əsasında yığılıb.

Dəyirmi masada iştirak edən mütəxəssislər ölkəmizdə superkompüter infrastrukturunun yaradılmasının müsbət addım olduğunu vurğulayıblar. Bu infrastrukturun nəticələrin dəqiq hesablanması, daha sürətli və daha dəqiq iqtisadi proqnozlaşdırma və analiz, qərar qəbuletmədə simulyasiya və əsaslandırılmış arqumentlərə əsaslanmaya imkan verəcəyi bildirilib.

Tədbirdə məlumatların emalı və analitik potensialın artırılmasının önəmi qeyd edilib. Mütəxəssislər ölkədə yüksək hesablama gücünə olan tələbat, texniki ehtiyaclar, infrastrukturdan istifadə və elmi-tədqiqat potensialının gücləndirilməsi kimi mövzularda fikir mübadiləsi aparıblar.

# Faraş meyvə-tərəvəz ölkəyə 200 milyon dollar qazandırıb

**2025-ci ilin yanvar-aprel aylarında Azərbaycandan 207,1 milyon ABŞ dolları dəyərində 175,7 min ton meyvə-tərəvəz ixrac edilib. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb.**



Hesabata əsasən, ölkədən ixrac edilən meyvə-tərəvəzin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 26,8 milyon dollar və ya 14,8 faiz, həcmi isə 26,1 min ton və ya 17,5 faiz artıb. Xatırladaq ki, 2024-cü ilin ilk 4 ayında Azərbaycan 180,3 milyon dollar dəyərində 149,5 min ton meyvə-tərəvəz ixrac edib.

Komitənin məlumatında bildirilir ki, hesabat dövründə ölkədən 70,7 milyon dollar dəyərində 60,2 min ton pomidor, 53,9 milyon dollar dəyərində 7,97 min ton meşə fındığı, 32,9 milyon dollar dəyərində 45,8 min ton xurma, 26,6 milyon dollar dəyərində 38,8 min ton alma, 4,3 milyon dollar dəyərində 5 min ton nar, 1,8 milyon dollar dəyərində kartof 5,1 min ton kartof ixrac olunub.

Qeyd edək ki, cari ilin yanvar-aprel aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,36 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 19,38 faizə bərabər olub.

# Şirvanın su şəbəkəsi yeniləşdirilir

**Şirvan şəhərinin dayanıqlı və keyfiyyətli içməli su ilə təchizatının yaxşılaşdırılması məqsədilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Şirvan Şəhər Sukanal İdarəsi tərəfindən zəruri işlər görülüb.Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına əsasən, şəhərin küçə və prospektlərdə qəzalı vəziyyətdə olan su xətləri təmir edilərək mövcud çatışmazlıqlar aradan qaldırılıb. Ümumilikdə, cari ilin ötən dövründə şəhərin ayrı-ayrı küçələrində müxtəlif diametrli 928,5 paqonometr uzunluğunda su xətləri təmir edilib.**



Eyni zamanda, şəhər ərazisində 363 ədəd mexaniki su sayğacı, 5 ədəd müxtəlif diametrli yeni siyirtmə quraşdırılıb. Şəhərin Heydər Əliyev və Tofiq İsmayılov küçələrində məhəllədaxili kanalizasiya sistemində istismara yararsız olan xətlər, çoxmənzilli yaşayış binalarının zirzəmisində isə tullantı su boruları təmir edilib. Şəhər ərazisində baş vermiş tutulmalar və kanalizasiya xətləri iri həcmli xüsusi texnika və maşınlarla yuyularaq təmizlənib.

Bununla yanaşı, 63 nəzarət quyusu xüsusi maşınla çikrabdan təmizlənib, 1270 paqonometr kanalizasiya xətti yuyulub, bunun da nəticəsində 76 kubmetr çirkab su kənarlaşdırılıb. İlin ötən dövründə içməli su və kanalizasiya xətlərində baş vermiş qəzaların nəticələri vaxtında aradan qaldırılıb.

Şirvan Şəhər Sukanal İdarəsinin rəisi Fərhad Hüseynov görülmüş işlər barədə məlumat verərək bildirib ki, işlər əhalinin su ilə təminatı üçün tərtib olunmuş plan əsasında davam etdirilir. Abonentlər şəhər ərazisindən keçən 1200 millimetrlik Şirvan-Muğan xəttindən ayrılmaqla 710 millimetrlik, 450 millimetrlik və 410 millimetrlik xətlərlə üç istiqamətdə içməli su ilə təmin olunur.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı hazırda Şirvan şəhərində də İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti tərəfindən su təchizatının və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri davam etdirilir. Layihəyə uyğun olaraq şəhərin müxtəlif küçələrini əhatə etməklə 606 paqonometr müxtəlif diametrli yeni su xətti, 2379 paqonometr müxtəlif diametrli yeni kanalizasiya xətləri çəkilib, 241 ədəd kanalizasiya baxış quyusu inşa edilib, 232 ədəd mexaniki su sayğacı quraşdırılıb. Görülən işlər zamanı qazılmış asfalt örtüyünün 11 min 83 kvadratmetri bərpa edilib.

Fərhad Hüseynovun sözlərinə görə, Şirvan şəhərində "2025-ci il Dövlət layihəsi" çərçivəsində su və kanalizasiya çəkilişi bir neçə küçədə başa çatıb. Məhəmməd Əsədov, Şirvan, Şəhidlər və Mehdi Hüseyn küçələrində işlər tamamlanıb. 580 sayğac quraşdırılaraq əhalinin istifadəsinə verilib.

Qeyd edək ki, abonentlərə göstərilən su və tullantı su xidmətlərinin dayanıqlılığını təmin etmək məqsədilə Şirvan Şəhər Sukanal İdarəsi tərəfindən şəbəkələrə daimi nəzarət həyata keçirilir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Uşaq hüquqları cəmiyyətin gələcəyini qoruyur



**BMT-nin Uşaq Hüquqları Komitəsinin 92-ci sessiyası çərçivəsində Azərbaycan Respublikası Hökumətinin "Uşaq Hüquqları haqqında Konvensiya"-ya dair təqdim etdiyi 5-ci və 6-cı birgə dövri məruzəsi üzrə tövsiyə olunmuş məsələlərlə bağlı işçi qrupun cari il üçün ilk iclası keçirilib.**

Dəyirmi masada yekun müşahidələrdə konvensiyanın ölkəmiz tərəfindən implementasiyası istiqamətində atılmalı olan növbəti addımlara dair verilmiş tövsiyələrin 2024-cü il ərzində icra vəziyyəti təhlil edilib. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən iclasda aidiyyəti dövlət qurumlarını təmsil edən nümayəndələr tövsiyələr üzrə həyata keçirilən tədbirlər barədə məlumat veriblər.

AQUPDK-nin sədr müavini Aynur Sofiyeva komitənin tövsiyələrinin ölkəmiz tərəfindən icrasına dair həyata keçirilən tədbirləri, əldə olunan nəticələri və qarşıdakı hədəfləri diqqətə çatdırıb. Bildirib ki, ölkənin gələcəyinin uğurlu olması üçün uşaqların sağlam böyüməsi, keyfiyyətli təhsil alması və dəyərlərə sadiq, vətənpərvər və milli ruhda tərbiyə olunması vacibdir. Əgər biz gələcəyimizi güclü görmək istəyiriksə, bu gün uşaqlarımıza maksimum diqqət göstərməliyik. Bu istiqamətdə isə işçi qrupun önəmli rolunu nəzərə alaraq, daha real və funksional koordinasiyaya ehtiyac var.

Son iki ildə əldə olunan nailiyyətlərdən bəhs edən sədr müavini bildirib ki, hüquqi bazanın təkmilləşdirilməsi sahəsində mühüm addımlar atılıb: "Komitə tərəfindən hazırlanmış 10-a yaxın sənəd qəbul olunub. Təhsil və səhiyyə sahəsində inklüzivliyin gücləndirilməsi, erkən və qohumlararası nikahların qarşısının alınması, həssas qrupdan olan uşaqların sosial təminatının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib".

Uşaq hüquqları sahəsində qarşıda duran ən vacib məsələlərdən birinin onları təhlükəli informasiyalardan qorumaq olduğunu vurğulayan sədr müavini bildirib ki, bu istiqamətdə təxirəsalınmaz və vacib addımlar atılmalıdır. Qarşıya qoyulan hədəflərə çatmaq üçün əməkdaşlıq və koordinasiyalı fəaliyyət əsas şərtdir. Bu sahədə fəaliyyət göstərən qurumlar və tərəfdaşlarla güclərimizi birləşdirmək daha effektiv və davamlı nəticələr əldə etməyə imkan yarada bilər. Hüquqları yalnız qanunlarda deyil, həm də ictimai şüurda formalaşdırmaq lazımdır.

Daha sonra AQUPDK-nin uşaq məsələləri şöbəsinin müdir müavini Günel Nağdəliyeva tövsiyələrin icrası istiqamətində komitə, eləcə də, aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib, qarşıda duran mühüm məqamlar şərh edilib.

Komitənin aparat rəhbəri Ceyran Rəhmətullayeva bildirib ki, BMT-nin "Uşaq Hüquqları Konvensiyası"na dair 2027-ci ildə təqdim olunacaq növbəti hesabatın hazırlanmasında illik fəaliyyətlər, eləcə də əvvəlki dövrlərlə müqayisə edilə bilən uzunmüddətli göstəricilər diqqətə nəzərə alınmalıdır. Məlumatlar dəqiq və konkret faktlara əsaslanmalı, real vəziyyəti əks etdirməlidir. O qeyd edib ki, artıq ənənəvi tədbir formatından nəticəyönümlü layihə formatına keçid vacibdir.

Sonra qurumunb təşəbbüsü ilə "Uşaqlara uyğun büdcə qiymətləndirmələri və təkmilləşdirilmiş büdcə effektivliyi daxil olmaqla Dövlət uşaq büdcəsinin formalaşdırılması" mövzusunda aparılmış təhlilin təqdimatı keçirilib.

Maliyyə Nazirliyinin Ortamüddətli xərclərin çərçivəsinin hazırlanması məkəzi maliyyə statistikası və büdcə təsnifatı sektorunun müdiri Elnarə Kazımova və əhalinin sosial müdafiəsi və sosial təminat sahələrinin maliyyəsi sektorunun baş məsləhətçisi Zaur İsmiyev uşaqların rifahının artırılmasına, təhsil, səhiyyə və sosial xidmətlərin təkmilləşdirilməsinə yönəlmiş strategiya və qərar qəbulu üçün əsas rol oynayan büdcə resurslarının bölgüsü, prioritet sahələr, sosial müdafiə proqramları və investisiya istiqamətləri barədə ətraflı məlumat veriblər.

Dəyirmi masa müzakirələrlə davam edib.

# Normal çəki sağlamlığın əsasıdır

## *Çox yemək isə insanı az yeməkdən də qoyar*

**Bu günlərdə artıq çəki ilə bağlı ölkəmizdə keçirilən beynəlxalq konfrans bir daha bu mövzuya qayıtmağımızı zəruri etdi. İndi əhalinin böyük əksəriyyəti artıq çəkidən xilas olmaq yolu axtarır, yersiz arıqlama marafonuna qoşulur. Sosial şəbəkələrdə xüsusi arıqlama pəhrizi ilə məsləhət verənlər də var, müxtəlif dərmanlarla çəki azaltma reseptləri təklif edənlər də.**



İnsan sağlam qidalanmaq, düzgün həyat tərzinə əməl etməkdənsə, niyə hər gördüyündən və qədərindən artıq yeyir, fəal həyat tərzi keçirmir, hərəkətsiz olur? Piylənəndən sonra yaranan sağlıq problemlərini həll etmək üçün isə artıq çəkidən xilas olmaq kimi bir müşküllə üz-üzə qalıb dərmanlar axtarır.

Bu suallara cavab almaq üçün səhiyyə eksperti, tibb elmləri doktoru, professor Musa Qəniyevə müraciət etdik.

**Professor bildirdi ki, arıqlamaq məqsədilə nəzarətsiz dərman qəbulunun ağır fəsad törətməsi və ölümə səbəb ola bilməsi məlum həqiqətdir. Odur ki, bu məqsədlə istifadə olunan dərmanların orqanizmə təsirinin bir çox qaranlıq məqamlarının işıqlandırılması zəruridir:**



– Əsasında 90 faiz baş beyində özünənəzarət və tənqid mexanizminin supressiyası duran kökəlmə – piylənmə, toxluq və aclıq mərkəzi arasında əlaqə və tənzim mexanizminin pozulması nəticəsində baş verir. Bu halın mərkəzi mexanizmlərin disfunksiyası ilə bağlılığını, artıq çəkidən əziyyət çəkən şəxsə yemək yeyərkən "çox yemə, sənə olmaz" – dedikdə, daha çox yeməsi, aqressivləşməsi və sair dəyişik halını, adi, vizual müşahidə də bir daha təsdiq edir. Odur ki, irsi və ya hormonal faktorla bağlı təxminən 5 faiz insanda meydana çıxan piylənmə və ya çəki artıqlığı istisna edilməklə, effektiv müalicə, yalnız mərkəzi tənzim mexanizmlərin disbalansının farmakoloji korreksiyası istiqamətində aparılan terapiyadır. Başqa sözlə, hazırda tövsiyə, təbliğ və istifadə olunan, sayı gündən-günə həndəsi silsilə ilə artan preparatlar və qida əlavələri piylənmə və ya artıq çəkinin qarşısının alınmasında əsas müalicə vasitəsi deyildir.

Diqqət edin: arıqlamaq üçün tövsiyə olunan preparatlar, ya anoreksigen (iştahı azaltmaq), ya piyi əritmək və ya sorulmasının qarşısını almaq, ya işlədici, ya da sidikqovucu təsir göstərməklə, bu prosesi təmin edir. Bu qruplardan olan hər bir potensial aktiv preparat təkrari və nəzarətsiz qəbulda cox ciddi fəsadlara yol aça, hətta insan ölümünə səbəb ola bilər. Belə dərmanların əsas tərkib komponenti subutramindir. Baş beyində aclığa həssas strukturları süstləşdirməklə, iştahı azaldır və tədricən mədə həcminin kiçilməsinə səbəb olur. Lakin preparat ürək fəaliyyə-tinə təsir edə, hətta psixoza səbəb ola bilir. Müalicə kursu fəsadsız başa çatsa belə, sonrakı dövrdə iştaha nəzarət hissi aradan qalxır. Bu isə, orqanizmin daha güclü çəki almasına səbəb olur.

İkinci qrup piyi əridən preparatlar yağların parçalanmasını sürətləndirir. Adi halda orqanizm artıq piyi təbii yolla kənarlaşdıraraq yağın balans nisbətini özü tənzim edir. Piyi əridən preparatlar isə orqanizmə daxil olan bütün lipidləri parçalayır. Bu hal qeyri-orqanik lipolizin sürətlənməsinin nəticəsi olduğundan periferik qanda qliserin və sərbəst yağ turşularının kəskin artımına səbəb olur. Bu da insulinə rezistentlik, ürəyin kəskin işemik xəstəliyi, pankreatit, hətta peroksisomal pozğunluqlar kimi çox qorxulu irsi patologiyaya səbəb ola bilər.

Yağların mənimsənilməsinin qarşısını alan 3-cü qrup preparatlar digər zəruri qida maddələrinin sorulmasının da qarşısını alır. Uzunmüddətli qəbulda bu hal orqanizmin tükənməsinə səbəb olur, adətən, dərman müdaxiləsinə belə dözümlülük göstərir.

**Alim daha sonra qeyd etdi ki, digər qrupa aid edilən sidikqovucu dərman maddələri piy toxumasına birbaşa təsir göstərmir. Yalnız lipid hüceyrələri və toxumalardan suyu kənarlaşdırmaqla çəkini azaldır:**

– Bu zaman su ilə birlikdə orqanizmdən minerallar da xaric olur ki, bu da ağır nəticələrə səbəb ola bilər. Müalicə kursu uğurla başa çatsa belə, pozulmuş su balansı sürətlə bərpa olunur və xəstə müalicədən öncəki çəkisinə qayıdır. Arıqlamaq məqsədilə istifadə olunan işlədicilər üzərində xüsusi olaraq dayanmaq istəmirəm. Çünki diareyanın (ishalın) törətdiyi su itkisinin həyat üçün son dərəcədə təhlükəli olması hamıya məlumdur.

Bundan başqa, sellyuloza və nişasta tərkibli dərmanların daha təhlükəsiz preparat kimi dəyərləndirilməsi də sırf marketinq maraqlara xidmət edir. Çünki onların qəbulu və istifadəsinə qeyri-elmi yanaşma orqanizmdə vitamin və mineral çatışmazlığı kimi çox ciddi pozğunluğa səbəb ola bilir.

**Professor çəkini azaltmaq üçün istifadə olunan aktiv qida əlavələrindən də danışdı. Bildirdi ki, qida əlavələri dərman preparatı deyildir, onların klinik tədqiqatları aparılmayıb. Orqanizmə müsbət və ya mənfi təsiri haqqında elmi məlumat yoxdur. Odur ki, müvafiq məqsədlə onların sərbəst və ya dər-man preparatları ilə birlikdə istifadəsinə yol verilməməlidir:**

– İnsanlar tövsiyələrə diqqət etsəydilər, sağlıq problemləri bu qədər çox olmazdı. Amma bir mütəxəssis olaraq onu deyə bilərəm ki, hazırda dünya əhalisinin 20 faizindən çoxu piylənmə, 43 faizə qədəri isə, çəki artıqlığı kimi ciddi xəstəlik və qəfləti ölümlərdə risk faktoru sayılan vəziyyətdən əziyyət çəkir. Sağlam həyat tərzi, düzgün qidalanmaq insanın sağlam yaşamasının 1-ci şərtidir. Buna əməl etməyəndə piylənmənin və çəki artımının olması qaçılmazdır. Bundan sonra məcburən çox vaxt dərmanlarla müdaxiləyə zərurət yaranır. Belə halda piylənmə və ya çəki artıqlığının səbəbi əsas götürülməklə mütləq şəkildə yüksək ixtisaslı mütəxəssis həkimin tövsiyəsi, nəzarəti və təyinatı əsasında dərman müalicəsi aparılmalıdır.

Loğmanların dediyi kimi, insan, hər şeydən öncə, sağlamlığının qeydinə qalmalıdır. Hər kəs sağlam həyat tərzinə keçməli, hər gün müəyyən məsafəyə yürüş etməli və qidasına diqqət etməlidir.

# Türkiyədə əməyin mühafizəsi mövzusunda müzakirə

**Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbəri və əməkdaşları Türkiyəyə səfər edib. Azərbaycanın nümayəndə heyəti səfər çərçivəsində Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin rəhbəri İbrahim Esenkarla görüşüb.**




Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Vəli Quliyev ölkəmizdə əmək münasibətlərinin tənzimlənməsi və əməyin mühafizəsi sahəsində son illərdə həyata keçirilən islahatlar barədə məlumat verib. O, iki ölkə arasında bu sahədə uğurlu əməkdaşlığın həyata keçirilməsinin məmnunluq doğurduğunu, əməkdaşlıq çərçivəsində aparılan təcrübə mübadilələrinin qarşılıqlı faydalı olduğunu vurğulayıb.

İbrahim Esenkar Azərbaycan və Türkiyə arasında sosial sahədə genişlənən əlaqələrin əhəmiyyətindən bəhs edib. O, əmək münasibətləri və iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunması istiqamətində həyata keçirilən təcrübə mübadilələrinin önəmini diqqətə çatdırıb.

Görüşdə əməyin mühafizəsi sahəsində hər iki ölkədə görülən işlər və bu sahədə gələcək əməkdaşlıq müzakirə olunub.

# BSTA ilə əməkdaşlıq genişlənir

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Beynəlxalq Sosial Təminat Assosiasiyasının Baş katibi Marselo Abi-Ramia Kaetano görüşüb. Görüş Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası ilə Dövlət Sosial Müdafiə Fondunun Bakıda "Müasir dünyanın çağırışları kontekstində sosial müdafiə sistemlərinin uyğunlaşdırılması" mövzusunda birgə təşkil etdiyi beynəlxalq konfrans çərçivəsində keçirilib.**

Anar Əliyev son illər ölkəmizin sosial təminat sistemində aparılan islahatların nailiyyətlərini, sosial islahatlar prosesində BSTA ilə əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdırıb. Bu Təşkilatın üzv ölkələrdə sosial təminat sistemlərinin mütərəqqi təcrübələrə uyğun təkmilləşdirilməsində önəmli dəstəyi vurğulanıb. Nazirlik və qurumları ilə BSTA-nın əməkdaşlığının daim genişləndiyi, ötən il DSMF ilə BSTA arasında imzalanan əməkdaşlıq sənədinin əlaqələrin genişlənməsinə xidmət etdiyi qeyd olunub.

Marselo Abi-Ramia Kaetano rəhbəri olduğu təşkilatın ölkəmizdə aparılan davamlı sosial islahatları yüksək dəyərləndirdiyini, nazirlik və qurumlarının BSTA ilə fəal əməkdaşlığından məmnunluğunu qeyd edib. O, hazırda Bakıda keçirilən, sosial müdafiə sistemlərinin müasir çağırışlara uyğunlaşdırılmasına həsr olunan beynəlxalq konfransın əhəmiyyətini vurğulayıb.

Görüşdə BSTA ilə ƏƏSMN arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

# Yurda qayıdanlar üçün peşə kursları

**Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün fəal məşğulluq proqramlarını davam etdirir.**

Böyük Qayıdış Proqramının icrası çərçivəsində agentlik 2 minə yaxın şəxsi peşə hazırlığı kurslarına cəlb edib. Onlardan 210 nəfər işğaldan azad edilmiş ərazilərimizə köçürülüb, digərlərinin isə yaxın vaxtlarda köçürülməsi nəzərdə tutulur. Dövlət Məşğulluq Agentliyi sakinlərlə köçməzdən öncə məşğulluq imkanlarının qiymətləndirilməsi üçün görüşlər keçirir. Bu görüşlər zamanı onların bir qisminin məşğulluq imkanlarının artırılması üçün peşə kurslarına cəlb edilmələri məqsədəuyğun hesab edilərək bu yöndə müvafiq işlər aparılır.

Agentlik hazırda Laçın şəhəri və Zabux, Sus, Bəylik, Giləbird kəndləri, Şuşa şəhəri və Turşsu qəsəbəsi, Füzuli şəhəri və Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Malıbəyli kəndi, Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndinin sakinləri üçün peşə hazırlığı kursları təşkil edir.




Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan bu kurslara həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il köçürülməsi nəzərdə tutulan işsiz şəxslər müraciət edə bilər. Peşə kurslarını bitirənlərin bu kurslarda yiyələndikləri peşələr üzrə məşğulluğunun təminatına da dəstək göstərilir.

Ödənişsiz təşkil edilən kurslarda təlim müddəti 6 aya qədərdir.

# İsmayıllı "DOST evi"nin yeni dostları

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllı rayonundakı "DOST evi" filialında növbəti benefisiar qəbulu keçirilib.**

**Mərkəzin Qiymətləndirmə Komissiyası tərəfindən İsmayıllı və Şamaxı rayonlarından müraciət edən, həssas əhali qruplarına aid 20-yə yaxın vətəndaşın yaradıcı potensialı qiymətləndirilib. Onlardan 16 nəfər filialda müxtəlif fəaliyyət istiqamətləri üzrə təlim proqramlarına cəlb olunub. Həmin şəxslər dulusçuluq, xalçaçılıq, toxuma və tikmə, un məmulatları və qənnadı, bədii oyma və dərzilik istiqamətləri üzrə bacarıqlarını inkişaf etdirmək imkanı əldə ediblər.**

Hazırda 33 benefisiarı olan "DOST evi"ndə, ümumilikdə, 10 müxtəlif fəaliyyət istiqaməti üzrə məşğələlər aparılır. Müəssisənin xidmətlərindən 5 həssas kateqoriyaya aid şəxslər yararlanır. Bunlar əlillər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi olanlar və onların övladları, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələrin üzvləridir.

Bu kateqoriyalara daxil olan 6 yaşdan yuxarı istedadlı şəxslər DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və onun İsmayıllıda, Bərdədə yerləşən "DOST evi" filiallarının xidmətlərindən yararlanmaq üçün DOST mərkəzlərinə və Sosial Xidmətlər Agentliyinin yerli nümayəndəliklərinə müraciət edə bilərlər.

*Səhifəni hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Sənət dünyamız sənətkar gözü ilə

*Yaxud mərhum ədibin görkəmli bəstəkar haqqında ürək sözləri*



**Bu günlərdə bir qrup musiqiçi ilə birlikdə görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanovun qonağı idik. Söhbət mərhum şair-tərcüməçi Siyavuş Məmmədzadədən düşəndə (Siyavuş müəllim ev sahibinin qayını idi) Tofiq müəllim dedi ki, o, nəinki hansısa əsərə, kitaba, hətta istənilən yazıya, qeydə, xatirəyə böyük ehtiramla yanaşırdı.**

Məsələn, təxminən on-on beş il bundan qabaq Siyavuş Yazıçılar Birliyində mənim haqqımda olan kiçik bir məqalənin əl yazısını görmüş və xahiş edib həmin yazını götürmüşdü. Üstəlik, Yazıçılar Birliyinin kadrlar şöbəsinin müdiri Arifə Əliyevadan xahiş etmişdir ki, bu yazının müəllifinin imzasını təsdiq edin. O da vərəqlərin sonuna "Qılman İlkinin imzasını təsdiq edirəm" yazmış və möhürlə təsdiqləmişdir.

Tofiq müəllim əlavə etdi ki, Qılman İlkin Azərbaycan Dövlət Nəşriyyatının rəhbəri işləyəndə mən həmin nəşriyyatın musiqi şöbəsinin müdiri idim. Yəni birlikdə çalışdığımız dövrdən mənim yaradıcılığıma və dostluğumuza böyük hörmətlə yanaşırdı. Bu vərəqlərdəki ürək sözləri də mərhum dostumun səmimiyyətindən xəbər verir.

Ustad bəstəkarın xahişini nəzərə alaraq böyük ədibin həmin yazısını "Xalq qəzeti"-nin oxucularına təqdim edirik.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

## *Musiqi mücahidi*

Sənətkar var ki, özünü sənətinə qurban verməyə həmişə hazırdır. Bu adam, demək olar ki, öz sənəti ilə nəfəs alır, onunla yaşayır. Belə bir sənətkarı xatırlayanda həmişə Tofiq Bakıxanov yada düşür. Bir sözlə, Tofiq Bakıxanov, demək olar ki, öz sənətinin mücahididir. O, həmişə hərəkətdədir, bikar ( müəllif bekar yox, bikar yazıb) oturduğu an da olmur. O, küçədə gəzərkən elə bil harasa tələsir.

Tofiq yalnız bəstəkar deyil, öz sənətinin təşkilatçısı, yaradıcısıdır. Mən onun bu gözəl məziyyətinə 1950-ci illərdə onunla birlikdə "Azərnəşr"də işlədiyim günlərdə bələd olmuşam. O illərdə Tofiq "Azərnəşr"də musiqi şöbəsinin müdiri idi. O bu vəzifəyə gəldiyi 3-4 ayın ərzində şöbəni, demək olar ki, musiqi evinə çevirmişdi. Qısa müddət ərzində Azərbaycan musiqisinin bütün tanınmış nümayəndələrini öz ətrafına toplamışdır.

Qəbul etdiyi musiqi əsərlərinin geniş müzakirəsini keçirirdi. Müəlliflərin təzəcə yazdığı mahnılar, lirika ilk dəfə, demək olar ki, onun otağında səslənirdi. Hamının hörmətini qazanmışdı. Onların içərisində muğamları dərindən bilən ikinci adam çətin tapılardı. Bu da əsassız deyildi. Çünki o, Əhməd Bakıxanovun evində tərbiyələnmişdi. O dövrdə Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun və başqa böyük sənətkarların əsərləri nəfis şəkildə çap olunurdu. Bu yalnız Tofiq Bakıxanovun səyi və səliqəsi ilə əmələ gəlirdi.

Tofiq Bakıxanov böyük ustadı Üzeyir bəyin yolunu davam etdirirdi. O, yalnız öz fəaliyyəti ilə deyil, hər cəhətdən də böyük Üzeyirin yolunu davam etdirirdi. Məsələn, Üzeyir bəy öz yaradıcılığında İran həyatından, İran tarixindən aldığı mövzular əsasında tez-tez muğam operaları yazmışdı. Bunlardan 1909–1915-ci illər ərzində "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şeyx Sənan", "Şah Abbas və Xurşid banu" və başqa muğam operaları yazmışdı. Ondan sonra bu mövzunu davam etdirən Tofiq Bakıxanov olmuşdu. O bu sahədə yorulmadan çalışaraq, bu mövzuda beş muğam simfoniyası yazaraq Azərbaycan musiqi xəzinəsini zənginləşdirmişdi.

Tofiq Bakıxanov bizim bəstəkarlar içərisində ən məhsuldarıdır. O, həmişə yeniliyə can atmış, tamaşaçıları sevindirmişdi. O, balet yazılışı tarixinə yeni nəfəs, yeni mövzu ilə gəlmişdi. Onun son zamanlarda yazdığı birpərdəli üç balet əsəri öz müasir mövzuları ilə seçilir.

Tofiq Bakıxanov dinclik bilməyən sənətkardır. Ömrünün çox hissəsini xarici ölkələrə səfərlərdə keçirib. Səfərdən qayıtdıqdan sonra başqa Şərq ölkələrinin musiqisi ilə qarşılıqlı əlaqələrdən bəhs edən mütləq bir yazı meydana qoyurdu. 2004-cü ildə çap edilmiş "Azərbaycan və İran musiqilərinin qarşılıqlı əlaqələri" belə səfərlərdən birinin nəticəsidir.

1991-ci ildə isə o, altı saylı "İran sonatası"nı çap etdirdi. Bəzən təəccüblənirsən. O bu əsərləri yazmaq üçün necə vaxt tapır.

Bəstəkarın həyat və fəaliyyəti ilə tanış olduqca ona ancaq həsəd aparmaq olar.

***Qılman İLKİN***

# Azərbaycanlı alimlərin türkologiyaya töhfələri

**Türkiyənin "İKSAD Yayın Evi" Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov və dosent Güləhməd İmanovun müəllifi olduqları "Türk etnoqrafiyası" və "Türk kültürü və etnoqrafiyası" monoqrafiyalarını nəşr edib.**




Hər iki kitabda geniş elmi faktlara əsaslanaraq türklərin çoxəsrlik tarixi, adət-ənənələri, dini inancları, yaşayış tərzi və sosial-mədəni inkişaf mərhələləri ətraflı şəkildə təhlil olunur, türklərin ilkin tarixi dövrlərdən başlayaraq məskunlaşdığı məkanlar, yayılma arealları və müxtəlif dövlət qurumları haqqında məlumat verilir, türk xalqlarının yaşayış tərzi, geyimləri, yemək mədəniyyəti, ailə və qəbilə strukturu, toy, yas və digər mərasimləri detallı şəkildə təsvir edilir. Türklərin qədim dini inancları – şamanizm, tengrizm və sonrakı dövrlərdə İslam dininin qəbul edilməsi, bunun sosial və mədəni həyatda yaratdığı dəyişikliklər geniş şəkildə işıqlandırılır. Türk xalqlarının qədim dövrlərdən bəri məşğul olduqları sənət sahələri — xalçaçılıq, dulusçuluq, metallurgiya, dəriçilik və atçılıq mədəniyyəti kimi sahələrin etnoqrafik və iqtisadi baxımdan əhəmiyyəti vurğulanır.

"Türk etnoqrafiyası" və "Türk kültürü və etnoqrafiyası" kitabları təkcə etnoqrafik və mədəni araşdırma deyil, həm də türk kimliyinin formalaşmasında rol oynayan əsas amillərin dərin elmi təhlilidir. Hər iki kitab türkoloqlar, tarixçilər, mədəniyyətşünaslar və etnoqraflar üçün, eləcə də Türkiyə ilə maraqlanan hər kəs üçün dəyərli mənbədir.

Professorlar Əsgər Rəsulov və Nadir Məmmədlinin elmi redaktoru olduğu kitablar AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilib.

***XQ***

**Dünən AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Xalq şairi Sabir Rüstəmxanlının əsərlərinin 15 cildliyinin təqdimatı keçirildi. Mərasimi giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açdı. O, Sabir Rüstəmxanlının çoxşaxəli bədii-publisistik yaradıcılığını geniş təhlil etdi.**




# İstiqlal şairinin ədəbi və əbədi marafonu

Akademik görkəmli ziyalının Azərbaycanın dövlət müstəqilliyinin bərpası və inkişafında rolundan, ictimai xadim kimi xidmətlərindən danışaraq dedi ki, canlı mübariz olan istiqlal şairinin publisistikası da milli fikir müstəvisində xüsusi istiqamət açıb, nəsri də yetərincə güclüdür: "Ötən əsrin son onilliyində onun təsis etdiyi ilk müstəqil mətbu nəşr – "Azərbaycan" qəzeti, ən azı, 100 min, bəzən də 500 min tirajla çıxırdı.

Sabir Rüstəmxanlını bir alim kimi də nümunə süayıla bilər. Onun namizədlik dissertasiyası olan "Molla Nəsrəddin və folklor" mövzusu bu gün də aktualdır. Şairin əsərlərinin cildlərinə görkəmli alimlərin geniş ürəklə "Ön sözlər" yazması onun yaradıcılığına necə yüksək dəyər verildiyinin bariz göstəricisidir".

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxışında dedi ki, Sabir Rüstəmxanlının "Ömür kitabı" Azərbaycan ədəbiyyatının inkişafında yeni bir mərhələdir. Onunla hələ gənclik ilərindən başlanan dostluğunun zamanın sınaqlarından mətanətlə çıxdığını dilə gətirən Anar bildirdi ki, Sabir bəyin istedad, iradə və zəhmətlə hasilə yetirdiyi 15 culdliyinin təqdimatı əlamətdar hadisədir.

Sabir Rüstəmxanlını "mütəfəkkir şair" adlandıran akademik Nizami Cəfərov dedi ki, onun fenomenal istedadı, biliyi, yaddaşı var və bundan sonra daha 20 cild də yaza bilər: "Müəllifin söz sənəti naminə göstərdiyi xidmətlər milli təəssübkeşlik örnəyidir, ədəbi və əbədi səciyyəlidir. O, cəmiyyətin ruhunu bilən və qələmə alan cəsarət sahibidir. Yazıları, çıxışları ilə daim zəkamıza və ürəklərimizə impuls verir və fundamentallığı qoruyub saxlaya bilir. Ana dilinin müqəddəsliyini, milli ideologiya spektrlərini xalqa yaxın intonasiya ilə çatdırandır".

Mlili Məclis sədrinin müavini, akademik Rafael Hüseynov isə dedi: "Sabir Rüstəmxanlının çoxcildliyinə bütövlükdə "Azərbaycannamə" də demək olar. Onun "Qan yaddaşı"nı unudulmaz alimimiz Xudu Məmmədov möcüzəli ad hesab edirdi. Sabirin əsərlərinin bütün cildləri məhz milli yaddaşın diqtəsi, duyğulu illüstrasiyalarıdır, janr və formasından asılı olmayaraq, sırf azərbaycançılıq məfkurəsinə xidmət edir. O, istedadı millətə necə sərf etməyi bilən ziyalıdır. Xalq hərəkatında "Azadlıq" meydanında şairin alovlu çıxışları, onun "Azərbaycan" qəzetinin əl-əl gəzməsi yaxın tariximizin işıqlı anlarını təşkil edir".

***Mən sözün ağası,***
***söz mənim qulumdur,***
***Mən haqqın yolçusu,***
***haqq mınim yolumdur...***

– deyən əsl şair, böyük ziyalı haqqında Milli Məclisin deputatı Fəzail İbrahimli də ürək sözlərini şövqlə dilə gətirdi. Sabir yaradıcılığının səciyyəvi cəhətlərindən bəhs edərək dedi ki, onun örnək vətəndaşlıq mövqeyi və xəttinin yazılı ifadələri olan 15 cildlik əsərləri, eyni zamanda, hər kəs üçün etibarlı və dəyərli mənbədir.

Daha sonra Xalq yazıçısı Çingiz Abdullayev, şair Rüstəm Behrudi, deputat Qüdrət Həsənquliyev, görkəmli siyasi xadim Həsən Həsənov, professor Qəzənfər Paşayev, Xalq yazıçısı Elmira Axundova və başqaları təqdim olunan əsərlərlə bağlı duyğu və düşüncələrini ifadə etdilər.

Sonda Sabir Rüstəmxanlı çıxış edərək, yaradıcılığına diqqət göstərənlərə və mərasimə toplaşanlara dərin minnətdarlığını bildirdi. Əsərlərinin 15 cildliyində yaradıcılığını tam ehtiva etməyə çalışdığını bildirən Xalq şairi hayat yolu ilə bağlı xatirələrə daldı. Çıxışlarda xatırladılan "Sağ ol, ana dilim", "Salam, Gəncə qapısı", "Səttar Bəhlulzadə küçəsi" və digər şeirlərinin yazılma tarixçəsindən danışdı. İlk şeirlərində adlarını çəkdiyi Məhəmməd Hadinin, Cavad xanın hər ikisinin sonralar yazdığı romanlarının qəhrəmanı olduqlarını bildirdi: "Elə insanlar, sənətkarlar, milli qəhrəmanlar, rəmzlər var ki, onlarsız tariximizi, milli kimliyimizi, xarakterimizi təsəvvür edə bilmərik".

Belə mübariz qələm sahiblərindən biri də elə Xalq şairi Sabir Rüstəmxanlının özüdür.

***Ə.DOSTƏLİ***
***XQ***

# Milli teatrımız beynəlxalq meridianlarda

**Xəbər verildiyi kimi, ötən həftə Moskvada Beynəlxalq Teatr İttifaqları Konfederasiyasına üzv ölkələrin nümayəndələrinin iclası keçirilib. Görüşdə Azərbaycan, Rusiya, Belarus, Moldova, Qazaxıstan, Tacikistan, Özbəkistan, Qırğızıstan və digər ölkələr təmsil olunublar. Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədri, Xalq artisti Hacı İsmayılovdan səfər təəssüratlarını oxucularla bölüşməsini xahiş etdik.**



– Çox faydalı bir səfər idi, – deyə ATXİ sədri bildirdi. Hər iki ildən bir belə toplantımız olur və görülən işlər sərf-nəzər edilir. Budəfəki iclas 17-ci Beynəlxalq Çexov Teatr Festivalının açılışı ilə eyni vaxta düşmüşdü. Yeri gəlmişkən, orda iştirak etmək hər bir dövlətin teatr qurumları üçün şərəfli bir şansdır. Bir çox məsələlər həll olundu.

Mən də, festivalla əlaqədar Moskvada olan Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, İttifaqımızın İdarə Heyətinin üzvü, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov da iclasda çıxış edərək, ürək sözlərimizi söylədik, qarşılıqlı mədəni əməkdaşlığa hər zaman hazır olduğumuzu bildirdik və konfederasiyaya hədiyyələr təqdim elədik.

İclasın başlıca məqsədi konfederasiyasiyanın və təftiş komissiyasının hesabatlarını dinləmək və yeni prezidenti seçmək idi. Deyim ki, bu qurumu yaradan məşhur aktyor və rejissor Mixail Şadrin olub. O, dünyasını dəyişəndən sonra 3 il ərzində bu missiyanı həyat yoldaşı davam etdirib. Bir çoxları onun təsdiqlənməsini istəyirdi, amma prosedur qaydalara görə ən azı 2 nəfərin namizədliyi verilməlidir deyə, həm onun, həm də Qırğızıstandan tanınmış aktyor Daniyar Maşkovun namizədliyi təsdiqləndi və yekun seçkinin iyul ayında keçirilməsi razılaşdırıldı.

Bizim əsas təqdimatımız ondan ibarət idi ki, Azərbaycan Teatr Xadimləri İttifaqı hansı işləri görüb, nələrə nail olub. Vitse-prezidentin də vurğuladığı kimi, Konfederasiyaya üzvlük haqqını yeganə olaraq Azərbaycan vaxtlı-vaxtında ödəyir. Halbuki, digər ittifaqlarsa maddi durum səbəbi ilə bunu edə bilmirlər. Azərbaycandan nümunə götürülməsi tövsiyə olundu. Biz eyni zamanda UNESCO-nun Beynəlxalq Teatr İnstitutunun üzvüyük.

***– Bu üzvlüklərin nə kimi xeyri var?***

– Xeyri budur ki, qarşımızda beynəlxalq səviyyədə geniş təmsil olunmaq imkanı açılır. Festivallarda iştirak etmək, nailiyyətlərimizi göstərmək, qarşılıqlı faydalı əməkdaşlıqdan bəhrələnmək üçün əsaslı zəmin yaranır. Elə götürək Çexov festivalını: 1992-ci ildən keçirilir, ilk dəfə Azərbaycan Milli Dram Teatrı orada Şekspirin "Kral Lir" tamaşası ilə təmsil olunub. Festivaldan başqa, Gənclərin Beynəlxalq Teatr Forumları da keçirilir və Azərbaycan çox fəal iştirak edir. Məsələn, 2021-ci ildə Özbəkistanda təşkil olunan 4-cü Foruma Azərbaycandan 3 teatr rəssamı, 3 tənqidçi, 2 dramaturq qatılıb. Əsas məqsəd gənc istedadlar üçün "ustad dərsləri", yaradıcılıq mübadilələri keçirmək, tamaşalar təqdim etməkdir. 2024-cü ildə isə Qazaxıstanda keçirilmiş forumda daha böyük fəallıq göstərdik: Azərbaycandan ora 22 nəfər getmişdi, əksəri aktyorlar idi.

Onu da deyim ki, hər il beynəlxalq konfederasiyadan üzv respublikalara komissiyalar gedir və baxdıqları tamaşalardan birini seçib Çexov festivalına aparırlar. Akademik Milli Dram Teatrının "Sənsiz" tamaşası o yolla festivala gedib və iştiraka görə mükafatlandırılıb. Gənclərimiz belə tədbirlərdən zəngin təəssüratla qayıdır və əxz etdikləri yeni inkişaf stimuluna görə ATXİ-yə minnətdarlıq edirlər. Əslində, Azərbaycan Mədəniyyət Nazirliyinin yeni rəhbərliyinin diqqəti sayəsində teatrlarımızda böyük canlanma yaranıb.

***– Bildiyimiz qədərincə, nazirlik yeni-yeni teatr layihələrinə lazımi dəstək göstərir.***

– Elədir. Canlanmanın bir amili də budur. Məsələn, biz nazirliklə birlikdə "Qonaq teatr" layihəsinə başladıq. Bir il ərzində bu layihə üzrə bölgələrdən 11 teatr Bakıya gələrək 19 tamaşa təqdim etdi. İndiyədək belə şey olmamışdı. Xaricdən teatr kollektivlərini də dəvət etdik. Antalya Böyük Şəhər Bələdiyyə Teatrı, Trabzon Sənət Teatrı da gəlib burda anşlaqla tamaşalar verdilər.

Məsələ bundadır ki, bu layihəyə qədər yerlərdə olan teatrlarımız yalnız öz şəhər və rayonları çərçivəsinə qapılmışdılar. Bir-birilərindən xəbərsiz idilər. Bizim layihənin sayəsində əsl canlanma hiss olundu. Ardınca biz paytaxt teatrlarının bölgələrdə premyeralarına start verdik. Bu kimi sınaqlar, imtahanlar məsuliyyət hissini də gücləndirir və uğurları da artırır.

***– Hacı müəllim, bu il daha hansı yeniliklər gözlənilir?***

– Bu il Moskvada "Akustuik teatr məktəbi" adı altında Teatr Forumu keçiriləcək. Ora da rejissorları, aktyorları göndərəcəyik. Onlar orada dərslərdə iştirak edəcək, tamaşalar hazırlayacaqlar. Bütün bunlar mədəniyyət vasitəsi ilə xalqları daha da yaxınlaşdırmaq məramına xidmət edir. Ulu öndər Heydər Əliyev deyirdi ki, xalq bir çox xüsusiyyətlərinə görə başqa xalqlardan seçilir, ən birincisi və vacibi mədəniyyətdir. Mədəniyyəti yüksək olan xalq həmişə irəli gedəcək, inkişaf edəcək və ucalacaq. Bizim ittifaqımız da Mədəniyyət nazirliyi başda olmaqla, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı öndə olmaqla belə bir canlanmaya nail olur.

Qeyd etdiyim kimi, biz Moskvada olarkən bu teatrın rəhbərliyi də orada idi. Onlar həm Çexov festivalının açılışında iştirak etdilər, həm də Vaxtanqov teatrı ilə memorandum imzalamaq, qarşılıqlı yaradıcılıq əlaqələri yaratmaq üçün ilkin danışıqlar apardılar.

***– Yəni ayrı-ayrı teatrlarımız da öz xətləri ilə beynəlxalq əməkdaşlığı genişləndirirlər.***

– Bəli. Bu baxımdan Gəncə, Şəki teatları bir neçə belə festivalda iştirak edib. Bu, bizi sevindirir. Bildiyimiz kimi. Bu il Şəkidə 4-cü Beynəlxalq Teatr Festivalı keçirildi. Ora region teatrlarımızla bərabər, Qazaxıstan və Özbəkistandan sənət kollektivləri gəlmişdi. Şəki teatrı Şekspirin "Heç nədən hay-küy" tamaşasını çox gözəl ifa elədi, göründü ki, bu səhnə əsərini artıq beynəlxalq səviyyədə təqdfim etmək olar.

***– ATXİ region teatrlarına daha necə dəstək göstərir?***

– Bu zərurət bizim nizamnaməmizdə də qeyd olunub. Biz nazirliklə bərabər, bacardığımız qədər yerlərdə teatr sənətini yüksəltməyə çalışırıq. Bu ildən ATXİ-nin İdarə Heyətinin iclaslarını səyyar olaraq bölgələrdə keçirməyə başlamışıq. İlk belə iclas Gəncədə oldu. Sonra Lənkəranda, Xaçmazda da İdarə Heyətimiz toplaşdı. Ətraf rayonlarıdan gələnlər də vardı. Yeri gəlmişkən, xalq teatrlarında xidmətləri olanlara "Teatr fədaisi" medalı, diplomlar, fəxri-fərmanlar veririk. Yerlərdə vəziyyəti dərindən öyrənir, əlimizdən gələn mənəvi, maddi və texniki köməklik edirik. Elə "Qonaq teatr" layihəsi üzrə region teatrlarının Bakıya səfərlərini biz özümüz təşkil edirik və sair.

Ən çox da gənclərə hər baxımdan "yaşıl işıq" yandırmağa çalışırıq. Hər il ittifaqımızın laboratoriyalarında hazırlanan tamaşalarla bağlı ATXİ-nin Mustafa Mərdanov səhnəsində "Baxış" teatr festivalı keçiririk. Orda 4–5 tamaşa oynanılır. Peşəkarlar da, başqa sənət sahibləri də gəlib iştirak edir və mükafatlandırılırlar. Teatrlarımıza seyrçi axını da çoxalıb, deyə bilərik.

***– Şəxsi yaradıcılığınız nə yerdədir?***

– Hazırda milli dram teatrında Xalq yazıçısı Elçinin "Baş" romanı əsasında hazırlanan tamaşanın məşqləri gedir. Orda mən əsas rollardan birini oynayıram. Mehriban Ələkbərzadənin hazırladığı bu tamaşa şüarçılıqdan uzaq, çox maraqlı bir sənhə əsəri olacaq…

***– Bəs "Mustafa" ("Həm ticarət, həm ziyarət") film üçün darıxmır ki?***

– Açığı, yox. Vaxtilə çəkildiyimi çəkilmişəm. Son çəkildiyim film rus teatrının çox istedadlı rejissoru İlqar Səfanın ərsəyə gətirdiyi "Doğma torpaq" olub. Bu yaxınlarda Nizami Kino Mərkəzində həmin filmin nümayişi oldu. Orda da qeyd etdim ki, rolum kiçik olsa da, filmə böyük həvəslə çəkilmişəm. Çünki adından da göründüyü kimi, müqəddəs Vətən mövzusundadır. Amma bəzən elə filmlər hazırlanır ki, orda oynamaq mənlik deyil. Bir də ki, burdakı işlərimlə əlaqədar vaxtım da az olur. Hər bir halda fərəhlidir ki, bizim Teatr Xadimləri İttifaqımız bu gün fəallığı ilə seçilir. Elə Moskva Beynəlxalq Teatr İttifaqları Konfederasiyasında bizə olan xoş münasibət, haqqımızda söylənən yüksək fikirlər bizi daha da ruhlandırdı.

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

Xuntaçıların məhkəməsi

# Məhkəmə Gəncənin Ermənistanın siyasi-hərbi rəhbərliyinin tapşırığı əsasında bombalandığını elan edib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 30-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri,





həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev tərəfindən 2020-ci ilin iyul ayında, şərti olaraq “Tovuz döyüşləri” adlandırılan hadisələrin baş verdiyi dövrdə Ermənistan tərəfindən təcavüzkar müharibə törədilməsi, o cümlədən Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhali yaşayan zonaların atəşə tutulması, mülki şəxs və hərbçilərin öldürülməsi və əhalinin mülklərinə vurulmuş ziyanla bağlı hadisə yerinə baxış və digər protokolların ekspert rəyləri tədqiq edilib.

Bildirilib ki, Azərbaycan Respublikasına qarşı törədilmiş təcavüzkar müharibə nəticəsində 12-16, 17, 24 və 25 iyul 2020-ci il tarixlərdə vahid niyyətlə apardıqları təcavüzkar müharibənin növbəti mərhələsində iriçaplı silahlar və istintaqla müəyyən edilməyən digər odlu silahlardan atəşlər açmaqla Tovuz rayonunun Ağdam kəndində mülki şəxs qəsdən öldürülüb, Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli, Yuxarı Öysüzlü, Vahidli, Aşağı Öysüzlü kəndləri və Qazax rayonunun Xanlıqlar kəndindən onlarla mülki şəxsə məxsus fərdi yaşayış evlərinə və təsərrüfatlara xüsusilə külli miqdarda ziyan vurmaqla təcavüzkar müharibəni davam etdiriblər.

Tədqiq olunan sənədlərə əsasən, Azərbaycan Respublikasına qarşı törədilmiş təcavüzkar müharibə nəticəsində Tovuz rayonunun Ağdam kəndi ərazisində öldürülən və yaralananlar olub.

Daha sonra məhkəmədə 2020-ci ildə 44 günlük müharibə nəticəsində zərərçəkmiş kimi tanınmış şəxslər dindirilib.

Zərərçəkmiş şəxs Elçin Şirinov bildirib ki, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində “VAZ 21074” markalı avtomobillə Bərdə şəhərində olarkən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış “Smerç” raketi düşüb.

O, hadisə nəticəsində dərəcəsinə görə sağlamlığa ağır zərər vurmaya aid qəlpə xəsarətləri alıb.

“Bərdəyə çox sayda hücum oldu. “Smerç”ləri dəfələrlə atıblar. Nəticədə çoxlu sayda ölənlər, yaralananlar oldu”, - deyə zərərçəkmiş şəxs bildirib.

Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təranə Məmmədovanın suallarını cavablandıran E.Şirinov hadisə baş verən ərazidə hərbi obyekt olmadığını da söyləyib.

Zərərçəkmiş şəxs Faiq Kərimov bildirib ki, 2020-ci il oktyabrın 28-də gündüz işlədiyi idarənin yaxınlığında yolda təmizlik işləri görərkən olduğu yerdən təxminən 40-50 metr aralıya raket mərmisi düşüb. Mərminin qəlpələri ətrafa səpələnib. Dərhal yerə uzanıb, lakin ətrafa səpələnən qəlpələrin bir qismi sağ qoluna, sağ gözünə və başına xəsarət yetirib. “Gözümü itirdim, bədənimin digər hissələrindən xəsarətlər aldım. Nəticədə əlil oldum”, - deyə F.Kərimov dövlət ittihamçısı Fuad Musayevin sualını cavablandıran zaman deyib.

Zərərçəkmiş şəxs Şükür Kərimli bildirib ki, 2020-ci il oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndində yaşadığı evdə olarkən partlayış səsi eşidib və çölə çıxıb. Çölə çıxan zaman qonşuluqda yaşayan Ehtiram İsmayılova məxsus fərdi yaşayış evinə mərmi düşməsinin şahidi olub. Dərhal evə daxil olmaq istəyərkən yaşadıqları evin üzərinə və ətrafına ümumilikdə 4 ədəd mərmi düşüb. Mərmi yaşadıqları evə düşərkən sağ bud və kürəyinin sağ nahiyəsindən, bacısı Elnurə Kərimova isə sağ bud nahiyəsindən xəsarət alıb. “Hadisə zamanı ətrafa 60-70 bombacıq düşdü”, - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Rasim Yaxin ifadəsində hərbçi kimi 2020-ci ildə 44 günlük müharibədə iştirak etdiyini, Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa və digər ərazilərdə döyüşlərdə olduğunu bildirib. O, 2020-ci il noyabrın 6-dan 7-nə keçən gecə Şuşada tank mərmisindən yaralandığını deyib. Nəticədə sol biləyimi, sol gözümü itirdim, bədənimdə qəlpə yaraları var”, - deyə R.Yaxin əlavə edib.

Zərərçəkmiş şəxs Tural Təvəkküloğlu ifadəsində 2020-ci ildə 44 günlük müharibə zamanı Daşkəsən-Kəlbəcər istiqamətində onlar tərəfə atılan mərminin partlaması nəticəsində yaralandığını bildirib.

Müdafiə tərəfinin suallarını cavablandıran T.Təvəkküloğlu deyib ki, onlar tərəfə atəş həm Kəlbəcərdən, həm də Ermənistandan açılıb.

Zərərçəkmiş şəxs Bəxtiyar Kazımov ifadəsində 2020-ci il oktyabrın 10-dan bir neçə istiqamətdə vuruşduğunu deyib. O, 44 günlük müharibə zamanı noyabrın 4-də Şuşa yaxınlığında, “ferma” adlandırılan ərazidə artilleriya atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs Sərxan Abbasov 44 günlük müharibədə iştirak etdiyini, müharibənin ilk günündən – sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutduğunu söyləyib: “Həmin vaxt Göygöl rayonunun Toğanalı yaşayış məntəqəsini, Göygöl Milli Parkının ərazisini ağır artilleriyadan atəşə tuturdular. Bundan sonra əks hücum başladı”.

O, döyüşlər zamanı snayper atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs həlak olanların və yaralıların ərazidən çıxarılması zamanı üzərində tibbi xidmət maşını olmasını göstərən işarə olmasına baxmayaraq, Ermənistan hərbçilərinin həmin avtomobilləri artilleriya atəşinə tutduğunu söyləyib.

S.Abbasov düşmən hərbçilərinin Azərbaycanın şəhid olmuş hərbçilərinin nəşlərinə qarşı qeyri-insani hərəkətlər edilməsi barədə videogörüntülərə baxdığını, videoda həmin hərbçilərin komandiri olan polkovnik Karen Calavyanın göründüyünü, K.Calavyanın hazırda təqsirləndirilən Arayik Harutyunyan tərəfindən qondarma rejimin “qəhrəmanı” adı ilə “təltif” edildiyini də bildirib.

Zərərçəkmiş şəxs Ramiz Ağayev 2020-ci il oktyabrın 17-də yaşadığı Gəncə şəhərinin bombalanması nəticəsində 16 nəfərin, o cümlədən atası Nürəddin Ağayevin həlak olduğunu, özünün, ailə üzvlərinin və digər şəxslərin yaralandığını bildirib.

R.Ağayevin oğlu - zərərçəkmiş şəxs Vüqar Ağayev 2020-ci il oktyabrın 17-də baş verənlərin dəhşətli olduğunu, həmin vaxt yaralandığını deyib.

Zərərçəkmiş şəxs Şiraz Həsənov ifadəsində 9 yaşında Füzuli rayonunun Qaraxanbəyli kəndindən məcburi köçkün düşdüyünü, 44 günlük müharibədə iştirak etdiyini, iki dəfə yaralandığını söyləyib.

Zərərçəkmiş şəxs İsmayıl Mehdiyev ifadəsində 2020-ci il sentyabrın 30-da yaşadığı Tərtər rayonunun Azad Qaraqoyunlu kəndində təsərrüfat işləri ilə məşğul olarkən mərmi düşməsi nəticəsində sol ayağından qəlpə xəsarəti aldığını bildirib.

O, yaxınlıqda hərbi hissə olmadığını da əlavə edib.

Zərərçəkmiş şəxs Mais Mirzəyev 2020-ci ildə 44 günlük müharibədə iştirak etdiyini, müxtəlif istiqamətlərdə döyüşlərdə olduğunu, oktyabr ayında Hadrut istiqamətində yaralandığını bildirib.

“Düşmən xüsusilə Hadrut istiqamətində artilleriya, o cümlədən minaatanlarla atəş açırdılar”, - deyə o əlavə edib.

David Manukyan ona “Birinci kim hücum edib?” sualını ünvanlayıb. M.Mirzəyev suala “Biz əks hücumla cavab vermişik” deyərək cavab verib

Məhkəmədə zərərçəkmiş şəxslərin barəsindəki tibbi-ekspertiza rəyləri də elan olunub.

Daha sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi Nəsir Bayramovun iştirakı ilə 2020-ci il oktyabrın 4-dən 18-dək olan müddət ərzində Gəncə şəhərinə atılmış raket atəşləri nəticəsində mülki şəxslərin qəsdən öldürülməsi, mülki infrastruktura ciddi ziyan vurulması və s. xüsusatlar üzrə cinayət işi materiallarında olan bəzi sənədlər tədqiq edilib.

Sənədlərə əsasən, Ermənistanın siyasi-hərbi rəhbərliyinin bilavasitə nəzarəti və şifahi tapşırığı əsasında Ermənistan Respublikasının 1-ci Ümumqoşun Ordusunun 10-cu dağ motoatıcı diviziyasının 6-cı dağ motoatıcı alayını işğal altında saxladıqları Azərbaycan Respublikasının Ağdərə rayonu Suqovuşan kəndi (əvvəlki adı ilə Tərtər rayonunun Suqovuşan kəndi) ərazisinə, həmin ordunun 42-ci əlahiddə artilleriya alayını işğal altında saxladıqları Ağdərə rayonu Aşağı Oratağ kəndi (əvvəlki adı ilə Tərtər rayonunun Aşağı Oratağ kəndi) ərazisinə, eləcə də həmin ordunun 62-ci əlahiddə artilleriya alayını işğal altında saxladıqları Xankəndi şəhər ərazisinə dislokasiya edilməsinə nail olmaqla həmin illər ərzində işğal altında saxladıqları Azərbaycanın digər ərazilərdə Ermənistan istiqamətindən daşıyaraq gətirib qurduqları mühəndis-istehkam mövqelərində əvvəlcədən yerləşdirdikləri, habelə qeyd olunan alayların inventarına daxil etdikləri Rusiya Federasiyasında zavod üsulu ilə istehsal edilmiş, “Smerç” (NATO üzrə M1983) yaylım atəşli reaktiv sistemdə istifadə edilmək üçün nəzərdə tutulmuş 300 millimetrlik “9M528” markalı və 300 millimetrlik 9K58 markalı qəlpəli fuqaslı (dağıdıcı) partlayış dalğalı başlıqla təchiz olunmuş reaktiv raketlərdən, Ermənistan Respublikası ərazisində Azərbaycan Respublikası ilə şərti təmas xəttində yerləşdirdikləri Rusiya Federasiyasında zavod üsulu ilə istehsal edilmiş, “9K72”-“Elbrus” (NATO təsnifatı ilə adı “SS-1c Scud B”) əməliyyat-taktiki təyinatlı raket kompleksində istifadə edilmək üçün nəzərdə tutulmuş fuqaslı təsirə malik olan, “8Ф44” tipli döyüş başlığı ilə təchiz edilmiş raketlərdən 2020-ci il oktyabrın 4-dən 18-dək olan müddət ərzində Gəncə şəhərinə davamlı olaraq intensiv atəşlər açılıb.

Beləliklə, Ermənistan silahlı qüvvələri 2020-ci il oktyabrın 4-də, 5-də, 8-də 11-də və 17-də Gəncə şəhərində vahid niyyətlə ümumilikdə 26 nəfər mülki şəxsi qəsdən öldürüb, habelə 175 nəfər mülki şəxsə qəsdən xəsarət yetirsə də, onların vaxtında zərbələrdən yayınmaları, müxtəlif predmetlər arxasında gizlənmələri, ixtisaslı tibbi yardım göstərilməsi səbəbindən onları qəsdən öldürə bilməyiblər. Həmçinin hadisələr zamanı ümumilikdə dövlət mülkiyyətinə, fiziki və hüquqi şəxslərə xüsusilə külli miqdarda ziyan vurulub.

Tədqiq olunan sənədlərdə Gəncəni raketlərlə hədəf almış Ermənistan silahlı qüvvələrinin hərbçilərinin adları da yer alıb.

Qeyd edilib ki, Gəncə şəhəri Ermənistan Respublikası Silahlı Qüvvələrinin Ermənistanın Stepanavan rayonunda dislokasiya olunmuş 71-ci hərbi texnikaların saxlanması bazasının (51556 saylı hərbi hissə) komandiri polkovnik Artaşen Rafiki Hacatyan, komandir müavini polkovnik-leytenant Ara Artuşi Sarqsyan, “Elbrus” taktiki raket kompleksləri diviziyasının komandiri polkovnik-leytenant Vazgen Daviti Vardanyan, “İsgəndər” taktiki raket kompleksləri diviziyasının komandiri polkovnik-leytenant Tiqran Norayri Vardanyan və qeyrilərinin rəhbərliyi ilə həmin hərbi hissənin ehtiyatında olan “Elbrus” taktiki raket kompleksini Ermənistan Respublikası Geqarqunik vilayətinin Vardenis (tarixi Basarkeçər) ərazisindən 2020-ci il oktyabrın 10-da saat 02 radələrində yenidən hədəfə alıb.

Belə ki, böyük insan tələfatı törətmək məqsədilə və düşünülmüş şəkildə Gəncə şəhərinin aşkar surətdə yalnız mülki obyektlərin mövcud olduğu istiqamətdə hədəfləyərək Gəncə şəhəri, Kəpəz rayonu, Ə.Rəfibəyli küçəsinin 4-cü dalanında yerləşən yaşayış binalarının üzərinə 1 ədəd raket atılıb.

Həmin raketin dinc əhalinin sıx yaşadığı qeyd edilən ünvanlara düşüb partlaması nəticəsində 10 mülki şəxs qəsdən öldürülüb, 1 mülki şəxsə ağır, 18 mülki şəxsə yüngül, 32 mülki şəxsə dərəcəsi təyin edilməyən xəsarət yetirilib.

Oktyabrın 17-də isə “Elbrus” taktiki raket kompleksinin Ermənistan Respublikasının Xnaçax rayon ərazisinə gətirilərək “8Ф44” tipli döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd raketi Gəncə şəhəri istiqamətində atıldığı qeyd edilib. Nəticədə 15 mülki şəxsi qəsdən öldürülüb, 2 mülki şəxsə ağır, 4 mülki şəxsə az ağır, 25 mülki şəxsə yüngül, 48 mülki şəxsə dərəcəsi təyin edilməyən xəsarəti yetirilib.

Məhkəmə prosesi iyunun 2-də davam etdiriləcək.

***XQ***

Əbədiyyət yolçuları

# Qubadlı igid oğlunu unutmur

## *Milli Qəhrəman, şəhid Kərəm Mirzəyevin xatirəsi anılıb*



**Adətən, belə yazılar “yaşasaydı...”, – deyə başlayır. Ancaq Vətəni qorumaq üçün sinəsini düşmən gülləsinə sipər etmiş, yağı qarşısında mərd dayanaraq canını torpaqlarımızın azadlığı uğrunda qurban vermiş şəhidlərimiz cismən yanımızda, aramızda olmasalar da, hər zaman ürəklərimizdə, qəlblərimizdə yaşayırlar.**

Bugünlərdə Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Kərəm Mirzəyevin anadan olmasının 65 illiyi onun adını daşıyan Qubadlı rayon Xanlıq kənd 1 saylı orta məktəbində ehtiramla qeyd edildi.

Qəhrəmanlığı ilə ölümsüzləşmiş şəhidin ad gününə toplaşan Qubadlı Rayon İcra Hakimiyyətinin əməkdaşları, döyüş yoldaşları, ailə üzvləri, yaxınları və məktəbin kollektivi ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş vətən oğullarının əziz xatirələrini andılar, Kərəm Mirzəyev haqqında videoçarxı izlədilər.

Məktəbin şagirdləri tərəfindən vətənpərvərlik mövzusunda, eyni zamanda, şəhidimizə həsr olunmuş şeirlər səsləndirildi. Qubadlı RİH-in Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Sənan Həsənov çıxışında vurğuladı ki, vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ailələrinə, qazilərə və müharibə veteranlarına dövlət qayğısı ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Qubadlı rayonunda da şəhidlərimizin müqəddəs xatirələri hər zaman əziz tutulur. Belə ki, son illər rayon rəhbərliyi tərəfindən milli qəhrəmanlar Əliyar Əliyev, Kərəm Mirzəyev, Vasili Əliyev, Aqil Məmmədov, Bəylər Ağayev və digərlərinin qəbirüstü abidələri yenidən götürülüb. Yaxın gələcəkdə başqa şəhidlərimizin də qəbirüstü abidələrinin bərpası nəzərdə tutulub. Sumqayıtda və digər şəhərlərdə torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş qubadlılılara xatirə lövhələri, barelyeflər hazırlanır.

Vurğulandı ki, rayonun igid oğulları Birinci Qarabağ müharibəsində olduğu kimi, 44 günlük Vətən müharibəsində də qəhrəmanlıq nümunələri göstəriblər, 12 şəhid və 40-dan çox qazi öz adlarını tarixə yazıblar.

Mərasimdə digər çıxış edənlər Kərəm Mirzəyevlə bağlı xatirələrini bölüşdülər, onun qəhrəmanlıqlarından bəhs etdilər. Şəhid Milli Qəhrəmanın oğlu Cahandar, qardaşları Ələddin və Akif Mirzəyevlər göstərdikləri diqqət və qayğıya görə Ali Baş Komandan Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Qubadlı rayon rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# Gəncə: “Əsrə bərabər Suverenlik İli”



**AMEA-nın Gəncə Bölməsində “Əsrə bərabər Suverenlik İli” mövzusnda dəyirmi masa keçirilib. Tədbir “Konstitusiya və Suverenlik İli” çərçivəsində Elm və Təhsil Nazirliyi və AMEA-nın Gəncə Bölməsi tərəfindən təşkil olunub.**

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin AMEA-nın Gəncə Bölməsindəki büstünü ziyarət edərək, müasir dövlətçiliyimizin memarı və qurucusunun xatirəsini ehtiramla yad edib, önünə gül dəstələri düzüblər.

Dəyirmi masa Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi, ümummilli lider Heydər Əliyevin və Vətən torpaqlarının bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb.

AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev çıxış edərək əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müasir dövlətçilik strategiyasının onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla və müasir dünyanın tələblərinə uyğun surətdə davam etdirildiyini bildirib və qeyd edib ki, Müzəffər Ali Baş Komandanın qüdrətli dövlət və ordu quruculuğunun təntənəsi kimi, onun rəhbərliyi altında, millətimizin həmrəyliyi və Azərbaycan əsgərinin misilsiz igidliyi sayəsində Vətən torpaqlarımızın bütövlüyü bərqərar olunub. O, həmçinin ölkə başçısının Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edildiyinin dövlətçiliyimizin daha da möhkəmlənməsi üçün böyük əhəmiyyət daşıdığını bildirib

Sonra dəyirmi masanın məruzələri dinlənilib. AMEA Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, Əlimuxtar Muxtarov, AR ETN Nəbatat Bağının şöbə müdiri, Aynur Bayramova, AR ETN Bioresurslar İnstitutunun direktoru İmran Qasımov, AR ETN Aqrar Problemlər İnstitutunun direktoru Sədaqət Adıgözəlova, AMEA-nın Gəncə Bölməsinin YAP Gəncə şəhər 2 saylı Ərazi Partiya Təşkilatının sədri Vüsal Eminbəyli, AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin elmi işçisi Leyla Kərimova və Bölmənin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Simuzər Qafarlı müxtəlif mövzularda çıxış ediblər.

Məruzələrdə səslənən fikirlər ətrafında müzakirələr aparılıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 112 (30806) 31 may 2025-ci il, şənbə

İdman

## Boksçularımız Qazaxıstanda 5 medal qazanıblar



**Qazaxıstanın Almatı şəhərində ordu generalı Sadaqat Nurmaqambetovun xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnirdə Azərbaycan millisinin üzvləri 5 medal qazanıblar.**

Ordu İdman Klubunun heyətində yarışa qatılan yığmamızın üzvlərindən Sübhan Məmmədov (48 kq) finalda Nurqisa Turabekovu (Qazaxıstan), Maqsud Xasmetov (63,5 kq) Nurlibek Usmanovu (Qazaxıstan) məğlub edərək birinci yeri tutub.

Tural Sarıyev (51 kq), İlqar Salahov (67 kq) və Sərxan Əliyev (71 kq) isə bürünc mükafata yiyələniblər.

## "İdman gimnastikadan başlayır"



**Milli Gimnastika Arenasında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan "İdman gimnastikadan başlayır" estafet yarışları keçirilib.**

Azərbaycan Gimnastika Federasiyasından bildirilib ki, bayram ovqatında təşkil edilən bu tədbir uşaqlara unudulmaz anlar yaşatmaq və onların sağlam, aktiv həyat tərzinə marağını artırmaq məqsədi daşıyıb.

Yarışda 3 fərqli uşaq evindən gələn, ümumilikdə, 30 nəfər uşaq iştirak edib. Onlar "Şahinlər", "Birlik" və "Super balacalar" komandaları adı altında bir araya gələrək 5 fərqli oyun növündə öz çevikliklərini və komanda ruhlarını nümayiş etdiriblər. Əyləncəli atmosferdə keçən estafet yarışı uşaqlara maraqlı təcrübə qazandırıb. Müsabiqə boyu uşaqların şövqü və enerjisi tədbirə xüsusi ab-hava qatıb. Tədbirin ən sevilən qonağı isə Azərbaycan Gimnastika Federasiyasının rəsmi maskotu Tilli olub. O, uşaqlarla birgə əylənib, onların oyunlarına qoşulub və bayram coşqusunu daha da artırıb.

Yarışın sonunda bütün uşaqlar mükafatlandırılıb, qalib komanda isə kubokla təltif olunub.

## Daşkənddə bürünc mükafat



**Azərbaycanın stolüstü tennisçiləri Onur Quluzadə ilə Yağmur Məmmədli Daşkənddə keçirilən "WTT Youth Contender" turnirində uğurla çıxış ediblər. Yığma üzvləri qarışıq-qoşa yarışında bürünc medal qazanıblar.**

Qeyd edək ki, mayın 28-də start götürən yarış bu gün başa çatacaq.

*L.QURBANOVA*
*XQ*

Azərbaycan kuboku – final

# "Qarabağ", yoxsa "Sabah"?

*Cavab bu gün bəlli olacaq*




**Azərbaycan futbolu mühüm hadisə ərəfəsindədir. Bu axşam Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçiriləcək ölkə kuboku yarışının sonuncu, deməli, həm də həlledici, ən şirin oyunu azarkeşlərə əsl bayram tamaşası vəd edir.**

Təkcə finalçılar "Qarabağ"la "Sabah"ın pərəstişkarları deyil, respublikanın hər yerində bitərəf azarkeşlər də rəqiblərdən məzmunlu oyun, yüksək keyfiyyətli futbol gözləməkdə haqlıdırlar. Azərbaycan kuboku kimi fəxri mükafat onu öpüb, qürurla başı üzərinə qaldırmaq arzusu ilə yaşayan hər komandadan, istisnasız olaraq hər futbolçudan 90, bəlkə də, 120 dəqiqə ərzində yorulmadan ustalıqla döyüşmək, əzmlə mübarizə aparmaq bacarığı tələb edir.

Əgər adət etdiyi kimi, Premyer Liqada finişə hələ xeyli qalmış qızıl medalları, eləcə də, növbəti dəfə Çempionlar Liqasına vəsiqəni özünə təmin etmiş Ağdam komandası milli çempionatlarımızda 12-ci zəfərini bayram edib, finala daha sakit şəraitdə hazırlaşıbsa, "Sabah"ın düşərgəsində vəziyyət fərqlidir. Komanda indiki mövsümdə özündən və çıxışlarından müəyyən dərəcədə razı qalmaq üçün finalda mütləq qələbəyə can atmalı və bu məqsədə çatmalıdır. Əks təqdirdə, Premyer Liqa medallarından sonra kubok da əldən çıxacaq, avrokuboklar meydanına aparan yol da onun üzünə bağlanacaq.

Final həm də çempion məşqçi Qurban Qurbanovla onun rusiyalı həmkarı Vasili Berezutskinin rəqabətinə çevriləcək. Görək kimin silahı daha kəsərli olacaq.

"Qarabağ"–"Sabah" finalına marağımızı artıran bir məqamı isə xüsusi qeyd etməyə elə bir ehtiyac yoxdur, amma onun üstündən sükutla da keçmək olmur. İldən-ilə daha mükəmməl oynayıb, daha iddialı görünən Rəşad Sadıqovun "Zirə"sində və avrokuboklar meydanına vəsiqənin taleyinin artıq özündən asılı olmayan, ancaq bu meydanda oynamağa layiq "Turan Tovuz"da hamı final axşamında "Qarabağ" tərəfdarı olub, onun qələbəsini gözləyəcək. Hər şey onların istədiyi kimi olsa, son iki milli çempionatımızın gümüş mükafatçısı "Zirə" Avropa Liqası turnirinə hazırlaşacaq, çempionatımızın dördüncü komandası Tovuz kollektivi də bürünc mükafatçı, tarixində ilk dəfə Avropa "səhnəsinə" yol tapan "Araz Naxçıvan"la birlikdə Konfrans Liqasında oynayacaq. "Sabah"ın qələbəsi təqdirində isə Avroliqada məhz ona azarkeşlik edəcəyik, "Zirə" futbolçuları "konfrans"da çıxış edəcəklər, Tovuz isə avrokuboklardan kənarda qalacaq.

Beləliklə, top meydanın mərkəzindədir. Gözlər Sumqayıta yönəlib. Hakimin saat 19-da səslənəcək start işarəsinə getdikcə daha az vaxt qalır. Çox maraqlıdır, Azərbaycan kuboku kimin üzünə güləcək, final kimin üçün ikiqat bayrama çevriləcək, Avroliqa və Konfrans Liqasına "biletlər" məhz hansı komandalara təqdim olunacaq…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Ağ mələfə "oğrusu"

*ESSE*

**...Bununla neçənci dəfə idi ki, zivədən asdığı ağ mələfələr yoxa çıxırdı. Mələfələrlə yanaşı, qadın zivədən qurutmaq üçün al-əlvan yastıq, yorğan-döşək üzləri, dəsmallar da asırdı. Arada yaş əyin-baş paltarları da olurdu. Ancaq oğru, elə bil, təkcə ağ mələfəyə tamah salırdı. Köhnə məhəllədə indiyəcən belə bir oğurluq halı olmamışdı.**

Bir müddət bundan əvvəl məhəlləyə təzə qonşu köçmüşdü. Bir ana, bir bala – qaçqın düşənlərdən idilər. Qaçqın oğlan qadının oğlu yaşda olardı. Boy-buxunda da elə onun oğlu ilə tən gəlirdi.

Lənət şeytana! Qadının ağlına gələn elə həmin oğlan oldu. Əgər elə idisə...

Qaçqın oğlanın əyin-başı tökülüb gedirdi.

Zivədən oğlunun yuyulmuş paltarlarını da asırdı. Nimdaş olsa da, yararlı idi. Oğru qaçqın oğlan idisə, bəs niyə onları əkişdirmirdi? Əlbəttə, çox güman ki, əyninə geyinib yaxalanmaqdan qorxur... Ağ mələfələri isə, yəqin ki, qəpik-quruşa olsa da, dəyər-dəyməzinə xırıd edir.

Hə, başqa nə ola bilərdi ki?

* * *

Qaçqın oğlana rəhmi gəlsə də, qərara aldı ki, onu güdüb iş başında yaxalasın, bu pis əməli bəri başdan ona tərgitdirsin, oğlunun nimdaş əyin-başından da dilə tutub ona peşkəş etsin..

* * *

Xəlvətə çəkilib pusquda duran qadının gözü zivədə qalmışdı.



...Hə, bax, beləcə... Qaçqın oğlan dördgöz olub ətrafı diqqətlə süzəndən sonra ehtiyatla zivəyə yaxınlaşdı. Dayanıb yenə hər tərəfə bir də baxdı. Arxayın olub zivədəki ağ mələfəni dartdı. Çəkib cəld büküb qatladı. Qoltuğuna vurub, zivədən aralanmağına macal tapmamış qadın başının üstünü aldı.

– Bununla neçənci dəfədir ki...

Oğlan onun əlindən qurtarmağa çalışıb ağladı:

– Buraxın, gedim, mən oğru deyiləm. Sonra oğlan yalvarışa keçdi. – Anam da bilməsin...

Qadın çımxırdı:

– Axı bununla neçənci dəfədir ki, ağ mələfələri çırpışdırırsan...

Oğlan ağlamağını kəsib göz yaşları içərisində boğula-boğula:

– Mən ağ mələfələrə baxa bilmirəm, – dedi, – atamı ağ mələfəyə büküb gətirmişdilər...

*Aydın TAĞIYEV*

# Millimiz Bakı mundialının finalında



**Dünən Azərbaycan minifutbol millisi Bakıda keçirilən dünya çempionatının yarımfinal oyununa çıxıb. Elşad Quliyevin baş məşqçisi olduğu kollektiv yarımfinalda Monteneqro ilə qarşılaşıb.**



Gərgin keçən matç Azərbaycan minifutbol millisinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Baş məşqçi Elşad Quliyev Milli Gimnastika Arenasında komandaya dəstək olan azarkeşlərə təşəkkür edərək deyib: "Hisslərimi sözlərlə ifadə edə bilmirəm. Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Çox gözəl hisslərdir. Şükürlər olsun ki, final matçı oynayacağıq. Bütün futbolçularımızın əlləri, qolları var olsun. Bu gün bizdən xoşbəxti ola bilməz".

Beləliklə, bütün görüşlərdə əzmkarlıq nümayiş etdirən yığmamız mundialın finalına vəsiqə qazanıb.

Həlledici görüş iyunun 1-də təşkil olunacaq.

*XQ*



## Tələbələr üçün "Karyera günü"

**Azərbaycan Universitetində tələbələrin iş dünyasına çıxışının dəstəklənməsi məqsədilə növbəti "Karyera günü" təşkil olunub. Aksiyaya müxtəlif profilli 40-a yaxın şirkət və qurum qatılıb.**

Onların arasında dövlət orqanları, özəl müəssisələr və təhsil şirkətləri yer alıb. İşəgötürənlər tələbələrə öz vakansiyalarını, həmçinin tələbələr üçün nəzərdə tutulan təcrübə və təqaüd proqramlarını təqdim ediblər.

Universitetin rektoru, filologiya üzrə fəlsəfə doktoru Səadət Əliyeva stendləri ziyarət edib, tələbələrə təqdim edilən vakansiyalarla tanış olub. O, sərgidə iştirak edən təşkilat və şirkətlərin nümayəndələri ilə söhbət edib, fikir mübadiləsi aparıb.

Şirkət və təşkilatların nümayəndələri, insan resursları üzrə menecerləri tələbələrin təqdim etdiyi CV və anketləri qəbul edib, onlara işə qəbul prosesinin mərhələləri, effektiv müraciət üsulları və iş müsahibələrinə hazırlıqla bağlı faydalı tövsiyələr verib, həmçinin sualları cavablandırıblar.

*XQ*

HAVA

# Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 31-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**

Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 17-21°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət 40-50 faiz olacaq.Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1085
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00